Səyyad KƏRİMOV

# İnzibati şikayət və inzibati iddia qaydasında hüquqi müdafiə mexanizmlərindən istifadə qaydalarına dair

# TƏLİMAT

alman əməkdaşlığı
DEUTSCHE ZUSAMMENARBEIT

Implemented by:
giz Deutsche Gesellschaft für Internationale Zusammenarbeit (GIZ) GmbH

BAKI - 2022

**Səyyad KƏRİMOV**

**İnzibati şikayət və inzibati iddia qaydasında hüquqi müdafiə mexanizmlərindən istifadə qaydalarına dair**

# TƏLİMAT

**BAKI -2022**

alman
əməkdaşlığı
DEUTSCHE ZUSAMMENARBEIT

Implemented by

giz Deutsche Gesellschaft
für Internationale
Zusammenarbeit (GIZ) GmbH

Bu Təlimat Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ) tərəfindən icra edilən "Cənubi Qafqazda Yerli İnkişaf üçün Yaxşı İdarəetmə" regional proqramı çərçivəsində hazırlanmışdır.

**Səyyad Kərimov. "İnzibati şikayət və inzibati iddia qaydasında hüquqi müdafiə mexanizmlərindən istifadə qaydalarına dair Təlimat".**
Bakı, "Zərdabi-Nəşr" MMC, 2022, 100 s.

© Səyyad Kərimov, 2022

## MÜNDƏRİCAT

**Giriş sözü** .......................................................................4

**1. Ümumi müddəalar** ...........................................................7

**2. İnzibati aktın və ya faktiki xarakterli fəaliyyətin mübahisələndirilməsi zamanı alternativlər** ..................7

**3. İnzibati şikayət üzrə icraat inzibati icraatın yekun mərhələsi kimi** ...................................................................8

**4. İnzibati məhkəmə qaydasında hüquqi müdafiə. İnzibati iddia** .....................................................................43

**5. Yekun müddəalar** ..............................................................97

## GİRİŞ SÖZÜ

Azərbaycan Respublikasının hüquqi həyatında və səmərəli dövlət idarəçiliyinin qurulmasında xüsusi əhəmiyyət daşıyan "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunu həm də dövlət-vətəndaş münasibətlərində vətəndaşların hüquqi mövqelərinin gücləndirilməsi məqsədlərinə xidmət edir. Nəzərə almaq lazımdır ki, yalnız konstitusiya prinsipləri əsasında həyata keçirilən inzibati icraat qaydalarının vahidliyi, şəffaflığı və əlçatanlığı vətəndaşları inzibati orqanların və vəzifəli şəxslərin özbaşınalığından və süründürməçiliyindən qoruya, eyni zamanda inzibati orqanların fəaliyyətinin səmərəliliyinin, idarəçilik funksiyalarının yerinə yetirilməsi ilə bağlı onların məsuliyyətinin artırılmasını və bunun üzərindən inzibati orqanların qəbul etdiyi qərarların qanunauyğunluğunu, cəmiyyətdə hüquqi müəyyənliyin və təhlükəsizliyin bərqərar olmasını təmin edə bilər.

Hüquqi dövlətdə şəxsin hüquq və azadlıqlarının sadəcə olaraq bəyan olunması yetərli sayıla bilməz. Qanunverici həm də bəyan edilmiş hüquq və azadlıqların pozulduğu təqdirdə, belə pozuntulardan qoruna bilmək üçün şəxsi müvafiq səmərəli hüquqi müdafiə imkanları ilə də təchiz etməyə borcludur. Hüquqi müdafiənin səmərəliliyi dövlət orqanları və vəzifəli şəxslər tərəfindən pozulmuş hüquq və azadlıqların bərpasına yönəlmiş hüquqi mexanizmlərdən – hüquqi forma və üsullardan birbaşa asılıdır. Bu baxımdan Qanun bir tərəfdən inzibati orqanların fiziki və hüquqi şəxslərə münasibətdə həyata keçirdikləri icraatın prosedurlarını, tətbiq etdikləri fəaliyyət formalarını və prinsiplərini təsbit edir, digər tərəfdən şəxsi həmin fəaliyyət formalarına qarşı

hüquqi müdafiə imkanları ilə təchiz edir. Eyni zamanda inzibati ədliyyənin yaradılması və İnzibati Prosessual Məcəllənin qüvvəyə minməsi şəxsin hüquqi müdafiə imkanları sferasını daha da genişləndirir və hüquqların qorunmasını həm də məhkəmə təminatı altına alır. Vətəndaşların hüquq və azadlıqlarının qorunmasının və müdafiəsinin real təmin olunması məsələsi müasir hüquqi dövlətin əsas vəzifələrindən sayılır.

Bu sahədə aparılmış islahatların əsas məqsədi inzibati orqanlar tərəfindən insan hüquq və azadlıqlarına əməl olunmasını təmin etməkdən və qanunun aliliyinə nail olmaqdan ibarətdir.

Hazırkı Təlimat "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununa və İnzibati Prosessual Məcəlləyə əsasən hazırlanmışdır və dövlət-vətəndaş münasibətləri çərçivəsində inzibati orqanlar tərəfindən qəbul olunmuş qanunsuz qərarlardan və ya hərəkətlərdən müdafiə olunmaq üçün bu Qanunda və İnzibati Prosessual Məcəllədə nəzərdə tutulmuş hüquqi müdafiə imkanlarından və bununla bağlı şikayət mexanizmlərindən istifadəyə dair vətəndaşların davranış alqoritminin izah olunmasına xidmət edir. Başqa sözlə, bu Təlimatın hazırlanmasında məqsəd inzibati orqanlar tərəfindən qəbul edilən inzibati aktlardan və ya inzibati aktların qəbul edilməsindən imtinadan, yaxud da inzibati orqanların fiziki və ya hüquqi şəxslərə münasibətdə faktiki xarakterli digər fəaliyyətindən inzibati şikayətin və ya məhkəmə qaydasında iddianın verilməsi və həmin şikayət və ya iddialara "İnzibati icraat haqqında" Qanuna və İnzibati Prosessual Məcəlləyə uyğun olaraq inzibati və məhkəmə qaydasında baxılması qaydalarını izah edir.

Bu Təlimat inzibati orqanlar, vətəndaşlar, hakimlər, vəkillər və hüquqşünaslar tərəfindən praktik istifadə üçün nəzərdə tutulmuşdur. Ümid edilir ki, Təlimat həm inzibati orqanların fəaliyyətinin qanunauyğunluğunun və səmərəliliyinin təmin

edilməsinə, həm də fiziki və ya hüquqi şəxslər tərəfindən hüquqi müdafiə mexanizmlərindən daha effektiv və səmərəli istifadə olunmasına töhfə verəcəkdir.

Qeyd olunmalıdır ki, hazırkı Təlimat Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) dəstəyi ilə hazırlanmışdır. Təlimatın ərsəyə gəlməsində verdiyi dəstəyə, xüsusilə də Azərbaycanda inzibati hüquq sahəsində islahatların həyata keçirilməsində yaxından iştiraka və səmərəli əməkdaşlığa görə Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin əməkdaşlarına dərin minnətdarlığımızı və təşəkkürümüzü ifadə edirik.

**Səyyad Kərimov,**
**Azərbaycan Respublikası**
**Ali Məhkəməsinin hakimi.**

## 1. Ümumi müddəalar

**1.1.** Bu Təlimat inzibati orqanlar tərəfindən qəbul edilən inzibati aktlardan və ya inzibati aktların qəbul edilməsindən imtinadan, yaxud da inzibati orqanların fiziki və ya hüquqi şəxslərə münasibətdə faktiki xarakterli digər fəaliyyətindən (hərəkət və ya hərəkətsizliyindən) verilən şikayətlərə inzibati və məhkəmə qaydasında baxılması qaydalarını izah edir.

**1.2.** Bu Təlimat "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununa (bundan sonra – "Qanun"), Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsinə (bundan sonra – "İPM"), Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinə (bundan sonra – MPM) və "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2005-ci il tarixli 345 nömrəli Fərmanına, habelə Azərbaycan Respublikasının digər qanunvericilik aktlarına uyğun olaraq hazırlanmışdır.

**1.3.** Bu Təlimat Azərbaycan Respublikasının qanunvericiliyi ilə inzibati orqan kimi müəyyən edilmiş orqanların fəaliyyətinə və bundan irəli gələn mübahisələrin məhkəmə qaydasında tənzimlənməsinə, o cümlədən mübahisələrin mediasiya qaydasında nizama salınmasına şamil olunur. (Mübahisələrin mediasiya qaydasında nizama salınması zamanı da bu təlimatın müddəalarına istinad etmək mümkündür). Bu Təlimatın müddəaları inzibati orqanların cinayət təqibi üzrə cinayət-prosessual fəaliyyətinə və inzibati xətalara dair işlər üzrə fəaliyyətinə şamil olunmur.

## 2. İnzibati aktın və ya faktiki xarakterli fəaliyyətin mübahisələndirilməsi zamanı alternativlər

**2.1.** İnzibati aktdan və ya faktiki xarakterli digər fəaliyyətdən şikayət inzibati qaydada və ya məhkəmə qaydasında verilə bilər.

**2.2.** İnzibati aktdan eyni zamanda həm inzibati, həm də məhkəmə qaydasında şikayət (inzibati iddia) verildiyi hallarda, şika-

yətə məhkəmə qaydasında baxılır və şikayət instansiyasında həmin şikayət üzrə başlanılmış icraata xitam verilir.

## 3. İnzibati şikayət üzrə icraat inzibati icraatın yekun mərhələsi kimi

**3.1.** İnzibati şikayət üzrə icraatı başlamaq üçün əsas maraqlı şəxsin şikayət ərizəsidir. Şikayət inzibati orqan tərəfindən həyata keçirilmiş inzibati icraatın yekununda qəbul edilmiş inzibati aktdan verilə bilər.

**3.2.** İnzibati icraatın başlanması əsasları aşağıdakılardır:

a. fiziki və ya hüquqi şəxsin ərizəsi;

b. inzibati orqanın təşəbbüsü və ya qanunla nəzərdə tutulmuş hallarda inzibati orqanın inzibati aktı qəbul etmək vəzifəsi;.

c. inzibati aktdan şikayət verildiyi halda, inzibati şikayət.

**3.3.** Öz hüquqlarını və ya qanunla qorunan maraqlarını müdafiə etmək məqsədilə maraqlı şəxslər aşağıdakılardan şikayət vermək hüququna malikdirlər:

**3.3.1.** İnzibati orqan tərəfindən qəbul edilmiş inzibati aktdan (misal üçün, tikintiyə icazə ilə maraqlarına toxunulmuş şəxs tərəfindən həmin inzibati aktdan – tikintiyə icazə barədə sənəddən şikayət verilə bilər);

**3.3.2.** İnzibati orqan tərəfindən inzibati aktın qəbul edilməsindən imtinadan (misal üçün, maraqlı şəxs sosial müavinətin təyin olunması məqsədilə müvafiq inzibati orqana müraciət etmiş, lakin həmin orqan ona müavinətin təyin edilməsindən imtina etdikdə);

**3.3.3.** İnzibati orqanın inzibati aktın qəbulu ilə bağlı olmayan hərəkətindən (misal üçün, inzibati orqan tərəfindən qanunvericiliyə zidd olaraq sahibkarlıq sahəsində aparılan yoxlamaların vahid məlumat reyestrindən çıxarış almadan yoxlama aparılmasından);

**3.3.4.** İnzibati orqanın inzibati aktın qəbulu ilə bağlı olmayan hərəkətsizliyindən (misal üçün, məlumat almaq barədə sorğunun cavablandırılmadığı hallarda, ictimai asayişi davamlı olaraq po-

zan şəxs barəsində polis orqanı tərəfindən qanunvericiliklə müəyyən olunmuş tədbirlərin görülmədiyi hallarda).

**3.4.** Konkret iş üzrə inzibati icraatın təşkili və həyata keçirilməsi ilə əlaqədar inzibati orqan tərəfindən qəbul edilmiş aralıq inzibati aktdan (inzibati orqanın işi mahiyyəti üzrə həll etməyən qərarlarından) müstəqil şəkildə subordinasiya baxımından yuxarı inzibati orqana və ya şikayətə baxmaq səlahiyyətinə malik olan digər orqana (şikayət instansiyasına) şikayət yalnız aşağıdakı hallarla bağlı verilə bilər:

a. inzibati orqanın inzibati icraat çərçivəsində işə baxmağa səlahiyyətinin olub-olmaması (aidiyyət məsələsi) ilə bağlı hallarda (misal üçün, inzibati orqanın maraqlı şəxsin ərizəsinin aidiyyəti üzrə başqa inzibati orqana göndərilməsi barədə qəbul etdiyi aralıq inzibati aktdan həmin şəxs tərəfindən şikayət verilə bilər);

b. işə baxan vəzifəli şəxsə, işə kollegial qaydada baxıldıqda isə kollegiyanın hər hansı üzvünə (üzvlərinə) verilən etirazla bağlı hallarda (misal üçün, vəzifəli şəxsin inzibati icraat çərçivəsində baxılan işin nəticəsində şəxsən maraqlı olduğuna yetərli sübutları olan maraqlı şəxs həmin vəzifəli şəxsə etiraz vermək hüququndan istifadə etdikdə);

c. inzibati icraat üzrə məzmununda qanunla qorunan hər hansı sirr olan sənədin tanış olmaq üçün maraqlı şəxsə təqdim edilməsindən imtina edildikdə (misal üçün, inzibati orqan məzmununda qanunla qorunan hər hansı sirr olan sənədin tanış olmaq üçün təqdim edilməsindən imtina etdiyi təqdirdə, maraqlı şəxs qanunla qorunan maraqlara ziyan vurmadan, həmin sənədin məzmunu haqqında mümkün qədər dolğun məlumat verilməsi barədə şikayətlə müraciət edə bilər);

d. inzibati iş üzrə tələb olunan məlumatın maraqlı şəxsə verilməsindən imtina olunması ilə bağlı hallarda (məzmununda hər hansı sirr olmayan məlumatın hər hansı səbəbdən verilməsindən imtina olunduğu təqdirdə, maraqlı şəxs bununla bağlı şikayət vermək hüququna malikdir);

e. qanunla birbaşa nəzərdə tutulmuş digər hallarda (misal üçün, inzibati orqanın müddətlərlə bağlı qəbul etdiyi qərarlardan).

### 3.5. İnzibati şikayətin verilmə qaydası

**3.5.1.** İnzibati qaydada şikayət maraqlı şəxs tərəfindən şikayət instansiyasına birbaşa, yaxud da inzibati aktı qəbul etmiş inzibati orqan vasitəsilə verilə bilər. (Misal üçün, İqtisadiyyat Nazirliyinin yanında Dövlət Vergi Xidməti tərəfindən inzibati icraat çərçivəsində qəbul olunmuş inzibati aktdan şikayət birbaşa İqtisadiyyat Nazirliyinə, yaxud da Dövlət Vergi Xidməti vasitəsilə verilə bilər). Şikayət maraqlı şəxs tərəfindən inzibati aktı qəbul etmiş inzibati orqan vasitəsilə verildikdə, inzibati orqan həmin şikayəti dərhal müvafiq qaydada qeydiyyata götürməli və 3 (üç) gün müddətində şikayəti inzibati işin materialları ilə birlikdə, şikayət instansiyasına göndərməlidir. İnzibati işin materialları dedikdə, inzibati icraatın obyektiv aparılmasını təmin edən sənədlərin toplusu nəzərdə tutulur. Həmin sənədlər toplusuna ərizəçinin müraciəti, iştirakçıların və şahidlərin izahatları, ekspertlərin və mütəxəssislərin rəyləri, yerində keçirilmiş baxışların protokolları, nümayəndələrin etibarnamələri, verilmiş olduğu halda etirazlar, vəsatətlər, iş üzrə qəbul olunmuş, o cümlədən inzibati icraat müddətinin uzadılması barədə aralıq inzibati aktlar, xəbərnamələrin (bildirişlərin) surətləri və onların inzibati icraat iştirakçılarına çatdırılmasını təsdiq edən qəbzlər, digər inzibati orqanların hüquqi yardım qaydasında təqdim etdiyi arayışlar və bununla bağlı onlara göndərilən sorğuların surətləri, tələb olunan hallarda müvafiq ödənişlərin aparılmasını təsdiq edən sənədlər, konkret inzibati icraata birbaşa aidiyyəti olan sübutlara dair digər sənədlər daxildir.

**3.5.2.** Şikayət maraqlı şəxs tərəfindən birbaşa şikayət instansiyasına təqdim olunduqda, həmin orqan şikayət olunan inzibati aktı qəbul etmiş inzibati orqandan icraatla bağlı materialları tələb edə bilər.

**3.5.3.** Şikayət instansiyası şikayətçi tərəfindən şəxsən təqdim olunmuş və ya poçt rabitəsi vasitəsilə daxil olmuş, habelə inzibati aktı qəbul etmiş inzibati orqandan daxil olmuş şikayəti qəbul etməli və həmin gün qeydiyyata almalıdır. Şikayət instansiyası qəbul edildiyi gündən ən geci 3 (üç) gün müddətində şikayətin qeydiyyat tarixi və nömrəsi haqqında şikayətçiyə məlumat verməlidir.

**3.5.4.** Şikayət instansiyası 3 (üç) gün müddətində şikayətin göstərilən tələblərə uyğunluğunu yoxlayır.

**3.5.5.** Şikayətçi normativ hüquqi aktlarda nəzərdə tutulan və işin həlli üçün zəruri olan sənədləri və ya məlumatları təqdim etmədiyi halda, şikayət instansiyası əlavə sənədlərin və ya məlumatların təqdim olunmasını tələb edə bilər. Lakin bu halda nəzərə alınmalıdır ki, şikayət instansiyası inzibati icraat üçün zəruri olan və digər inzibati orqanın sərəncamında olan sənədlərin və ya məlumatların şikayətçi tərəfindən əldə olunmasını tələb edə bilməz. Belə hallarda şikayət instansiyası zəruri olan və digər inzibati orqanın sərəncamında olan sənədləri və ya məlumatları həmin inzibati orqandan özü əldə etməlidir.

**3.5.6.** Şikayət instansiyası şikayətçidən Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulduğundan əlavə hər hansı digər sənəd və ya məlumat tələb edə bilməz.

**3.5.7.** Qanunda başqa müddət nəzərdə tutulmadıqda, əlavə sənədlərin və ya məlumatların təqdim edilməsi üçün şikayət instansiyası tərəfindən təyin edilən müddət 15 (on beş) gündən çox olmamalıdır. Həmin müddət ərzində əlavə sənədlərin və ya məlumatların şikayət instansiyasına təqdim olunmamasının hüquqi nəticələri barədə şikayətçiyə məlumat verilməlidir. Əlavə sənədlərin və ya məlumatların təqdim olunması üçün müddət təyin olunduğu təqdirdə, şikayətə baxılması ilə bağlı müddətin axımı dayandırılır. Həmin sənədlər və ya məlumatlar şikayət instansiyasına təqdim olunduğu andan müddətin axımı bərpa olunur.

### 3.6. İnzibati şikayətin forması və məzmunu ilə bağlı tələblər

**3.6.1.** İnzibati şikayət yazılı formada tərtib edilməli, şikayətdə aşağıdakı məlumatlar göstərilməlidir:

a. şikayətin verildiyi inzibati orqanın adı və ünvanı – inzibati aktı qəbul etmiş və ya onun qəbul edilməsindən imtina etmiş, habelə inzibati aktın qəbulu ilə bağlı olmayan hərəkətindən və ya hərəkətsizliyindən şikayət edilən inzibati orqanın tam adı;

b. şikayəti verən fiziki şəxsin – soyadı, adı, atasının adı, yaşayış yeri və ya olduğu yer; hüquqi şəxsin adı və hüquqi ünvanı. Şikayət verən şəxs barədə göstərilən məlumatlar həmin şəxsin eyniləşdirilməsi üçün yetərli olmalıdır. Həmin məlumatlara həmçinin telefon əlaqə nömrələri, elektron poçt ünvanı, hüquqi şəxsin faktiki ünvanı da daxil edilə bilər;

c. şikayəti verən fiziki və ya hüquqi şəxsin inzibati icraatda prosessual vəziyyəti;

d. barəsində şikayət verilən inzibati akt və ya hərəkət (hərəkətsizlik). Şikayət inzibati aktdan verildikdə, həmin inzibati aktın adı, qəbul olunma tarixi və qeydiyyat nömrəsi. Şikayət inzibati orqanın hərəkəti və ya hərəkətsizliyi ilə bağlı olduqda, həmin hərəkətin və ya hərəkətsizliyin mahiyyəti, həmin hərəkətlə (hərəkətsizliklə) şikayət verən şəxsin pozulması ehtimal olunan hüquqları və ya maraqları açıqlanmalıdır;

e. şikayəti verən şəxsin tələbi və tələbin əsasları. İnzibati orqandan şikayət verən şəxsin arzuladığı əlverişli inzibati aktın və ya hərəkətin (hərəkətsizliyin) mahiyyəti;

f. şikayətin tərtib edildiyi tarix. Həmin tarix özündə il, ay və ayın gününü əks etdirilməlidir. İnzibati şikayətin verilməsi və inzibati prosedurların başlanılması müddətləri məhz bu tarixdən etibarən hesablanır;

g. şikayəti verən şəxsin imzası. İmza şikayətçinin eyniləşdirilməsi üçün əhəmiyyət kəsb edir. Eyni zamanda, şikayət

verən inzibati şikayəti imza etməklə, həmin şikayətdə əks olunanların onun iradəsinə uyğun olduğunu təsdiq edir. Şikayət elektron poçtla göndərildiyi təqdirdə, o elektron və ya asan imza ilə təsdiq edilə bilər.

* *Bu bəndin "b" və "g" yarımbəndlərində göstərilən müvafiq olaraq şikayət verən fiziki şəxsin soyadı, adı, atasının adı, ünvanı və ya hüquqi şəxsin adı və hüquqi ünvanı göstərilmədən, habelə şəxsi və ya elektron (asan) imzası olmadan verilən inzibati şikayət anonim sayılaraq baxılmamış saxlanıla bilər.*

### 3.7. İnzibati şikayətin forması və məzmunu ilə bağlı tələblərə əməl olunmaması ilə bağlı hallarda inzibati orqanın davranışı

**3.7.1.** İnzibati şikayət Qanunla və bu təlimatla nəzərdə tutulmuş formal tələblərə cavab vermədikdə, inzibati orqan şikayətin həmin tələblərə uyğun olaraq düzəldilməsi üçün qısa müddət təyin edir və formal tələblərə əməl edilməməsinin hüquqi nəticələrini şikayətçiyə izah edir. Bu halda inzibati şikayətin baxılması ilə bağlı bütün prosedur müddətlərin axımı həmin müddətə dayandırılır. Təyin olunmuş qısa müddət həmin şikayətin müvafiq tələblərə uyğun olaraq düzəldilməsi üçün şikayət verən şəxs üçün münasib, yetərli olmalı və real müddəti əhatə etməlidir. Həmin müddət hər bir konkret halda çatışmazlıqların xüsusiyyətindən və digər səbəblərdən asılı olaraq təyin olunmalıdır. Bu zaman nəzərə alınmalıdır ki, müvafiq sahə normativ hüquqi aktlarda həmin çatışmazlıqların aradan qaldırılması üçün konkret müddətlər də nəzərdə tutula bilər. Belə hallarda həmin müddət sahə normativ hüquqi aktda göstərildiyi kimi müəyyən olunmalıdır.

**3.7.2.** İnzibati şikayətin formal tələblərə cavab verməməsinin hüquqi nəticələri şikayətçiyə izah edilən zaman, inzibati orqan (inzibati orqanın vəzifəli şəxsi) şikayət verən şəxs üçün bütün arzuolunmaz nəticələri, o cümlədən də inzibati şikayətin baxılmamış saxlanılması barədə məlumat verməlidir.

**3.7.3.** İnzibati şikayət təyin olunmuş müddət ərzində Qanunla nəzərdə tutulmuş formal tələblərə uyğunlaşdırıldıqda, həmin şikayət vaxtında təqdim edilmiş hesab olunur.

**3.7.4.** Şikayət instansiyası aşağıdakı hallarda inzibati şikayəti baxılmamış saxlaya bilər:

a. şikayət verən şəxs tərəfindən şikayətlə bağlı Qanunla nəzərdə tutulmuş formal tələblərə əməl edilmədikdə, o cümlədən təyin olunmuş müddət ərzində şikayət həmin tələblərə uyğun olaraq düzəldilmədikdə;

b. şikayətin predmeti üzrə digər səlahiyyətli inzibati orqanın və ya məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda;

c. inzibati şikayətin verilməsi üçün qanunla müəyyən olunmuş müddət buraxıldıqda və buraxılmış müddət bərpa edilmədikdə;

d. şikayət maraqlı şəxsin və ya onun nümayəndəsinin ərizəsinə əsasən geri götürüldükdə.

**3.7.5.** Şikayət instansiyası şikayətin baxılmamış saxlanılması barədə qərar qəbul edir. Həmin qərarda şikayətin baxılmamış saxlanılması əsasları göstərilməli və qərar əsaslandırılmalıdır. Həmin qərardan inzibati və ya məhkəmə qaydasında şikayət verilə bilər.

**3.7.6.** Şikayət instansiyası şikayət vermiş şəxsə şikayət üzrə qərar qəbul edilənədək öz rəyini bildirmək imkanı tanımalıdır. Həmin rəy yazılı və ya şifahi şəkildə verilə bilər. Rəy şifahi verildikdə və şikayət üzrə qəbul olunacaq qərar şikayət verən şəxs üçün əlverişsiz olduqda, həmin qərarın əsaslandırmasında şikayət vermiş şəxsin rəyinə inzibati orqan tərəfindən münasibət bildirilməlidir.

**3.7.7.** Bu Təlimatda göstərilən tələblərlə bağlı uyğunsuzluqlar aradan qaldırıldıqdan sonra şikayət verən şəxs ümumi qaydada yenidən inzibati şikayət verə bilər.

### 3.8. İnzibati şikayətin geri götürülməsi

**3.8.1.** İnzibati qaydada verilmiş şikayət üzrə müvafiq qaydada qərar qəbul edilənədək, həmin şikayət maraqlı şəxsin və ya onun nümayəndəsinin ərizəsinə əsasən geri götürülə bilər.

**3.8.2.** Qeyd olunan ərizə inzibati orqan tərəfindən rəsmi olaraq inzibati işin materiallarına əlavə olunur və inzibati şikayətin baxılmamış saxlanılması barədə müvafiq qaydada qərar qəbul edilir. Şikayətin geri götürülməsi barədə ərizədə mütləq qaydada maraqlı şəxsin və ya onun nümayəndəsinin soyadı, adı və atasının adı (hüquqi şəxsin tam adı), imza və tarix göstərilməlidir.

### 3.9. İnzibati şikayət üzrə icraatın iştirakçıları

**3.9.1.** Bir qayda olaraq inzibati icraatın iştirakçıları inzibati şikayət üzrə icraatda da iştirakçı qismində çıxış edirlər. Aşağıdakı şəxslər inzibati icraatın iştirakçıları sayılırlar:

a. inzibati orqan – hər bir konkret halda birbaşa inzibati icraata rəhbərlik edən və konkret məsələnin həlli ilə bağlı müvafiq inzibati aktı qəbul etmək səlahiyyətinə malik olan qurum. İnzibati icraatda inzibati orqan məhkəmə icraatından fərqli olaraq cavabdeh kimi deyil, məhz publik hüquq münasibətləri çərçivəsində dövlət hakimiyyəti səlahiyyətlərini icra edən orqan kimi çıxış edir. Qanuna əsasən inzibati akt qəbul etmək səlahiyyəti verilmiş hər hansı fiziki və ya hüquqi şəxs də inzibati icraatda inzibati orqan qismində çıxış edir (bununla bağlı Nazirlər Kabineti tərəfindən qəbul edilmiş inzibati orqanların təsnifatına bax);

b. barələrində inzibati aktın qəbul edilməsi nəzərdə tutulan və ya inzibati aktın qəbul edilməsi haqqında ərizə ilə müraciət etmiş fiziki və ya hüquqi şəxslər. Burada "şəxs" dedikdə, birinci halda inzibati aktın birbaşa ünvanlandığı şəxs, yəni inzibati aktın özündə birbaşa adı çəkilən şəxs (misal üçün, Məmmədov Məmməd Məmməd oğluna müəyyən ünvanda tikinti işlərinin aparılmasına icazə verilsin).

İkinci halda isə, öz maraqlarının və ya hüquqlarının təmin edilməsi məqsədi ilə müvafiq inzibati aktın qəbul olunmasını xahiş etmiş, yəni ərizə ilə inzibati orqana müraciət etmiş şəxs başa düşülür (məsələn, Abdullayev Abdulla Abdulla oğlu qonşusu Məmmədov Məmməd Məmməd oğluna verilmiş tikintiyə icazənin ləğv olunması barədə ərizə ilə inzibati orqana müraciət edir);

c. inzibati orqan tərəfindən iştirakçı kimi icraata cəlb olunan üçüncü şəxslər. Bu halda, həmin inzibati aktda adı çəkilməyən və ərizə ilə inzibati orqana müraciət etməyən, lakin inzibati icraat nəticəsində qəbul olunacaq inzibati aktla maraqlarına və ya hüquqlarına toxunula bilən şəxslər nəzərdə tutulur (misal üçün, Məmmədov Məmməd Məmməd oğluna verilmiş tikintiyə icazə ilə maraqlarına (hüquqlarına) toxunula bilən tikinti ərazisinə yaxın ərazidə yaşayan qonşular və ya tikinti ərazisində mülkiyyəti olan şəxslər – inzibati icraatda üçüncü şəxs kimi çıxış edirlər).

İnzibati icraat çərçivəsində üçüncü şəxs qismində icraata cəlb olunan vətəndaş öz hüquqlarının və qanunla qorunan maraqlarının həyata keçirilməsi üçün real imkanlara malik olan tamhüquqlu icraat iştirakçısı kimi çıxış edir. Vətəndaşın inzibati icraat zamanı iştirakçı kimi tanınması, ona inzibati icraat prinsiplərinə uyğun olaraq müvafiq vəsatətləri qaldırmaq, dinlənilmək, izahatlar vermək, iş materialları ilə tanış olmaq və s. hüquqlardan istifadə etmək imkanlarının olmasını ehtiva edir. İnzibati icraatda iştirak həmin iştirakçının iş üzrə maddi-hüquqi mövqeyinin mümkünlüyü deməkdir. Bu səbəbdən inzibati icraatı həyata keçirən inzibati orqan hüquqi baxımdan iştirakçıların dairəsini müəyyən etməli və onlarla sonrakı münasibətlərini iştirakçıların statusuna uyğun olaraq qurmalıdır.

* *Publik hüquqa dair klassik (ənənəvi) misal qismində aşağıdakı misalı qeyd etmək olar:*

*Vətəndaş **"A"**-ya məxsus torpaq sahəsində 10 il bundan öncə başlanılmış və yarımçıq qalmış qəzalı vəziyyətdə olan tikili möv-*

*cuddur. Qonşuluqda yaşayan vətəndaş **"B"** qonşu sahədə qəzalı və yarımçıq qalmış tikilinin onun və onunla yaşayan ailə üzvlərinin **("C")** həyatına və sağlamlığına, habelə evinə təhlükə yaratdığına görə həmin tikilinin sökülməsi ilə bağlı inzibati icraat çərçivəsində inzibati orqan **"D"**-yə müraciət edir. Ərizədə digər sübutlarla yanaşı, ərizəçi həmin yarımçıq və qəzalı evdə evsiz və kimsəsiz şəxs olan **"E"**-in müvəqqəti qaldığını da qeyd edir. Vətəndaş **"B"**-nin ərizəsini qəbul etmiş inzibati orqan inzibati icraatın iştirakçılarını müəyyən edərək, kimsəsiz **"E"**-nin maraqlarını təmin etmək məqsədilə sosial təminat orqanı olan **"F"**-in cəlb etmək məsələsinə baxa bilər.*

*Bu misalda, qonşu **"B"** hazırkı işdə ərizəçi, vətəndaş **"A"** qəbul oluna biləcək inzibati akt ilə hüquqlarına toxunula bilən və inzibati aktın birbaşa ünvanlandığı şəxsdir. İnzibati orqan **"D"** bu halda icra hakimiyyəti orqanıdır. Ərizəçinin ailə üzvləri olan **"C"** və kimsəsiz şəxs **"E"** fiziki şəxslər olaraq inzibati icraata üçüncü şəxslər kimi cəlb oluna bilərlər. Eyni zamanda, sosial təminat orqanı **"F"** də üçüncü şəxs qismində icraata cəlb edilə bilən digər inzibati orqandır.*

*Bununla belə nəzərə alınmalıdır ki, ərizəçi **"B"**-nin rəsmi statusu üçün onun tərəfindən verilmiş ərizənin mümkünlüyünün və əsaslı olmasının heç bir əhəmiyyəti yoxdur. Onun bu statusunu təsdiq edən fakt yalnız inzibati icraatın başlanılması üçün müvafiq ərizənin rəsmi olaraq inzibati orqana verilməsi və inzibati icraatda şəxsi marağının olmasıdır.*

*Torpaq sahəsinin və yarımçıq tikilinin sahibi vətəndaş **"A"** inzibati orqan tərəfindən öz təşəbbüsünə əsasən və ya həmin vətəndaşın ərizəsinə əsasən inzibati icraata cəlb edilən və qəbul oluna biləcək inzibati aktın birbaşa ünvanlandığı şəxsdir.*

*İnzibati orqan **"D"** hazırkı inzibati icraatda dövlətin maraqlarına deyil, publik maraqlara uyğun olaraq və publik münasibətlərin tənzimlənməsi məqsədilə çıxış edir. Eyni zamanda, inzibati orqanın inzibati icraat zamanı başlıca vəzifəsi şəxsi, bəzən də mübahisəli maraqların tarazlığını təmin etməkdən ibarətdir.*

*İnzibati icraata üçüncü şəxs kimi cəlb olunmuş sosial təminat orqanı* ***“F”*** *hazırkı inzibati icraatda özünün hər hansı maraqlarını təmsil etmir, yalnız qanunvericiliklə onun səlahiyyətlərinə aid edilmiş vəzifələri icra edir.*

*Sosial təminat orqanı* ***“F”****-in, habelə ərizəçinin ailə üzvü kimi* ***“C”****-nin və həmin evdə hər hansı hüquqi əsas olmadan məskunlaşan evsiz və kimsəsiz şəxs* ***“E”****-in hazırkı inzibati icraatda üçüncü şəxs kimi cəlb olunub-olunmaması məsələsinə inzibati orqan tərəfindən öz təşəbbüsü əsasında və ya vəzifə borcu olaraq baxılmalıdır. Belə ki, inzibati icraat nəticəsində qəbul olunacaq inzibati aktla onların birbaşa maraqlarına və ya hüquqlarına toxunulması ehtimalı yoxlanılmalıdır.*

**3.9.2.** Üçüncü şəxslər icraata iştirakçı kimi cəlb olunduqları zaman ərizədən imtina etmək hüququndan başqa əsas icraat iştirakçılarına aid olan bütün hüquq və vəzifələrə malikdirlər (misal üçün, üçüncü şəxslər inzibati icraatda iştirak edən digər maraqlı şəxslərlə bərabər işin materialları ilə tanış olmaq, öz izahatlarını vermək və ya sübutları təqdim etmək, inzibati icraat nəticəsində qəbul olunacaq inzibati aktdan şikayət vermək və s. hüquqlara malikdir). İcraatın sonunda qəbul olunmuş inzibati akt iştirakı zəruri olan üçüncü şəxsə münasibətdə də etibarlı olur və onun üçün hüquq və vəzifələr yaradır.

**3.9.3.** Fiziki şəxslər yalnız yetkinlik yaşına çatdıqda və tam fəaliyyət qabiliyyətli olduqda inzibati icraatın iştirakçısı ola bilərlər və inzibati icraatda müvafiq prosessual hərəkətləri həyata keçirmək hüququndan istifadə edə bilərlər. Yetkinlik yaşına çatmayan fiziki şəxslərin adından inzibati icraatda onların valideynləri, övladlığa götürənlər və ya qəyyumlar etibarnaməsiz çıxış edirlər. Fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli sayılmış fiziki şəxsləri inzibati icraatda onların qanuni nümayəndələri təmsil edirlər. Qanuni nümayəndələr inzibati orqana öz səlahiyyətlərini təsdiq edən sənədi təqdim etməlidirlər. Qanuni nümayəndələr icraatda iştirak etməyi nümayəndə qismində seçdikləri başqa şəxsə də tapşıra bilərlər. Hüquqi şəxs inzibati ic-

raatda yalnız müvafiq qaydada dövlət qeydiyyatından keçdikdən sonra iştirak edə bilər. Hüquqi şəxs inzibati icraatda onun qanuni təmsilçisi (rəhbəri) şəxsində iştirak edir. Həmin şəxs öz səlahiyyətlərini digər şəxslərə, o cümlədən öz işçilərinə və ya digər fiziki və ya hüquqi şəxslərə də həvalə edə bilər. İnzibati icraatda maddi hüququn hüquqi varisliklə bağlı müddəaları (misal üçün, maraqlı şəxs öldükdə və ya hüquqi şəxs yenidən təşkil edildikdə) tətbiq edilir. Hüquq varisliyi inzibati icraatın istənilən mərhələsində mümkündür. Bununla belə, iştirakçının şəxsiyyəti ilə birbaşa bağlı olan hüquqların hüquqi varislik qaydasında keçməsinə yol verilmir (misal üçün, Azərbaycan Respublikasının vətəndaşlığının alınması ilə bağlı müraciət edən şəxsin ölməsi nəticəsində onun inzibati icraatda mövcud olan hüquqlarının həmin şəxsin hüquqi varisinə keçməsi yolverilməzdir).

**3.9.4.** Fiziki və ya hüquqi (maraqlı) şəxs inzibati icraatda şəxsən iştirak edə bilər və yaxud nümayəndə vasitəsi ilə təmsil oluna bilər. Şəxsin inzibati icraatda şəxsən iştirakı onu həmin iş üzrə nümayəndə ilə təmsil olunmaq hüququndan məhrum etmir. Bu zaman həmin şəxs inzibati icraatda öz nümayəndəsi ilə bərabər çıxış edir. Nümayəndənin səlahiyyətləri Azərbaycan Respublikası Mülki Məcəlləsinin 362-366-cı maddələrinə uyğun olaraq rəsmiləşdirilmiş etibarnamə ilə təsdiq olunur. Nümayəndə təmsil etdiyi şəxsin adından icraatla bağlı bütün prosessual hərəkətləri yerinə yetirmək hüququna malikdir. Etibarnamə istənilən müddətə verilə bilər, lakin etibarnamədə müddət göstərilmədikdə, o, bağlandığı gündən 1 (bir) il ərzində qüvvəsini saxlayır. Bağlandığı tarix göstərilməyən etibarnamə əhəmiyyətsizdir.

**3.9.5.** Maraqlı şəxs inzibati icraatda vəkillə təmsil oluna və vəkilin yardımından istifadə edə bilər. İnzibati icraatda vəkil qismində “Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada fəaliyyət göstərən vəkillər iştirak edə bilərlər.

**3.9.6.** İnzibati icraatın iştirakçısı Azərbaycan Respublikasında daimi yaşayış yeri olmayan şəxs olduqda, həmin şəxs Azərbaycan

Respublikasında yaşayış yeri üzrə qeydiyyatda olan fəaliyyət qabiliyyətli şəxsi inzibati icraatla bağlı həmin maraqlı şəxsə ünvanlanan sənədləri almaq üçün müvəkkil təyin etməlidir. Maraqlı şəxs tərəfindən müvəkkil inzibati orqanın bu barədə onu xəbərdar etdiyi gündən 3 (üç) gün müddətində təyin olunmalıdır. İnzibati orqan maraqlı şəxs üçün nəzərdə tutulan bütün sənədləri həmin müvəkkilə göndərməyə borcludur.

**3.9.7.** İnzibati orqan inzibati icraatda həmin orqanın rəhbəri, onun müavini və ya həmin orqanın rəhbəri tərəfindən təyin olunmuş digər vəzifəli şəxs vasitəsi ilə təmsil olunur.

**3.9.8.** İştirakı məcburi olan (zəruri iştirakçılıq) və olmayan üçüncü şəxslər vacib element kimi daxil edilməli və bununla bağlı qərarın qüvvəsi (toxunulub Təlimatın 10-cu bəndi sonuncu cümlə), iştirakçıların hüquqları və həmçinin inzibati orqanın vəzifəsi göstərilməlidir.

### 3.10. Sübutlar

**3.10.1.** İnzibati orqan işin faktiki hallarının müəyyən olunması üçün yararlı, yetərli və zəruri hesab etdiyi sübutları müstəqil şəkildə toplayır və nəzərə alır. Sübutların toplanması və qiymətləndirilməsi zamanı inzibati orqan işin hallarının obyektiv araşdırılması prinsipini rəhbər tutur. İnzibati orqan işin hallarının, o cümlədən sübutların araşdırılmasının üsulunu və həcmini özü müəyyən edir. İnzibati orqan icraat iştirakçılarının təqdim etdikləri sübutlara və ya onların sübutlara dair qiymətləndirmələrinə bağlı deyildir. İnzibati orqan öz təşəbbüsü ilə yeni sübutlar əldə edə bilər. İşin hallarının obyektiv araşdırılması üçün lazım olan sübutların əldə edilməsi inzibati orqanın xidməti vəzifəsindən irəli gəlir.

**3.10.2.** İnzibati icraat zamanı inzibati orqan tərəfindən aşağıdakı sübutlardan istifadə oluna bilər:

a. sənədlər – müvafiq qaydada təsdiq olunmuş və (və ya) imzalanmış sənədlərin əsli və ya notarial qaydada təsdiq edil-

miş surətləri, habelə müvafiq normativ hüquqi, normativ xarakterli və ya qeyri-normativ hüquqi aktların surətləri. Sənəd kimi həmçinin qəbzlər, əlyazmalar, rəsmi qaydada dərc edilmiş yazılar, məqalələr və s. sübutlar da qəbul oluna bilər;

b. tərəflərin və işdə iştirak edən üçüncü şəxslərin izahatları – izahatlar həm yazılı, həm də şifahi verilə bilər. Şifahi şəkildə verilən izahatlar inzibati icraat nəticəsində qəbul ediləcək inzibati aktın əsaslandırılmasında istifadə olunduğu hallarda, yaxud da tərəflərdən birinin xahişi ilə protokolda qeyd olunmalıdır;

c. şahid ifadələri – inzibati icraat zamanı araşdırılacaq faktların (hadisələrin) birbaşa şahidi və ya işin halları barədə məlumatı olan şəxs inzibati icraat zamanı şahid ifadələrini şifahi verə bilər. İnzibati orqan şahiddən öz ifadələrini yazılı şəkildə tərtib edilməsini tələb edə bilər;

d. müvafiq müayinələrin nəticələri – inzibati icraat zamanı keçirilən və ya inzibati icraatın predmeti ilə birbaşa əlaqəli olan müayinələrin nəticəsində hazırlanmış rəylər, aktlar, arayışlar, müvafiq cihazlarla hazırlanmış şəkillər, cizgilər və s.;

e. ekspert rəyi – inzibati icraat çərçivəsində cəlb olunmuş müvafiq ekspertlər tərəfindən tərtib edilmiş rəylər;

f. digər inzibati orqanların arayışları – inzibati icraat çərçivəsində hüquqi yardım qaydasında öz səlahiyyətləri və imkanları daxilində digər inzibati orqanlar tərəfindən təqdim olunmuş arayışlar;

g. işin düzgün həlli üçün əhəmiyyət kəsb edən digər sübutlar – maddi sübutlar, audio və videoyazılar, habelə qanuni üsul və vasitələrlə əldə edilmiş digər sübutlar nəzərdə tutulur.

h. inzibati orqan sübutların araşdırılmasında məhkəmədən daha sərbəst imkanlara malikdir. Məhkəmədən fərqli olaraq İO zəruri bildiyi hallarda digər sübut vasitələrini də cəlb edə bilər.

**3.10.3.** İnzibati icraatda qanunu pozmaqla əldə edilmiş sübutlardan (misal üçün, hədə-qorxu, rüşvət, zor tətbiq etmək və ya digər qanunsuz təqib nəticəsində əldə olunan sübutlardan) istifadə olunmasına, habelə maraqlı şəxsdən işdə olan sənədin məzmununun həqiqiliyi barədə sübut tələb edilməsinə yol verilmir.

**3.10.4.** İnzibati icraatda iştirak edən şəxslər işin bütün faktiki hallarının müəyyən edilməsinə kömək etməyə, iş üçün əhəmiyyət kəsb edən və onlara məlum olan faktlar barədə məlumat verməyə, özlərində olan zəruri sübutları təqdim etməyə borcludurlar.

**3.10.5.** İşdə iştirak edən şəxsin zəruri sübutları müstəqil əldə etmək imkanı olmadıqda, o, həmin sübutları tələb etmək barədə vəsatətlə inzibati orqana müraciət edə bilər. Bu cür vəsatətdə sübutların iş üçün əhəmiyyəti, əlamətləri və olduğu yer göstərilməlidir. İnzibati orqan həmin sübutları tələb etməyə və onların təqdim olunmasını təmin etməyə borcludur.

**3.10.6.** İnzibati orqan (inzibati orqanının vəzifəli şəxsi) sübutlara iş üçün əhəmiyyət kəsb edən bütün faktiki və hüquqi halların qərəzsiz, hərtərəfli və dolğun araşdırılması nəticəsində öz daxili inamı əsasında qiymət verir. İnzibati orqan qəbul edəcəyi inzibati aktı əsaslandırmaq istədiyi bütün faktları, dəlilləri və ya sübutları, habelə inzibati aktın qəbulu üçün təklif etdiyi hüquqi əsası maraqlı şəxslərin arzusu ilə onlara izah və ya şərh etməlidir.

**3.10.7.** Sübutetmə yükü inzibati aktın əsaslandırma hissəsi ilə bağlıdır və bilavasitə inzibati orqanın üzərinə düşür. İnzibati orqan inzibati aktın əsaslandırmasında işin faktiki və hüquqi hallarını və bu halları təsdiq və ya rədd edən sübutları göstərməlidir. İnzibati orqan qəbul etdiyi aktı yalnız icraat zamanı tədqiq olunmuş faktlar və sübutlarla əsaslandırmağa borcludur. İştirakçılar öz maraqlarına uyğun olan sübutları təqdim etməkdə və onlarla bağlı izahatlar və ifadələr verməkdə haqlıdırlar.

### 3.11. İnzibati şikayət üzrə icraatda etiraz

**3.11.1.** İnzibati orqanı təmsil edən vəzifəli şəxs aşağıdakı hallarda inzibati icraatda iştirak edə bilməz:

a. həmin işin nəticəsində şəxsən maraqlı olduqda. İşin nəticəsində şəxsi maraq o halda mümkündür ki, həmin şəxs inzibati icraatda birbaşa maraqlı şəxs qismində iştirak edə və ya işin nəticəsində hər hansı hüquq qazana bilər;

b. işdə iştirak edən maraqlı şəxs və ya onun nümayəndəsi ilə qohumluq əlaqəsindədirsə və ya əvvəllər qohumluq əlaqəsində olmuşdursa. Qohumluq əlaqəsində olma dedikdə, arvad (ər), övladlar, valideynlər, qardaşlar, bacılar, o cümlədən arvadın (ərin) valideynləri, babalar və nənələr, övladlığa götürənlər (götürülənlər), ərin (arvadın) bacısı uşaqları və qardaşı uşaqları, xalalar və bibilər, dayılar və əmilər, habelə onların övladları və s. nəzərdə tutulur;

c. işdə iştirak edən maraqlı şəxsin nümayəndəsi olduqda. Nümayəndə dedikdə, həm qanuni – qəyyum və ya himayəçi, həm də etibarnamə üzrə nümayəndə, vəkil və s. başa düşülür;

d. həmin iş üzrə əvvəllər tərəflər arasında mediasiya prosesində mediator kimi iştirak etmişdirsə;

e. özü və ya ailə üzvləri maraqlı şəxsə məxsus hüquqi şəxsə aidiyyəti olan şəxs olduqda. Hüquqi şəxsin təsisçisi, idarəetmə orqanlarında (müşahidə (direktorlar) şurası), icra orqanında təmsil olunan şəxs və ya səhmdar (payçı) və s.olduqda;

f. onun obyektivliyinə və ya qərəzsizliyinə şübhə doğuran yetərli başqa əsaslar olduqda.

**3.11.2.** Bu Təlimatda nəzərdə tutulmuş əsaslar olduqda, vəzifəli şəxs özü-özünə etiraz etməyə borcludur və ya maraqlı şəxs həmin vəzifəli şəxsə, işə kollegial qaydada baxıldıqda isə, kollegiyanın istənilən üzvünə etiraz edə bilər. Eyni əsaslar həmçinin işdə iştirak edən ekspertə, mütəxəssisə və ya tərcüməçiyə də eti-

raz etmək üçün əsas hesab edilir. Ekspert və ya mütəxəssis, həmçinin aşağıdakı hallarda inzibati icraatda iştirak edə bilməz:

a. işdə iştirak edən şəxslərdən və ya onların nümayəndələrindən xidməti və ya sair cəhətdən asılı olduqda;
b. inzibati icraatın başlanılması üçün əsas olmuş materiallar üzrə təftiş apardıqda və ya həmin materiallardan inzibati icraatda istifadə olunduqda.

**3.11.3.** Vəzifəli şəxsin özü-özünə etiraz etməsi və ya vəzifəli şəxsə etiraz etmə haqqında ərizə iş üzrə inzibati akt qəbul olunana qədər yazılı formada verilməli və əsaslandırılmalıdır.

**3.11.4.** Etiraz haqqında ərizəyə etirazın verildiyi vaxtdan ən geci 1 (bir) gün müddətində baxılmalıdır.

**3.11.5.** Etiraz haqqında ərizəyə etiraz edilən vəzifəli şəxsin birbaşa rəhbəri və ya həmin inzibati orqanın rəhbəri tərəfindən baxılır və müvafiq qərar qəbul edilir. İnzibati orqanın rəhbərinə etiraz haqqında ərizəyə müvafiq yuxarı orqan və ya nəzarət orqanı tərəfindən baxılır və qərar qəbul edilir. Kollegial orqanın üzvünə etiraz haqqında ərizəyə etiraz edilən vəzifəli şəxsin iştirakı olmadan, kollegial orqanın üzvləri tərəfindən baxılır və bu barədə səs çoxluğu ilə müvafiq qərar qəbul edilir.

**3.11.6.** İnzibati orqan etirazla bağlı qərar barədə maraqlı şəxsə bu Təlimatda nəzərdə tutulmuş qaydada məlumat verməlidir.

**3.11.7.** Etirazla bağlı qərardan bu Təlimatla müəyyən olunmuş qaydada şikayət verilə bilər.

### 3.12. İnzibati şikayət üzrə icraatda müddət, inzibati icraatda müddətlər və onların hesablanması

**3.12.1.** İnzibati şikayət maraqlı şəxs tərəfindən aşağıda göstərilən müddətdə müvafiq şikayət instansiyasına verilə bilər:

a. müvafiq sahə qanunlarda başqa qayda nəzərdə tutulmadıqda, inzibati aktın qüvvəyə mindiyi gündən – 30 (otuz) gün müddətində;
b. sahə qanunlarda şikayətin verilməsi üçün konkret müddət göstərildiyi təqdirdə, həmin müddət ərzində (misal üçün,

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən vergi orqanlarının qərarlarından və onların vəzifəli şəxslərinin hərəkətlərindən (hərəkətsizliyindən) şikayət şəxsin hüquqlarının pozulduğunu bildiyi və ya bilməli olduğu gündən 3 ay müddətində verilir);

c. elmi dərəcələr və elmi adlar verilməsi, xarici ölkələrdə verilmiş elmi dərəcələr və elmi adlar haqqında sənədlərin nostrifikasiyası (ekvivalentliyinin müəyyən edilməsi və tanınması) və ya təkrar attestasiya əsasında tanınması, elmi dərəcədən və elmi addan məhrumetmə (elmi adın və elmi dərəcənin bərpası) ilə bağlı inzibati aktlara münasibətdə həmin inzibati aktlar qəbul edildiyi tarixdən – 2 (iki) ay müddətində;

d. inzibati aktda ona qarşı mümkün hüquqi müdafiə vasitələri, bu hüquqi müdafiə vasitələrindən istifadə (şikayət vermə) qaydası və müddəti nəzərdə tutulmadıqda və ya inzibati akt onun ünvanlanmadığı digər maraqlı şəxslərin qanuni maraqlarına (ilk dəfə) toxunduqda, həmin inzibati aktdan onun qüvvəyə mindiyi gündən – 6 (altı) ay müddətində.

**3.12.2.** İnzibati aktdan şikayət verilməsi ilə bağlı bu Təlimatda göstərilən müddətlər üzrlü səbəbdən buraxıldıqda, şikayət instansiyası tərəfindən həmin müddət maraqlı şəxsin ərizəsinə əsasən bərpa edilir. Bu zaman ərizədə müddətin buraxılması səbəbi açıqlanmalı və səbəbin üzrlü olduğunu təsdiq edən sənədlər ərizəyə əlavə olunmalıdır. İnzibati orqan həmin ərizəyə 5 (beş) gün müddətində baxmalıdır.

### 3.13. İnzibati icraatda müddətlərin hesablanması

**3.13.1.** İnzibati icraatla bağlı hərəkətlər "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunu və digər sahə qanunlarla müəyyən edilmiş müddətlərdə həyata keçirilir. Həmin müddətlərin axımı müddətin başlanğıcının təyin edildiyi təqvim tarixindən və ya hadisənin baş verməsindən sonrakı gündən baş-

lanır. Qanunla müəyyən edilməyən və ya onun dəqiq təyin edilməsi mümkün olmayan müddətlər inzibati orqan tərəfindən müəyyən edilir.

**3.13.2.** İnzibati orqan tərəfindən təyin edilmiş müddətin axımı həmin orqanın maraqlı şəxsi bu barədə məlumatlandırdığı andan və yaxud Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş hallarda müvafiq məlumatın rəsmi elan olunduğu andan başlanır. Müddətlər təqvim günləri ilə hesablanır. Müddətin son günü qeyri-iş gününə düşərsə, növbəti iş günü müddətin qurtardığı gün hesab olunur. İnzibati orqan tərəfindən təyin edilmiş müddətlər maraqlı şəxsin ərizəsinə əsasən həmin orqan tərəfindən uzadıla bilər. İnzibati orqan təyin edilmiş müddətə əməl olunmamasının nəticələri barədə maraqlı şəxsləri xəbərdar etməyə borcludur. İnzibati orqan qanunla müəyyən edilmiş və ya özünün təyin etdiyi müddətin buraxılmasının səbəbini üzürlü hesab edərsə, maraqlı şəxsin ərizəsinə əsasən buraxılmış müddəti bərpa edir. Maraqlı şəxs həmin səbəblər aradan qalxdığı vaxtdan ən geci 10 (on) gün müddətində buraxılmış müddətin bərpa olunmasına dair yazılı ərizə ilə inzibati orqana müraciət etməlidir. Ərizəyə müddətin buraxılması səbəbinin üzürlü olduğunu təsdiq edən sənədlər əlavə olunmalıdır (misal üçün, başlanğıcı təyin edilən tarixdə (hadisə zamanı) maraqlı şəxs xəstəxanada stasionar müalicə keçdiyinə görə inzibati icraatla bağlı müvafiq hərəkətlərin edilməsi üçün müəyyən olunmuş müddəti buraxıbsa, qeyd olunan səbəb, onu təsdiq sənəd – xəstəlik vərəqəsi (əmək qabiliyyətinin müvəqqəti itirilməsi vərəqəsi) əsasında üzürlü hesab oluna bilər). İnzibati orqan buraxılmış müddətin bərpa olunmasına dair ərizəyə 5 (beş) gün müddətində baxmalıdır. Müddətin bərpası haqqında ərizənin verilməsi ilə eyni vaxtda müddəti buraxılmış hərəkət də edilməlidir (ərizə, şikayət verilməli, sənədlər təqdim edilməli və s.). Qanunla birbaşa qadağan olunmuş hallarda buraxılmış müddətin bərpasına yol verilmir (misal üçün, seçki hüququnda müəyyən edilmiş imperativ müddətlər inzibati orqan tərəfindən dəyişdirilə bilməz).

**3.13.3.** Buraxılmış müddətin bərpa olunmasından imtina edilməsi haqqında inzibati orqanın qərarından maraqlı şəxslər inzibati və ya məhkəmə qaydasında şikayət verə bilərlər.

**3.13.4.** Ərizənin və ya müraciətin səlahiyyətli inzibati orqanda qeydiyyata alındığı vaxtdan ən geci 30 (otuz) gün müddətində həmin inzibati orqan inzibati aktın qəbul edilməsi və ya onun qəbul edilməsindən imtina olunması haqqında qərar qəbul etməlidir. Sahə qanunlarla həmin müddətdən az və ya çox müddət də müəyyən oluna bilər.

**3.13.5.** İnzibati icraat üzrə əhəmiyyət kəsb edən halların müəyyən olunması üçün bu Təlimatda göstərilən müddətdən daha artıq müddət tələb olunduğu hallarda, inzibati icraatın müddəti inzibati orqan tərəfindən hər dəfə 30 (otuz) gün olmaqla iki dəfə uzadıla bilər. İnzibati orqan tərəfindən müddətin uzadılması barədə maraqlı şəxslərə rəsmi məlumat verilməlidir. Hər bir halda inzibati icraat müddətinin uzadılmasına səbəb olan hallar inzibati orqan tərəfindən inzibati aktda əsaslandırılmalıdır.

**3.13.6.** İnzibati aktın qəbul edilməsi də daxil olmaqla, hər bir halda inzibati icraatın ümumi müddəti 90 (doxsan) gündən çox ola bilməz.

### 3.14. İnzibati şikayət üzrə icraatda bildirişlərin göndərilməsi

**3.14.1.** İnzibati orqan inzibati icraatda iştirak edən şəxsləri, o cümlədən maraqlarına toxunula bilən hər hansı şəxsi, zəruri hallarda isə şahidləri, ekspertləri, tərcüməçiləri və digər orqanların nümayəndələrini inzibati icraatla bağlı iclasın dəqiq tarixi, vaxtı və yeri haqqında xəbərdar etməyə (bildiriş göndərməyə) borcludur. Həmin şəxslərə müvafiq məlumatın çatdırılması məqsədilə inzibati orqan müxtəlif rabitə vasitələrindən (adi və ya sifarişli poçt göndərişi, telefon, faks, şəxsin təqdim etdiyi mobil telefon nömrəsinə SMS göndərilməsi, elektron poçt və ya xəbərdarlığın (bildirişin) alınmasını təsbit edən digər vasitələrdən) istifadə edə bilər. Xəbərdarlıq (bildiriş) inzibati icraatda iştirak edən şəxsin göstərdiyi ünvana, telefon, mobil və ya faks nömrəsinə, elektron

poçt ünvanına göndərilməlidir.

**3.14.2.** Bildirişin məzmununda inzibati icraatın predmeti, şikayət edənin soyadı, adı və atasının adı, iclasın dəqiq tarixi, vaxtı və yeri, əlaqə nömrələri əks olunmalıdır. Həmin bildirişin mətni lakonik formada, anlaşılmazlığı istisna edən sadə və aydın dildə tərtib edilməlidir. Həmin mətndə ixtisarlardan, artıq və mürəkkəb texniki və hüquqi ifadələrdən istifadə edilməsinə yol verilməməlidir. Bildirişdə həmçinin maraqlı şəxsin malik olduğu hüquqlar və daşıdığı vəzifələr də əks oluna bilər.

**3.14.3.** Bildiriş işdə iştirak edən şəxsin birbaşa özünə və ya onun nümayəndəsinə, onunla birgə yaşayan yaxın qohumlarına, habelə işdə iştirak edən hüquqi şəxsin əməkdaşına, yaxud da sənədləri almaq üçün Azərbaycan Respublikasında daimi yaşayış yeri olmayan maraqlı şəxsin təyin etdiyi müvəkkilə verilir.

**3.14.4.** İnzibati icraatla bağlı iclasın vaxtı təyin edilən zaman inzibati orqan bildirişin maraqlı şəxsin ünvanına çatmasını, həmin şəxsin yaşadığı (olduğu) yerdən iclasın keçiriləcəyi ünvana vaxtında gəlməsini və işin baxılmasına hazırlaşmaq üçün sərəncamında kifayət qədər vaxt olmasını nəzərə almalıdır.

### 3.15. İnzibati akt və ya faktiki xarakterli fəaliyyət (konkret/fərdi, qayda/hərəkət və ya hərəkətsizlik, inzibati orqan tərəfindən, publik hüquq sahəsində, hakimiyyət/suveren tədbiri)

**3.15.1.** Şikayət instansiyası tərəfindən inzibati şikayət üzrə qəbul edilmiş qərar inzibati akt sayılır və inzibati aktlara dair qanunvericiliklə müəyyən edilmiş tələblərə uyğun olmalıdır. İnzibati akt – inzibati orqan tərəfindən ümumi (publik) hüquq sahəsinə aid olan müəyyən (konkret) məsələni nizama salmaq və ya həll etmək məqsədi ilə qəbul edilmiş və ünvanlandığı hüquqi və ya fiziki şəxs (şəxslər) üçün müəyyən hüquqi nəticələr yaradan qərar, sərəncam və ya digər növ hakimiyyət tədbiridir (misal üçün, hər hansı fəaliyyətin, işlərin və ya xidmətlərin yerinə yetirilməsi ilə bağlı icazələr, lisenziyalar, razılıqlar, qərarlar, sərən-

camlar və ya hüquqların həyata keçirilməsi (pensiya və ya sosial müavinətin təyin olunması), kadr məsələlərinin həlli ilə bağlı qərarlar).

**3.15.1.1.** İnzibati akt inzibati orqan tərəfindən qəbul edilir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28 avqust 2007-ci il tarixli, 136 nömrəli qərarı ilə təsdiq edilmiş "İnzibati orqanların Təsnifatı"na uyğun olaraq inzibati orqanların siyahısına aşağıdakılar daxildir:

a. mərkəzi icra hakimiyyəti orqanları (nazirliklər, dövlət komitələri, dövlət agentlikləri və dövlət xidmətləri);
b. mərkəzi icra hakimiyyəti orqanlarının yerli struktur bölmələri və ya strukturuna daxil olan qurumlar;
c. yerli icra hakimiyyəti orqanları və yerli icra hakimiyyəti orqanlarının müvafiq ərazi vahidi üzrə nümayəndəlikləri;
d. bələdiyyələr;
e. Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən inzibati akt qəbul etmək səlahiyyəti verilmiş hüquqi şəxslər – dövlət şirkətləri, dövlət və ya bələdiyyə adından yaradılan publik hüquqi şəxslər;
f. Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən inzibati akt qəbul etmək səlahiyyəti verilmiş fiziki şəxslər. Burada "fiziki şəxs" dedikdə, inzibati aktı qəbul etmiş inzibati orqanın vəzifəli şəxsləri deyil, qanunda birbaşa nəzərdə tutulmuş hallarda müstəsna qaydada publik hüquq sahəsində inzibati aktın qəbulu ilə bağlı hakimiyyət səlahiyyətləri ilə təchiz edilmiş fiziki şəxs başa düşülür.

**3.15.1.2.** İnzibati akt inzibati orqanın əsas fəaliyyət formasıdır və ümumi (publik) hüquq sahəsində qəbul edilir. Mülki hüquq sahəsində qəbul edilmiş akt inzibati akt sayılmır (misal üçün, müqavilə, vəkalətnamə, vəsiyyətnamə, ümumi yığıncağın protokolu, təhvil-təslim aktı). İnzibati aktın qəbulu nəticəsində yaranmış mübahisələrə baxılması və həll olunması inzibati məhkəmələrin səlahiyyətinə aiddir.

**3.15.1.3.** İnzibati akt şəxsə münasibətdə konkret (fərdi) qayda müəyyən edir. Konkretlik həm qaydaya, həm də ünvanlandığı şəxsə münasibətdə mövcud ola bilər (misal üçün, inzibati orqan şəxsə müəyyən fəaliyyətlə məşğul olmaq üçün icazə verir, yol hərəkəti qaydalarını yönləndirən DYP əməkdaşı konkret qaydanı ətrafdakı şəxslərə ünvanlandırır və s.).

**3.15.1.4.** İnzibati akt vasitəsilə inzibati orqan tərəfindən qayda müəyyənləşdirilir. Faktiki xarakterli digər fəaliyyəti həyata keçirən inzibati orqan qayda müəyyən etmir, sadəcə hərəkət (və ya hərəkətsizlik) edir (divarın sökülməsi, şəxsin qapıdan binaya buraxılmaması və s.).

**3.15.1.5.** İnzibati orqan inzibati akt vasitəsi ilə hakimiyyət (suveren) tədbir həyata keçirir. Publik hüquq sahəsində qəbul edilən aktlar bir qayda olaraq hakimiyyət tədbirləridir. Hakimiyyət tədbiri inzibati orqanın üstün mövqeyi ilə şərtlənir, yəni inzibati orqan şəxs üçün düzgün olan qaydanı məcburi qaydada müəyyən edir.

**3.15.2.** İnzibati akt onun etibarlılığını istisna edən hallar mövcud deyilsə, qüvvədə sayılır. Qüvvədə olduğu müddət ərzində ünvanlandığı şəxs və ya şəxslər üçün məcburi xarakter daşıyır. İnzibati akt mübahisələndirilmə nəticəsində və ya da digər əsaslardan məcburilik qüvvəsini itirə bilər. Aşağıdakı hallarda inzibati akt hüquqi qüvvəsini və etibarlılığını itirir:

a. qanuni və ya qanunsuz inzibati aktın mübahisələndirmə qaydasında ləğv olunduğu və qüvvəsini itirdiyi hallarda (inzibati icraat qaydasında şikayət instansiyasının qərarı, inzibati məhkəmə qərarı, yeni açılmış hallar üzrə icraatın təzələnməsi barədə qərar qəbul edildikdə);

b. inzibati aktın özündə nəzərdə tutulmuş şərtə əsasən qüvvəsini itirdiyi hallarda;

c. inzibati aktın qanuna və ya digər faktiki hallara əsasən qüvvəsini itirdiyi hallarda.

**3.15.3.** İnzibati akt, ünvanlandığı şəxsə və ya maraqlarına toxunduğu şəxsə bu barədə məlumat verildiyi andan və yaxud bu

barədə həmin şəxslərə məlum olduğu andan hüquqi qüvvəyə minir. İnzibati akt məlumat verildiyi məzmunda hüquqi qüvvəyə minir və hüquqi cəhətdən etibarlı sayılır (İİQ 62-ci maddəsinin tələblərini nəzərə almaq lazımdır). İnzibati akt qanunla müəyyən olunmuş qaydada geri çağırılana, ləğv edilənə, dəyişdirilənə, qüvvədə olma müddətinin qurtarması və ya başqa səbəbə görə qüvvədən düşmüş hesab edilənə qədər hüquqi qüvvəsini saxlayır və hüquqi cəhətdən etibarlı sayılır.

**3.15.4.** Etibarsız inzibati aktın hüquqi qüvvəsi yoxdur. Etibarsız inzibati akt qəbul edildiyi andan yararsız (əhəmiyyətsiz) sayılır və heç bir hüquqi nəticə yaratmır. Aşağıdakı inzibati aktlar etibarsız sayılır:

a. hansı inzibati orqan tərəfindən qəbul edildiyi məlum olmayan yazılı inzibati akt;
b. müvafiq səlahiyyəti olmayan inzibati orqan tərəfindən qəbul edilmiş inzibati akt;
c. qanunvericiliyə əsasən yalnız müəyyən rəsmi sənəd (rəsmi sənədin təqdim edilməsi) formasında qəbul edilə bilən, lakin həmin tələbə cavab verməyən inzibati akt;
d. maraqlı şəxsdən inzibati və ya cinayət məsuliyyətinə səbəb ola bilən hərəkətlər etməyi tələb edən inzibati akt;
e. faktiki səbəblər üzündən icrası mümkün olmayan inzibati akt;
f. kimə ünvanlandığı aydın olmayan inzibati akt.

**3.15.5.** İnzibati aktı qəbul etmiş inzibati orqan bu Təlimatda göstərilən hallarda öz təşəbbüsü ilə və ya maraqlı şəxsin müraciəti əsasında həmin aktın etibarsız olduğunu təsdiq etməli və bu barədə maraqlı şəxslərə müvafiq qaydada məlumat verməlidir.

### 3.16. İnzibati aktın forması

**3.16.1.** Qanunda başqa forma nəzərdə tutulmamışdırsa və ya başqa formaya yol verilmirsə, inzibati akt icraatı həyata keçirən inzibati orqanın müvafiq vəzifəli şəxsi və ya kollegial inzibati orqanın vəzifəli şəxslərindən biri tərəfindən yazılı formada tərtib

olunur. Həmin inzibati akt inzibati orqanın müvafiq vəzifəli şəxsi tərəfindən və ya kollegial inzibati orqanın üzvləri tərəfindən imzalanır və həmin inzibati orqanın möhürü ilə təsdiq olunur. İnzibati akt inzibati orqanın rəsmi blankında tərtib oluna bilər. İnzibati akt texniki (avtomat) qurğuların (misal üçün, svetoforun işarələri) köməyi ilə qəbul edildikdə, həmin aktda vəzifəli şəxsin imzasının və inzibati orqanın möhürünün olmaması mümkündür.

**3.16.2.** Azərbaycan Respublikasının qanunvericiliyi ilə birbaşa nəzərdə tutulmuş hallarda, habelə dövlət maraqlarına və ya ictimai maraqlara ziyan vura biləcək təhlükənin qarşısının alınması və ya aradan qaldırılması ilə əlaqədar təxirəsalınmaz hallarda inzibati akt şifahi və ya digər anlaşılan formada (başa düşülən digər formada) qəbul edilə bilər. Bu zaman əsas tələb ondan ibarətdir ki, inzibati aktın ifadə edildiyi forma inzibati orqanın iradəsini və həmin aktın məzmununu anlaşılan formada inzibati aktın ünvanlandığı şəxslərə çatdıra bilsin.

**3.16.3.** Bu Təlimata əsasən şifahi və ya digər anlaşılan formada qəbul edilmiş inzibati akt aşağıdakı hallarda elan olunduğu vaxtdan 5 (beş) gün müddətində yazılı formada təsbit olunmalıdır:

a. inzibati aktın ünvanlandığı şəxsin və ya digər maraqlı şəxsin hüquq və qanunla qorunan maraqlarını məhdudlaşdırdıqda (əlverişsiz inzibati aktın qəbul edildiyi hallarda);
b. inzibati orqan inzibati aktı yazılı formada qəbul edəcəyini vəd etdikdə;
c. qanunla birbaşa nəzərdə tutulduqda.

**3.16.4.** Qanunla nəzərdə tutulmuş hallarda inzibati akt işıq, səs siqnalları və işarələri, təsvirlər formasında və yaxud digər formalarda qəbul edilə bilər. İnzibati aktın məzmunu müxtəlif kod işarələri ilə ifadə oluna bilər. Belə hallarda inzibati aktın ünvanlandığı şəxsin onun məzmununu birmənalı şəkildə başa düşməsi üçün həmin akta müvafiq izahat əlavə edilməlidir.

**3.16.5.** İnzibati akt Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlara və digər əlaqədar hüquq normalarına uyğun qəbul edilməklə, məzmun baxımından kifayət qədər aydın və

anlaşılan olmalıdır. İnzibati aktda onun ünvanlandığı hüquqi və ya fiziki şəxslər, nizama saldığı və ya həll etdiyi məsələlər dəqiq göstərilməlidir.

**3.16.6.** Yazılı inzibati aktda aşağıdakı məlumatlar əks olunmalıdır:

a. inzibati aktı qəbul etmiş orqanın tam adı;

b. inzibati aktın ünvanlandığı hüquqi şəxsin adı (təşkilati-hüquqi forması göstərilməklə) və hüquqi ünvanı və ya fiziki şəxsin adı, atasının adı, soyadı və ünvanı;

c. inzibati aktın adı (nizama salınan və ya həll edilən məsələnin ümumiləşdirilmiş formada adı), qəbul olunma tarixi və yeri, qeydiyyat nömrəsi;

d. inzibati aktı qəbul etmiş inzibati orqanın məsul vəzifəli şəxsinin və ya kollegial inzibati orqanın üzvlərinin soyadı, adı, inzibati aktın texniki (avtomat) qurğuların köməyi ilə qəbul edildiyi hallar istisna olmaqla, imzası;

e. həmin akta qarşı mümkün hüquqi müdafiə vasitələri, bu hüquqi müdafiə vasitələrindən istifadə müddəti və bununla bağlı maraqlı şəxsin şikayət (iddia) verə biləcəyi orqan (orqanlar, o cümlədən məhkəmə) haqqında məlumat;

f. inzibati aktı qəbul etmiş inzibati orqanın möhürü (inzibati orqanın rəsmi blankında tərtib edildikdə və ya inzibati aktın texniki (avtomat) qurğuların köməyi ilə qəbul edildiyi hallar istisna olmaqla).

### 3.17. İnzibati aktın əlavə müddəaları

**3.17.1.** Qəbul edilməsi tələb olunan inzibati aktda Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş hallarda və ya inzibati aktın qanuni şərtlərinin həyata keçirilməsini təmin etmək məqsədi ilə əlavə müddəalar nəzərdə tutula bilər.

**3.17.2.** Əlavə müddəalar inzibati aktın məqsədlərinə uyğun olmalıdır. Əlavə müddəalardan yalnız inzibati aktla birlikdə şikayət verilə bilər (məsələn, tikintiyə verilmiş icazənin müəyyən

sayda dayanacaq yerlərinin tikintisi ilə və ya yaşıllığın salınması ilə şərtləndirilməsi, inzibati aktın hüquqi qüvvəsinin müəyyən hadisənin baş verməsi ilə şərtləndirilməsi, inzibati aktın geri çağırılması imkanının nəzərdə tutulması).

### 3.18. İnzibati aktın əsaslandırılması

**3.18.1.** Yazılı və ya yazılı formada təsbit olunmuş inzibati akt yazılı şəkildə əsaslandırılmalıdır. Əsaslandırma zamanı işin faktiki və hüquqi halları və bu halları təsdiq və ya rədd edən sübutlar, habelə inzibati akt qəbul edilərkən, istinad olunan qanunlar və digər normativ-hüquqi aktlar göstərilməlidir. İnzibati orqan qəbul etdiyi aktı yalnız icraat zamanı tədqiq olunmuş faktlar və sübutlarla əsaslandırmağa borcludur. İnzibati icraat zamanı tədqiq edilməmiş faktlara və sübutlara istinad olunmasına yol verilmir.

**3.18.2.** Aşağıdakı hallarda inzibati aktın əsaslandırılması tələb olunmur:

a. inzibati orqan tərəfindən maraqlı şəxsin ərizəsi təmin olunduqda və ya maraqlı şəxsə münasibətdə əlverişli inzibati akt qəbul edildikdə;
b. inzibati orqan tərəfindən çoxlu sayda analoji inzibati aktlar qəbul edildikdə və ya inzibati aktlar texniki (avtomat) qurğuların köməyi ilə qəbul edildikdə və hər belə inzibati aktı ayrılıqda əsaslandırmağa ehtiyac olmadıqda;
c. inzibati orqan tərəfindən qəbul edilmiş ümumi xarakterli sərəncam aşkar surətdə qeyri-müəyyən sayda şəxsə elan olunduqda və ya kütləvi informasiya vasitələrində dərc olunduqda;
d. Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər hallarda.

### 3.19. İnzibati aktda olan aşkar səhvlərin düzəldilməsi

**3.19.1.** İnzibati orqan öz təşəbbüsü ilə və ya maraqlı şəxslərin ərizəsinə əsasən qəbul etdiyi inzibati aktda olan yazı və hesab

səhvlərini düzəldə bilər. Bu məqsədlər üçün inzibati orqan düzəliş edilməsi zəruri olan sənədi tələb edə bilər.

**3.19.2.** İnzibati aktda düzəlişlər inzibati orqanın müvafiq vəzifəli şəxsinin və ya kollegial inzibati orqanın üzvlərinin imzası və inzibati orqanın möhürü ilə təsdiq olunmalı və maraqlı şəxslərə rəsmi məlumat verilməlidir.

## 3.20. İnzibati aktın icrasının dayandırılması və müvəqqəti xarakterli müdafiə tədbirləri

**3.20.1.** Bu Təlimatda göstərilən hallar istisna olmaqla, inzibati aktdan şikayətin verilməsi həmin inzibati aktın icrasını dayandırmır. Bununla da, inzibati aktla müəyyən olunmuş hüquqların və ya vəzifələrin həmin aktda göstərilən qaydada (sanki şikayət verilməmiş kimi) həyata keçirilməsi davam etdirilir.

**3.20.2.** İnzibati aktın icrasının dayandırılması ilə bağlı məsələyə maraqlı şəxsin ərizəsinə əsasən və ya inzibati orqanın öz təşəbbüsü ilə şikayətin verildiyi şikayət instansiyası tərəfindən dərhal baxılır və bu barədə müvafiq qərar qəbul edilir. İnzibati aktın icrasının dayandırılması ilə bağlı qərar şikayət instansiyası tərəfindən əsaslandırılmalıdır. İnzibati aktın icrasının dayandırılması barədə qərar qəbul olunduğu təqdirdə, inzibati aktın icrası, yəni inzibati aktla müəyyən olunmuş hüquqların və ya vəzifələrin icrası dərhal dayandırılmalıdır.

**3.20.3.** İnzibati şikayətin verilməsindən əvvəl də maraqlı şəxs inzibati aktın icrasının dayandırılması barədə şikayət instansiyasına müraciət edə bilər. Bu zaman maraqlı şəxs inzibati aktdan şikayət vermə müddəti ərzində şikayət instansiyasına həmin aktdan şikayəti təqdim etməlidir. Əks təqdirdə inzibati aktdan müvəqqəti müdafiə marağı mövcud olmadığı üçün ınzibati aktın icrasının dayandırılması barədə qərar ləğv ediləcəkdir.

**3.20.4.** Maraqlı şəxs öz hüquqlarının qorunması məqsədi ilə habelə digər müvəqqəti xarakterli müdafiə tədbirlərinin tətbiqi (məsələn, tələbənin qovulma ilə bağlı məsələ həll olunana qədər təhsilini davam etdirməsi barədə vəsatəti, pensiyaçının pensiya

ödənişinin davam etdirilməsi barədə vəsatəti) barədə də müraciət edə bilər. İnzibati aktın icrasının dayandırılması ilə bağlı qayda müvəqqəti xarakterli digər müdafiə tədbirlərinin tətbiqi barədə müraciətlərə də şamil olunur.

**3.20.5.** Maraqlı şəxs inzibati aktdan şikayət instansiyasına inzibati şikayət verdikdə, müvəqqəti xarakterli müdafiə tədbirlərinin tətbiqi barədə vəsatətlə həmin orqana müraciət etməlidir. Şikayət instansiyası 15 (on beş) gün müddətində maraqlı şəxsin vəsatətini təmin etmədikdə, o, bununla bağlı ərizə ilə İPM-in 40-cı maddəsində göstərilən qaydada məhkəməyə müraciət edə bilər.

### 3.21. Qanunsuz inzibati aktın ləğv olunması

**3.21.1.** İnzibati orqan tərəfindən inzibati icraat haqqında hüquq normalarının və ya maddi hüquq normalarının pozulması və ya düzgün tətbiq edilməməsi nəticəsində qəbul edilmiş inzibati akt qanunsuz sayılır. Qanunsuz inzibati akt həmin aktı qəbul etmiş inzibati orqan və ya subordinasiya baxımından yuxarı inzibati orqan tərəfindən və yaxud məhkəmə qaydasında ləğv oluna bilər.

**3.21.2.** Qanunsuz əlverişsiz inzibati akt hər bir halda ləğv olunmalıdır. Azərbaycan Respublikasının müvafiq qanunları ilə başqa qayda nəzərdə tutulmadıqda, qanunsuz əlverişsiz inzibati aktın ləğv olunması, həmin aktın qüvvəyə mindiyi andan yaranmış hüquqi nəticələri aradan qaldırır. Qanunsuz əlverişli inzibati akt yalnız qanunvericiliyin nəzərdə tutduğu məhdudiyyətlər daxilində ləğv oluna bilər.

**3.21.3.** Maraqlı şəxsin məzmununa etimad göstərdiyi və həmin etimadın qanunla qorunduğu, habelə başqa şəxslərin hüquqlarına və ya qanunla qorunan maraqlarına, dövlət maraqlarına və ya ictimai maraqlara ziyan vurmadığı hallarda, maraqlı şəxsə münasibətdə birdəfəlik və ya cari pul və ya əşya öhdəliklərinin nəzərdə tutulduğu və ya belə öhdəliklərin əmələ gəlməsinə səbəb olmuş qanunsuz əlverişli inzibati aktın ləğv olunmasına yol verilmir. Maraqlı şəxsin ona verilmiş pul vəsaitlərini xərclədiyi və

ya əmlakdan istifadə etdiyi və buna görə də onları qaytarmaq iqtidarında olmadığı və ya onları qaytardığı təqdirdə əhəmiyyətli ziyana məruz qalacağı hallarda, həmin şəxs etimadın qanunla qorunması hüququna malikdir (misal üçün, təbii fəlakət nəticəsində dövlət tərəfindən vətəndaşın evinə baxış keçirilmiş, dəymiş zərər qiymətləndirilmiş və ona birdəfəlik maliyyə yardımı ödənilmişdir. Sonradan yenidən qiymətləndirilmə keçirilərək, əslində zərərin əvvəl qiymətləndirildiyindən daha aşağı məbləğdə olduğu müəyyən edilmişdir. Lakin birdəfəlik maliyyə yardımı ilə bağlı artıq ödənilmiş vəsait sərf edildiyindən və şəxsin inzibati aktın məzmununa etimadı qanunla qorunduğundan həmin vəsait geri tələb edilə bilməz).

**3.21.4.** Maraqlı şəxs aşağıdakı hallarda etimadın qorunması hüququna istinad edə bilməz və bu hallarda qanunsuz əlverişli inzibati akt ləğv olunmalıdır:

a. rüşvət, hədə-qorxu və ya aldatma yolu ilə inzibati aktın qəbul edilməsinə nail olduqda;
b. səhv və ya təhrif olunmuş məlumatları əks etdirən sənədlər təqdim etməklə inzibati aktın qəbul edilməsinə nail olduqda;
c. inzibati aktın qanunsuz olduğunu bildiyi və ya kobud ehtiyatsızlıq nəticəsində bilmədiyi halda.

**3.21.5.** Qanunsuz inzibati aktın ləğv olunması onun qüvvəyə mindiyi andan yaranmış hüquqi nəticələri aradan qaldırır. Bu zaman maraqlı şəxs xərclənmiş pul vəsaitlərinin və ya istifadə olunmuş əşyanın əvəzini ödəməyə borcludur. Ödəmənin həcmi Azərbaycan Respublikası Mülki Məcəlləsinin əsassız varlanma ilə bağlı müddəalarına uyğun olaraq müəyyən edilir.

**3.21.6.** Başqa şəxslərin hüquqlarına və ya qanunla qorunan maraqlarına, dövlət maraqlarına və ya ictimai maraqlara ziyan vuran qanunsuz əlverişli inzibati akt ləğv olunmalıdır. Həmin aktın ləğv olunması onun qüvvəyə mindiyi andan yaranmış hüquqi nəticələri aradan qaldırmır. Maraqlı şəxsin etimadı qanunla qorunduğu hallarda, ləğv olunmuş inzibati aktın məzmununa etimad göstərməsi səbəbindən həmin şəxsə vurulmuş maddi zi-

yana görə ona kompensasiya ödənilməlidir. Kompensasiya maraqlı şəxsin müraciətinə əsasən ödənilir. Maraqlı şəxsə ödəniləcək kompensasiyanın həcmi qanunsuz inzibati aktı ləğv etmiş orqan tərəfindən müəyyən olunur və həmin şəxsə vurulmuş real ziyanın həcminə mütənasib olmalıdır. Maraqlı şəxs 1 (bir) il ərzində kompensasiyanın ödənilməsini tələb edə bilər. Müddətin axımı qanunsuz inzibati aktın ləğv olunması haqqında maraqlı şəxsə müvafiq qaydada məlumat verildiyi gündən başlayır.

**3.21.7.** Qanunsuz inzibati akt, həmin aktın ləğv olunmasını şərtləndirən hallar məlum olduğu gündən 1 (bir) il ərzində ləğv edilə bilər. Həmin qayda rüşvət, hədə-qorxu və ya aldatma yolu ilə inzibati aktın qəbul edilməsinə nail olduğu hallara şamil olunmur.

### 3.22. Qanuni inzibati aktın ləğv olunması

**3.22.1.** Qanuni əlverişsiz inzibati akt, həmin aktın ləğv olunmasının qanunla birbaşa qadağan edildiyi hallar istisna olmaqla, onu qəbul etmiş orqan tərəfindən tam və ya qismən ləğv oluna bilər. Qanuni əlverişli inzibati akt, yalnız aşağıdakı hallarda ləğv edilə bilər:

a. inzibati aktın ləğvi qanunla birbaşa nəzərdə tutulduğu halda və ya inzibati aktın özündə bu barədə müvafiq qeyd olduğu halda (misal üçün, bələdiyyə torpağının icarəyə verilməsi ilə bağlı bələdiyyə şurasının qərarında icarədar müvafiq müddət ərzində icarə haqqının ödənilməsindən yayındıqda, həmin inzibati aktın ləğv ediləcəyi barədə müvafiq bənd nəzərdə tutulduqda);
b. maraqlı şəxsin inzibati aktla müəyyən edilmiş imtiyazlardan (hüquqlardan) istifadə etmədiyi və ya lazımi qaydada və müddətdə istifadə etmədiyi halda (misal üçün, tikintiyə icazə verildiyi, lakin 3 il ərzində icazə sahibi tərəfindən tikinti işləri başlanılmadıqda);
c. inzibati aktın qəbulundan sonra yaranmış hüquqi və ya faktiki hallara görə həmin aktın qüvvədə qalması dövlət

maraqlarına və ya ictimai maraqlara ziyan vura bildiyi halda (misal üçün, hüquqi şəxsə mobil rabitə xidmətinin göstərilməsi üçün icazə verilmiş, lakin müəyyən müddətdən sonra qanunvericilikdə müvafiq dəyişikliklər edilmiş və mobil rabitə xidmətinin göstərilməsi dövlət təhlükəsizliyindən irəli gələn hallarla əlaqədar lisenziya tələb olunan fəaliyyət növü kimi müəyyən olunmuş, həmin fəaliyyətin göstərilməsi üçün aidiyyəti lisenziya şərtləri təsdiq edilmişdir. Nəticədə verilmiş qanuni əlverişli inzibati akt - icazə ləğv olunmalı və bu fəaliyyətin göstərilməsi üçün lisenziya alınmalıdır);

d. inzibati aktın qəbulu üçün əsas olmuş hüquq normasının dəyişməsi nəticəsində inzibati orqanın həmin aktı qəbul etməməyə haqlı olduğu və maraqlı şəxsin inzibati aktla müəyyən edilmiş imtiyazlardan (hüquqlardan) istifadə etmədiyi və ya ona münasibətdə inzibati aktla təminat verilmiş öhdəlikləri yerinə yetirmədiyi və ya həmin aktın qüvvədə qalmasının dövlət maraqlarına və ya ictimai maraqlara ziyan vura bildiyi hallarda (misal üçün, tikintiyə icazə verildiyi, lakin bu icazədən müəyyən müddət ərzində istifadə edilmədiyi zaman, icazə verilmiş tikintinin yerləşdiyi ərazinin yeni baş və ya müfəssəl planının təsdiq olunması və həmin tikintinin yeni şəhərsalma sənədinə uyğun gəlməməsi səbəbindən tikintiyə icazə vermiş inzibati orqan həmin inzibati aktı qəbul etməməyə haqlı olduğu hallarda).

**3.22.2.** Qanuni inzibati aktın ləğv olunması onun qüvvəyə mindiyi andan yaranmış hüquqi nəticələri aradan qaldırmır.

**3.22.3.** Qanuni inzibati akt, həmin aktın ləğv olunmasını şərtləndirən hallar məlum olduğu gündən 1 (bir) il ərzində ləğv edilə bilər.

**3.22.4.** Maraqlı şəxsin etimadı qanunla qorunduğu hallarda, ləğv olunmuş inzibati aktın məzmununa etimad göstərməsi səbəbindən həmin şəxsə vurulmuş maddi ziyana görə ona kompensasiya ödənilməlidir. Kompensasiya maraqlı şəxsin müraciətinə əsasən ödənilir. Maraqlı şəxsə ödəniləcək kompensasiyanın həc-

mi qanuni inzibati aktı ləğv etmiş inzibati orqan tərəfindən müəyyən olunur və həmin şəxsə vurulmuş real ziyanın həcminə mütənasib olmalıdır.

**3.22.5.** İnzibati aktın bir hissəsinin etibarsız sayılması və ya ləğv edilməsi həmin aktın digər hissələrinin etibarsız sayılmasına və ya ləğv edilməsinə (həmin hissələr bir-biri ilə əlaqədar deyildirsə) səbəb olmur.

**3.22.6.** Hər hansı hüququ təsdiq etmək və ya həyata keçirmək üçün inzibati akt əsasında verilmiş sənədlər və ya əşyalar, həmin inzibati akt etibarsız sayıldıqdan və ya ləğv edildikdən sonra müvafiq inzibati orqan tərəfindən tələb oluna bilər. Həmin sənədlərə və ya əşyalara faktiki sahib olan şəxs onları qaytarmağa borcludur.

**3.22.7.** İnzibati orqan inzibati aktın qəbul edilməsi, habelə inzibati aktın geri çağırılması, ləğv olunması, dəyişdirilməsi və ya qüvvədən düşmüş hesab olunması haqqında maraqlı şəxslərə və ya onların nümayəndələrinə rəsmi məlumat verməyə borcludur. Rəsmi məlumat inzibati aktın maraqlı şəxslərə birbaşa elan edilməsi, təqdim olunması və ya dərc edilməsi yolu ilə verilir.

**3.22.8.** Poçt rabitəsi vasitəsi ilə ölkə daxilində göndərilmiş inzibati akt (inzibati aktın geri çağırılması, ləğv olunması, dəyişdirilməsi və ya qüvvədən düşmüş hesab olunması haqqında məlumat), onun poçta təqdim edildiyi gündən 5 (beş) gün keçdikdən sonra, elektron üsulla göndərildiyi gündən isə 3 (üç) gün keçdikdən sonra maraqlı şəxsə təqdim olunmuş sayılır. Bu qayda maraqlı şəxsin inzibati aktı (müvafiq məlumatı) almadığı və ya gec aldığı hallara şamil olunmur. Maraqlı şəxs inzibati aktı (müvafiq məlumatı) almadığını və ya gec aldığını iddia etdiyi hallarda, aktın (müvafiq məlumatın) ona təqdim olunması faktını və müddətini sübut etmə vəzifəsi inzibati orqanın üzərinə düşür.

**3.22.9.** Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda yazılı inzibati akt, o cümlədən onun geri çağırılması, ləğv olunması, dəyişdirilməsi və ya qüvvədən düşmüş hesab olunması haqqında inzibati akt barədə məlumat kütləvi

informasiya vasitələrində dərc olunur. İnzibati akt dərc edildiyi gündən 10 (on) gün keçdikdən sonra elan olunmuş sayılır.

**3.22.10.** İnzibati orqan (vəzifəli şəxslər) inzibati icraat zamanı müəyyən (aşkar) olunmuş maraqlı şəxslərin ailə və şəxsi həyatına aid sirlərin, habelə peşə və ya kommersiya sirri olan sənədlərin və ya məlumatların məxfiliyini təmin etməlidir.

### 3.23. İnzibati akt qəbul edilərkən diskresion səlahiyyətlərdən istifadə edilməsi

**3.23.1.** İnzibati orqan tərəfindən diskresion səlahiyyətlər əsasında qəbul edilmiş inzibati aktda aşağıdakıları müəyyən edən əlavə müddəalar nəzərdə tutula bilər:

a. həmin aktla nəzərdə tutulmuş hər hansı imtiyazın və ya vəzifənin (öhdəliyin) qüvvəyə minməsi və ya qüvvədən düşməsi vaxtını və ya qüvvədə olma müddətini;

b. hər hansı imtiyazın və ya vəzifənin (öhdəliyin) qüvvəyə minməsi və ya qüvvədən düşməsi vaxtının gələcəkdə hər hansı hadisənin baş verməsindən asılı olduğunu;

c. həmin aktın ləğv edilməsi hüququnun saxlanılması haqqında qeydləri;

d. maraqlı şəxsin müəyyən hərəkətlər etməsini və müəyyən hərəkətlərə yol verməsini və ya müəyyən hərəkətləri etməkdən çəkinməsini (öhdəliyin icrası şərtlərini) və ya öhdəliyin icrası ilə bağlı şərtlərin dəyişdirilməsini və ya yeni şərtlərin əlavə edilməsini.

### 3.24. İnzibati şikayətlə bağlı icraat üzrə qərarın qəbul edilməsi

**3.24.1.** Sahə qanunlarda başqa müddət nəzərdə tutulmadıqda, inzibati şikayətə onun rəsmi daxil olduğu gündən 1 (bir) ay müddətində şikayət instansiyasında baxılmalı və mahiyyəti üzrə qərar qəbul edilməlidir. Həmin müddət ərzində şikayət instansiyası tərəfindən müvafiq qərar qəbul edilmədikdə və ya şikayət ins-

tansiyası tərəfindən qəbul edilmiş qərarla razılaşmadıqda, şikayətçi məhkəməyə müraciət edə bilər.

**3.24.2.** Şikayət üzrə icraat zamanı şikayət instansiyası tərəfindən işə mahiyyəti üzrə və tam həcmdə baxılır, şikayət olunan aktın qanunauyğunluğu və məhkəmələrdən fərqli olaraq, həm də məqsədəuyğunluğu araşdırılır. Şikayət instansiyasının şikayət üzrə qərarı həm işdə olan, həm də əlavə təqdim olunmuş sübutlara əsaslanmalıdır. Şikayət instansiyası şikayətə baxılmasını heç bir halda şikayət olunan inzibati aktı qəbul etmiş inzibati orqana və ya onun vəzifəli şəxslərinə həvalə edə bilməz.

**3.24.3.** Şikayət instansiyası inzibati şikayətə baxdıqdan sonra aşağıdakı qərarlardan birini qəbul edir:

a. inzibati aktı dəyişdirmədən, inzibati şikayəti isə təmin etmədən saxlayır. Bununla da, şikayət olunmuş (mübahisələndirilən) inzibati akt qüvvədə qalır, həmin inzibati aktın icrasının dayandırılması barədə qərar öz qüvvəsini itirir;

b. inzibati aktı tamamilə və ya qismən ləğv edir və işdə olan və ya əlavə təqdim olunmuş sübutlar əsasında yeni inzibati akt qəbul edir. İnzibati akt qismən ləğv edildikdə, qəbul olunan qərar (yeni inzibati akt) yalnız şikayət verilən inzibati aktın ləğv olunan hissəsində toxunulan məsələləri (aktın müvafiq bəndində göstərilən məsələləri) tənzimləyir və onun qüvvəsi digər hissələrə (bəndlərə) şamil olunmur. İnzibati akt tamamilə ləğv olunduqda, inzibati aktla tənzimlənən (əhatə olunan) bütün məsələlər (hüquqlar, vəzifələr) qəbul olunan qərarla (yeni inzibati aktla) həll olunur;

c. inzibati aktı dəyişdirir. Bu zaman barəsində şikayət verilən inzibati akt dəyişdirilməyən hissədə qüvvədə qalır, dəyişdirilən hissə isə yenidən tərtib edilir. Şikayət instansiyası inzibati aktı tələb olunan tərzdə dəyişdirilməsini tabeliyində olan və ilkin inzibati aktı qəbul etmiş inzibati orqana həvalə edə bilər və bunun üçün konkret müddət təyin edə bilər;

d. inzibati şikayət inzibati orqanın hərəkət və ya hərəkətsizliyindən verildikdə, həmin şikayət üzrə aparılmış araşdırmanın

nəticəsinə dair qərar qəbul edilir. Həmin qərarda inzibati orqanın hərəkətinin (hərəkətsizliyinin) qanuna uyğun, yaxud da qanuna zidd olduğu, habelə hazırda mövcud olan vəziyyətə uyğun konkret tədbirlər (hərəkətlər) müəyyən edilərək, onların inzibati orqan tərəfindən həyata keçirilməsinə dair müvafiq tapşırıqlar verilir.

**3.24.4.** Şikayət instansiyasının inzibati şikayət üzrə qəbul etdiyi qərar inzibati akt sayılır və bu baxımdan qanunda inzibati akta dair nəzərdə tutulmuş bütün tələblərə uyğun olmalıdır. İştirakçılar narazı qaldıqları hallarda, bu inzibati akt inzibati məhkəmə qaydasında mübahisələndirilə bilərlər.

## 4. İnzibati məhkəmə qaydasında hüquqi müdafiə. İnzibati iddia

### 4.1. İnzibati iddianın növləri

**4.1.1.** İnzibati məhkəmə icraatı qaydasında aşağıdakı iddialara baxılır:

a. mübahisələndirmə haqqında iddialara – şəxsin hüquq və vəzifələri ilə bağlı inzibati orqan tərəfindən qəbul edilmiş inzibati aktın mübahisələndirilməsinə (ləğv olunmasına və ya dəyişdirilməsinə) dair;
b. məcburetmə haqqında iddialara – inzibati orqanın üzərinə inzibati aktın qəbul edilməsi ilə bağlı müvafiq öhdəliyin qoyulmasına dair iddialara və ya inzibati orqanın hərəkətsizliyindən müdafiəyə dair;
c. öhdəliyin icrası haqqında iddialara – inzibati orqan tərəfindən inzibati aktın qəbul edilməsi ilə əlaqədar olmayan müəyyən hərəkətlərin edilməsinə dair;
d. müəyyən hərəkətləri etməkdən çəkinməyə dair iddialara – inzibati orqanın inzibati aktın qəbul edilməsi ilə əlaqədar olmayan və bilavasitə şəxsin hüquq və azadlıqlarını pozan qanunsuz müdaxiləsindən müdafiəyə dair;

e. müəyyən etmə və ya tanınma haqqında iddialara – inzibati hüquq münasibətinin mövcud olub-olmamasına, habelə inzibati aktın etibarsız sayılmasına dair;
f. qanunauyğunluq haqqında iddialara – Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin səlahiyyətlərinə aid olan məsələlər istisna olmaqla, normativ xarakterli aktların qanunauyğunluğunun yoxlanılmasına dair;
g. kompensasiyanın ödənilməsi haqqında iddialara – inzibati mübahisələrin həlli ilə bağlı əmlak tələbinə, habelə inzibati orqanların qanunsuz qərarları (inzibati aktları) və ya hərəkəti (hərəkətsizliyi) nəticəsində vurulmuş ziyana görə kompensasiyanın ödənilməsi tələbinə dair;
h. bələdiyyələrin inzibati nəzarət orqanlarının hərəkətlərinə qarşı və ya inzibati nəzarət orqanlarının bələdiyyələrə qarşı iddialarına;

**4.1.2.** "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq bankın sağlamlaşdırılması, rezolyusiyası çərçivəsində verdiyi, bankın məcburi ləğvi və ləğvedicinin təyin edilməsi, bankın iflas proseduruna başlanması, bankın kapitalında mühüm iştirak payı olan şəxsin payının özgəninkiləşdirilməsi və ya bank tərəfindən geri alınması və digər nəzarət tədbirləri ilə bağlı maliyyə bazarlarına nəzarət orqanının ərizələrinə.

### 4.2. Aidiyyət

#### 4.2.1. İnzibati iddiaların aidiyyəti İPM-ə uyğun olaraq müəyyən edilir.

**4.2.2.** Qanunla başqa aidiyyət qaydası müəyyən edilməmişdirsə, inzibati mübahisələrə dair işlərə İPM-ə, habelə həmin Məcəllənin müddəalarına və prinsiplərinə zidd olmadığı hallarda MPM-ə uyğun olaraq birinci instansiya məhkəməsi qismində inzibati məhkəmələr (Bakı, Gəncə, Sumqayıt, Şirvan və Şəki inzibati məhkəmələri) tərəfindən baxılır. İnzibati məhkəmələrdə inzibati mübahisələrə hakim tərəfindən təkbaşına baxılır.

**4.2.3.** Ələt azad iqtisadi zonasında inzibati hüquq münasibətləri ilə bağlı mübahisələrə baxılması "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir. Ələt azad iqtisadi zonasında inzibati və digər mübahisələrin həlli müstəsna yurisdiksiyaya aiddir.

**4.2.4.** İnzibati mübahisələrə apellyasiya qaydasında Azərbaycan Respublikası apellyasiya instansiyası məhkəmələrinin inzibati kollegiyaları tərəfindən baxılır. Azərbaycan Respublikası apellyasiya instansiyası məhkəmələrinin inzibati kollegiyalarında inzibati mübahisələrə 3 (üç) hakimdən ibarət məhkəmə tərkibi tərəfindən baxılır.

**4.2.5.** İnzibati mübahisələrə kassasiya qaydasında Azərbaycan Respublikası Ali Məhkəməsinin İnzibati kollegiyası tərəfindən baxılır. Kassasiya qaydasında inzibati mübahisələrə dair işlərə 3 (üç) hakimdən ibarət məhkəmə tərkibi tərəfindən baxılır.

**4.2.6.** İnzibati mübahisələrin ərazi aidiyyəti aşağıdakı qaydada müəyyən edilir:

a. daşınmaz əmlakla, yaxud müəyyən ərazi ilə bağlı hüquq və ya hüquq münasibəti ilə əlaqədar inzibati mübahisələrə həmin əmlakın və ya ərazinin aid olduğu yerin məhkəməsi tərəfindən baxılır. Daşınmaz əmlak dedikdə, üzərində hüquqlar dövlət qeydiyyatına alınmalı olan torpaq sahələri, yer təki sahələri, ayrıca su obyektləri və torpağa möhkəm bağlı olub təyinatına tənasübsüz zərər vurulmadan yerinin dəyişdirilməsi mümkün olmayan əşyalar, o cümlədən binalar, qurğular, yaşayış və qeyri-yaşayış sahələri, fərdi yaşayış və bağ evləri, meşələr və çoxillik əkmələr, əmlak kompleksi kimi müəssisələr başa düşülür. Müəyyən ərazi ilə bağlı hüquq və ya hüquq münasibətləri – müəyyən ərazi çərçivəsində hər hansı öhdəliyin icrası və ya maraqlı şəxsin fəaliyyətinə qanunsuz müdaxilə nəticəsində yaranan, habelə müəyyən ərazi ilə bağlı hər hansı hüquq münasibətinin mövcud olub-olmamasına və ya inzibati aktın etibarsız sayılmasına yönələn, o cümlədən bələdiyyələr ilə inzibati nə-

zarət orqanlarının arasında yaranan münasibətləri əhatə edir;

b. mübahisələndirmə haqqında iddialara mübahisə edilən inzibati aktı qəbul etmiş inzibati orqanın yerləşdiyi yerin məhkəməsi tərəfindən baxılır. İnzibati akt səlahiyyəti birdən çox məhkəmənin yurisdiksiyasına aid olan ərazini əhatə edən inzibati orqan tərəfindən qəbul edildiyi hallarda, belə inzibati aktlara qarşı iddialara hüquqlarına (qanunla qorunan maraqlarına) toxunulan şəxsin yaşayış yerinin və ya olduğu yerin məhkəməsi tərəfindən baxılır. Bu qayda həmçinin məcburetmə və öhdəliyin icrası haqqında iddialara da şamil olunur;

c. Azərbaycan Respublikasının xaricdə yerləşən diplomatik nümayəndəlikləri və konsulluqlarının səlahiyyətinə aid olan ərazilərdə Azərbaycan Respublikasına qarşı iddialara Azərbaycan Respublikası Nazirlər Kabinetinin yerləşdiyi yerin məhkəməsi (Bakı İnzibati Məhkəməsi) tərəfindən baxılır;

d. inzibati orqanla hakim, dövlət qulluqçusu və ya hərbi qulluqçu arasında mövcud olan və ya əvvəllər mövcud olmuş xidməti hüquq münasibətləri ilə bağlı həmin orqana qarşı iddialara, habelə belə hüquq münasibətlərinin yaranması ilə əlaqədar mübahisələrə iddiaçının xidməti yaşayış sahəsinin olduğu yerin, belə yaşayış sahəsinin olmadığı hallarda yaşayış yerinin, bu halların heç birinin olmadığı təqdirdə isə ilkin inzibati aktı qəbul etmiş inzibati orqanın (cavabdehin) yerləşdiyi yerin məhkəməsi tərəfindən baxılır;

e. Azərbaycan Respublikasının Dövlət bayrağı altında üzən dəniz gəmisinin və ya daxili səfər gəmisinin kapitanının vəsiyyətnamənin təsdiqi ilə əlaqədar hərəkəti və ya hərəkətsizliyi, yaxud onu təsdiq etməkdən imtina etməsi ilə bağlı iddialara həmin gəminin qeydiyyat limanının yerləşdiyi yerin məhkəməsi tərəfindən baxılır;

f. digər hallarda iddialara cavabdehin yerləşdiyi yerin, yaşayış yerinin, yaşayış yerinin olmadığı hallarda olduğu yerin və

ya axırıncı yaşayış, yaxud olduğu yerin məhkəməsi tərəfindən baxılır.

**4.2.7.** Predmet və ya ərazi aidiyyəti üzrə mübahisəyə baxılması onun səlahiyyətinə aid olmadığı hallarda, məhkəmə, tərəfləri dinlədikdən sonra xidməti vəzifəsinə görə mübahisənin aidiyyətini qanunvericiliyə uyğun olaraq müəyyənləşdirir və həmin mübahisə ilə bağlı işi aidiyyəti üzrə müvafiq səlahiyyətli məhkəməyə göndərir.

**4.2.8.** Mübahisəyə baxılması birdən artıq məhkəmənin səlahiyyətinə aid olduğu hallarda, məhkəmə mübahisə ilə bağlı işi iddiaçı və ya ərizəçi tərəfindən seçilən məhkəməyə göndərir. İddiaçı və ya ərizəçi tərəfindən belə seçim edilmədiyi hallarda, məhkəmə mübahisə ilə bağlı işi aidiyyət qaydalarına uyğun olaraq müvafiq səlahiyyətli məhkəməyə göndərir. Tərəflərdən birinin məhkəmə aidiyyətini mübahisələndirdiyi hallarda, mübahisəyə baxılmasının onun səlahiyyətinə aid olması barədə məsələ məhkəmə tərəfindən həll edilir. Mübahisənin aidiyyəti ilə bağlı məhkəmə əsaslandırılmış qərardad qəbul edir. Məhkəmənin aidiyyətlə bağlı qərardadından, həmin qərardadın təqdim olunduğu vaxtdan 10 (on) gün müddətində yuxarı məhkəməyə şikayət verilə bilər. Mübahisə ilə bağlı işin göndərildiyi məhkəmə özünü həmin işə baxmağa səlahiyyətli saymadığı hal istisna olmaqla, inzibati məhkəmənin aidiyyətlə bağlı qərardadı qanuni qüvvəyə mindikdən sonra, mübahisə ilə bağlı işin göndərildiyi məhkəmə üçün məcburidir. Apellyasiya instansiyası məhkəməsinin inzibati kollegiyasının aidiyyətlə bağlı qərardadı qanuni qüvvəyə mindikdən sonra, qərardad mübahisə ilə bağlı işin göndərildiyi məhkəmə üçün məcburidir.

**4.2.9.** Ərazi aidiyyəti üzrə səlahiyyətli məhkəmə aşağıdakı hallarda müvafiq yuxarı məhkəmə instansiyası tərəfindən müəyyən edilir:

a. səlahiyyətli məhkəmə konkret halda hüquqi və ya faktiki baxımdan məhkəmə icraatını həyata keçirə bilmədikdə;

b. birdən çox məhkəmə özünü səlahiyyətli saydıqda;

c. mübahisə ilə bağlı işin göndərildiyi məhkəmə özünü səlahiyyətli saymadıqda.

**4.2.10.** Ərazi aidiyyətini müəyyən etmək mümkün olmadığı hallarda, səlahiyyətli məhkəmə Ali Məhkəmə tərəfindən müəyyən edilir. Məhkəmə icraatının hər bir iştirakçısı və mübahisəyə baxan hər bir məhkəmə aidiyyətlə bağlı yuxarı məhkəməyə müraciət edə bilər. Yuxarı məhkəmə müraciət üzrə şifahi məhkəmə baxışı keçirmədən də qərar qəbul etməyə haqlıdır.

## 4.3. Müddət

**4.3.1.** İPM-lə başqa qayda nəzərdə tutulmadıqda, müddətin axımı təqdim edilmə anından, təqdim edilmənin İPM ilə məcburi hesab olunmadığı hallarda isə, elan edilmə anından başlanır. Müddətlərlə bağlı İPM-in müvafiq müddəaları nəzərə alınmaqla, MPM-lə müəyyən olunmuş qaydalar da tətbiq olunur.

**4.3.2.** Məhkəmə qərarına (qərardadına) qarşı şikayət verilməsi ilə bağlı İPM-də nəzərdə tutulmuş müddətin axını, proses iştirakçısına həmin qərara (qərardada) qarşı şikayət vermənin qaydası və müddəti, şikayətin verilə biləcəyi məhkəmə və onun ünvanı barədə məlumatların əks olunduğu məhkəmə aktının və ya bu barədə məhkəmə tərəfindən yazılı məlumatın təqdim edildiyi gündən başlanır.

**4.3.3.** Hüquqi müdafiə vasitələri, həmin hüquqi müdafiə vasitələrindən istifadə qaydası və müddəti ilə bağlı məlumat bu Təlimatda nəzərdə tutulmuş qaydada təqdim olunmadıqda və ya təhrif olunmuş şəkildə təqdim olunduqda, məhkəmə qərarına (qərardadına) qarşı onun təqdim olunduğu və ya elan olunduğu gündən 1 (bir) il müddətində şikayət verilə bilər. Həmin müddətdə şikayətin verilməməsinin təbii fəlakət və ya digər qarşısıalınmaz hadisə ilə, eləcə də hüquqi müdafiə vasitələrindən istifadəyə yol verilməməsi barədə yazılı xəbərdarlıqla bağlı olduğunu sübut edən proses iştirakçısı, hüquqi müdafiə vasitələrindən istifadə etməyə mane olmuş hallar aradan qalxdığı gündən 15 (on beş) gün ərzində şikayət verə bilər.

**4.3.4.** İPM ilə müəyyən olunmuş müddət proses iştirakçısının təqsiri olmadan buraxıldığı hallarda, məhkəmə həmin şəxsin ərizəsinə əsasən buraxılmış prosessual müddəti bərpa etməlidir. Buraxılmış prosessual müddətin bərpa edilməsi barədə ərizə müddətə əməl olunmasına mane olan hallar aradan qalxdığı gündən 15 (on beş) gün ərzində verilməlidir. Müddətin buraxılmasına səbəb olmuş hallar ərizədə və ya ərizə üzrə keçirilən məhkəmə iclasında əsaslandırılmalıdır. Ərizənin verilməsi ilə eyni vaxtda müddəti buraxılmış prosessual hərəkət də edilməlidir.

**4.3.5.** Təbii fəlakət və ya digər qarşısıalınmaz hallar, eləcə də hüquqi müdafiə vasitələrindən istifadəyə yol verilməməsi barədə yazılı xəbərdarlıqla bağlı olan hallar istisna olmaqla, müddətin buraxılmasından 1 (bir) il keçdikdən sonra həmin müddətin bərpasına dair ərizə verilə bilməz.

**4.3.6.** Müddətin bərpa olunması barədə ərizə prosessual hərəkətin edilməli olduğu məhkəməyə verilir. Həmin ərizəyə məhkəmə iclasında baxılır. Ərizəçiyə məhkəmə iclasının yeri və vaxtı barədə məlumat verilir. Buraxılmış prosessual müddətin bərpa edilməsi haqqında qərardad qəbul edən məhkəmə, eyni vaxtda buraxılmış prosessual hərəkətlərə dair məsələni də həll etməlidir. Buraxılmış prosessual müddətin bərpa edilməsi haqqında məhkəmə qərardadından şikayət verilə bilməz.

**4.3.7.** İnzibati şikayətlər üzrə məhkəmə icraatında iddia müddətləri aşağıdakı kimi müəyyən olunur:

a. mübahisələndirmə haqqında iddialar üzrə – 30 (otuz) gün müddətində. İddia müddəti inzibati aktın təqdim edildiyi vaxtdan, qanunvericiliklə nəzərdə tutulmuş hallarda inzibati akt kütləvi informasiya vasitələrində dərc olunmaqla elan olunduğu vaxtdan hesablanır. Şikayət instansiyasına şikayət verildiyi hallarda isə iddia müddəti, şikayətə dair qəbul olunan inzibati aktın təqdim olunduğu vaxtdan hesablanır;
b. elmi dərəcələr və elmi adlar verilməsi, xarici ölkələrdə verilmiş elmi dərəcələr və elmi adlar haqqında sənədlərin nostrifikasiyası (ekvivalentliyinin müəyyən edilməsi və ta-

nınması) və ya təkrar attestasiya əsasında tanınması, elmi dərəcədən və elmi addan məhrumetmə (elmi adın və elmi dərəcənin bərpası) ilə bağlı inzibati aktlara münasibətdə – 2 (iki) ay müddətində. Bu müddət həmin inzibati aktlar qəbul edildiyi tarixdən hesablanır;

c. məcburetmə haqqında iddialar üzrə – 30 (otuz) gün müddətində. İddia müddəti inzibati aktın qəbul edilməsindən imtina barədə iddiaçıya müvafiq inzibati aktın təqdim edildiyi və ya bu barədə yazılı məlumatın verildiyi vaxtdan hesablanır;

d. inzibati orqanın hərəkətsizliyindən müdafiə ilə bağlı iddialar üzrə – 35 (otuz beş) gün müddətində. Bu müddət inzibati aktın qəbul olunmasına dair müraciətlə bağlı və ya şikayət instansiyasına verilmiş şikayətlə bağlı müvafiq inzibati orqan tərəfindən qanunla müəyyən olunmuş müddətdə və kifayət qədər əsaslar olmadan qərar qəbul edilmədiyi hallarda, həmin müraciətin edildiyi və ya şikayətin verildiyi vaxtdan hesablanır. Sahə qanunvericilikdə həmin müddət daha qısa və ya daha uzun müəyyən oluna bilər.

**4.3.8.** Mübahisələndirilən və ya qəbul edilməsi məcburi olan inzibati aktlarla, habelə onların qəbul edilməsindən imtinalarla bağlı şikayətlər inzibati orqanların apelyasiya şuralarına verildiyi halda, bu Təlimatın 4.3.7-ci bəndinin “a”, “b” və “c” yarımbəndlərində nəzərdə tutulmuş iddia müddətlərinin axımı aşağıdakı vaxtadək dayandırılır:

a. inzibati orqanların apelyasiya şuralarının şikayət üzrə qəbul etdiyi qərardan (verdiyi yazılı cavabdan) inzibati qaydada şikayətin verilməsi üçün nəzərdə tutulmuş müddətlər bitənədək;

b. inzibati orqanların apelyasiya şuralarının qərarlarından (yazılı cavablarından) Azərbaycan Respublikasının Prezidenti yanında Apelyasiya Şurasına şikayət verildiyi halda isə, həmin Şuranın şikayət üzrə qəbul etdiyi qərar (verdiyi yazılı cavabı) şikayətçiyə təqdim edilənədək;

c. mediasiya prosesi tətbiq olunan hallarda “Mediasiya haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən həmin prosesə xitam verilən günədək.

**4.3.9.** Bu Təlimatın 4.3.7-ci bəndinin “d” yarımbəndində nəzərdə tutulan inzibati aktın, o cümlədən inzibati şikayətə dair qərarın xüsusi səbəblər üzündən qəbul edilmədiyi hallarda, məhkəmə inzibati aktın və ya inzibati şikayətə dair qərarın qəbul edilməsi üçün, qanunvericiliklə digər müddət müəyyən edilməmişdirsə, inzibati icraatın uzadılması müddətini nəzərə almaqla müəyyən müddət təyin edir. Təyin edilmiş müddət bitənədək iş üzrə icraat məhkəmə tərəfindən dayandırılır. Məhkəmə tərəfindən müəyyən olunmuş müddət ərzində inzibati akt qəbul edildikdə və ya şikayət təmin olunduqda iş üzrə icraata xitam verilir.

### 4.4. İddianın qaldırılması

**4.4.1.** İddia ərizəsi, proses iştirakçılarının sayına görə həmin ərizənin və digər sənədlərin surətləri əlavə olunmaqla, aidiyyəti üzrə müvafiq məhkəməyə yazılı şəkildə verilir. İddia ərizəsi məhkəməyə daxil olduğu gün məhkəmənin dəftərxanasında qeydiyyata alınmalı və ərizəyə qeydiyyat tarixi göstərilməklə ştamp vurulmalıdır. İddia ərizəsinin poçt rabitəsi vasitəsi ilə göndərildiyi hallarda, iddia ərizəsinin vaxtında göndərildiyini sübut etmək vəzifəsi iddiaçının üzərinə düşür. İddia ərizəsi məhkəməyə daxil olduğu gündən icraata qəbul edilmiş sayılır və aşağıdakı hüquqi nəticələri doğurur:

a. iddia ilə bağlı işin məhkəmənin icraatında olduğu müddətdə tərəflərdən heç biri eyni iddia ilə başqa məhkəməyə müraciət edə bilməz Burada eyni iddia dedikdə, eyni tərəflər arasında eyni predmetlə bağlı mübahisələr nəzərdə tutulur;

b. aidiyyətlə əlaqədar şərtlərin dəyişməsinə baxmayaraq iddia ilə bağlı iş iddianın ilkin olaraq verildiyi məhkəmənin icraatında qalır. Məhkəmə aidiyyətinin müvafiq qaydada mübahisələndirilməsi aidiyyətlə əlaqədar şərtləri dəyişdirmir. Burada aidiyyətlə əlaqədar şərtlərin dəyişməsi məhkəmədə

baxılan işdən birbaşa asılı olmayan obyektiv səbəblərdən baş vermiş dəyişikliklərdir(misal üçün, iddia ərizəsi inzibati orqanın yerləşdiyi ərazi üzrə məhkəməyə verildikdən sonra, həmin inzibati orqanın hüquqi ünvanında dəyişiklik olunsa da, bu hal aidiyyətlə əlaqədar şərtlərin dəyişməsi kimi qiymətləndirilməli və iddia ilə bağlı iş iddianın ilkin olaraq verildiyi məhkəmədə baxılmalıdır).

**4.4.2.** İddia ərizəsində aşağıdakılar göstərilməlidir:

a. ərizənin verildiyi məhkəmənin adı;

b. İddiaçının: fiziki şəxslərin soyadları, adları, atalarının adları, yaşayış yerləri, hüquqi şəxslərin (qanunla müvafiq səlahiyyət verildiyi hallarda – inzibati orqanın) adı və hüquqi ünvanları;

c. cavabdehin: inzibati orqanın (hüquqi şəxslərin) adı və hüquqi ünvanları; fiziki şəxslərin soyadları, adları, atalarının adları, yaşayış yerləri;

d. iddiaçının (ərizəçinin) tələbi.

**4.4.3.** Məhkəmə prosesinin tezləşdirilməsi məqsədi ilə iddia ərizəsində həmçinin aşağıdakılar göstərilə bilər:

a. iddiaçının öz tələbini əsaslandırdığı faktlar və digər sübutetmə vasitələri;

b. iddiaçının arzuladığı inzibati aktın qəbul edilməsinin zəruriliyini göstərən hallar və iddiaçının istəyinə uyğun olaraq, həmin inzibati aktın layihəsi;

c. mübahisənin düzgün həll edilməsi üçün zəruri olan digər məlumatlar və iddiaçının vəsatətləri;

d. əsli və ya surəti iddia ərizəsinə qoşulmaqla, mübahisələndirilən inzibati akt və şikayət instansiyasına şikayət verildiyi hallarda şikayət instansiyasının qərarı;

e. ərizəyə əlavə olunmuş sənədlərin siyahısı.

**4.4.4.** İddia ərizəsi qanunda nəzərdə tutulmuş tələblərə cavab vermədikdə, hakim və ya məhkəmə tərkibinə sədrlik edən hakim, yaxud məhkəmə tərkibinə sədrlik edən hakim tərəfindən təyin olunmuş hakim (məruzəçi hakim) (bundan sonra – hakim) iddia ərizəsini həmin tələblərə uyğunlaşdırmaq üçün ağlabatan müddət

təyin edir. Hakim iddia ərizəsinin və ona əlavə edilmiş sənədlərin surətlərinin cavabdehə təqdim olunmasına dair sərəncam verir. İddia ərizəsini təqdim edərkən, cavabdehdən iddiaya qarşı öz münasibətini (etirazını) yazılı şəkildə məhkəməyə bildirmək tələb olunur. Məhkəmə bu məqsədlə ağlabatan müddət təyin edir. Hakim bütün formal xətaların aradan qaldırılmasına, qeyri-müəyyən ifadələrin aydınlaşdırılmasına, işin mahiyyəti üzrə vəsatətlərin verilməsinə, natamam faktiki məlumatların tamamlanmasına, prosesin sonrakı mərhələlərində işin hallarının tam müəyyənləşdirilməsi və obyektiv qiymətləndirilməsi üçün əhəmiyyət kəsb edən bütün yazılı izahatların təqdim olunmasına yardım etməlidir. Məhkəmə tərəfindən yardım etmək vəzifəsinə, həmçinin iddianın mümkün sayılmamasına səbəb olan hallar aşkar edildikdə bunu iddiaçının diqqətinə çatdırmaq, həmin halların aradan qaldırılması üçün lazımi şərait yaratmaq və bunun üçün ağlabatan vaxt təyin etmək daxildir.

**4.4.5.** İnzibati məhkəmə icraatının iştirakçıları yazılı vəsatətlərini, etirazlarını, izahatlarını və bunlarla əlaqədar sənədləri məhkəmə baxışı başlayana qədər təqdim etməyə borcludurlar. Hakim bu məqsədlə müddət təyin edə bilər. Məhkəmə xidməti vəzifəsinə görə həmin sənədlərin surətlərini prosesin digər iştirakçılarına göndərir. Yazılı vəsatətlərə, etirazlara, izahatlara onlarda istinad olunan sənədlərin əsli və ya surəti tam və ya çıxarışlar şəklində əlavə edilməlidir. Həmin sənədlər qarşı tərəfə məlum olduğu və ya həcmcə çox böyük olduğu hallarda, onların əlamətlərini dəqiq göstərməklə, qarşı tərəfin həmin sənədlərlə məhkəmədə tanış olmasının mümkünlüyünü qeyd etmək kifayətdir.

**4.4.6.** Hakim şifahi məhkəmə baxışı başlayana qədər, hüquqi mübahisənin bir şifahi məhkəmə iclası çərçivəsində həll olunması (mübahisə ilə bağlı işin mahiyyəti üzrə qərar qəbul olunması) üçün bütün zəruri tədbirləri görməlidir. Bu məqsədlə hakim aşağıdakı hərəkətləri edə bilər:

a. işin hallarını və mübahisənin vəziyyətini müzakirə (izah) etmək, habelə hüquqi mübahisəni barışıq yolu ilə nizama

salmaq (həll etmək) və barışıq sazişinin bağlanmasına yardım etmək məqsədi ilə proses iştirakçılarını dəvət etmək;

b. işin hallarını nəzərə alaraq öz təşəbbüsü ilə yaxud tərəflərdən birinin müraciəti əsasında onlara mübahisənin mediasiya vasitəsilə həllini təklif etmək;

c. hazırlıq sənədlərini (ərizələrini, vəsatətlərini, izahatlarını, etirazlarını) tamamlamağı və ya aydınlaşdırmağı, iş üzrə materiallarda saxlanılması mümkün olan sənədlərin və predmetlərin məhkəməyə təqdim olunmasını proses iştirakçılarına təklif etmək, dəqiqləşdirmə tələb edən müəyyən halların izah olunması üçün müddət təyin etmək;

d. zəruri sənədləri (arayışları, məlumatları) toplamaq;

e. tələb olunan sənədlərin təqdim olunması barədə sərəncam vermək;

f. proses iştirakçılarının şəxsən məhkəməyə gəlmələrinə dair sərəncam vermək;

g. şahidləri və ekspertləri dəvət etmək.

**4.4.7.** Məhkəmənin bütün sərəncamları barədə proses iştirakçılarına vaxtında məlumat verilməlidir.

**4.4.8.** Hakim mübahisə ilə bağlı iş üzrə hazırlıq icraatında aşağıdakı məsələləri həll edir və bu barədə müvafiq qərardad qəbul edir:

a. iş üzrə məhkəmə icraatının dayandırılması və ya təxirə salınması barədə (Misal üçün, barışıq haqqında danışıqlar nə qədər davam edəcəyi məlum olmayanda tərəflərin razılığı ilə iş üzrə məhkəmə icraatı dayandırıla və ya təxirə salına bilər. Digər səbəblər kimi, iddiaçı – fiziki şəxsin ölməsi və onun hüquqi varisi inzibati icraatı davam edib-etməyəcəyi, yaxud da hüquqi şəxsin iflasa uğraması göstərilə bilər);

b. iddiaçının iddiadan imtina etməsi və ya cavabdehin iddianı qəbul etməsi barədə. İkinci halda cavabdeh üçün tələb olunan inzibati aktın qəbul edilməsi və ya digər hərəkətin yerinə yetirilməsi üçün müddət müəyyən edilə bilər;

c. hüquqi mübahisənin barışıq yolu ilə nizama salınması (tərəflərin barışıq sazişi bağladığı və ya hüquqi mübahisənin nizama salınması barədə müştərək bəyanatla çıxış etdiyi hallarda, fors-major və ya başqa hallarda) barədə. (Misal üçün, məhkəmə icraatı zamanı iddianın təmin edilməsi ehtimalı aşağı olduqda, hakim iddiaçıya bunu izah edir və ona məhkəmə prosesini həqiqətən davam edib-etməyəcəyi barədə bəyanat verməyi təklif edir);
d. iddianın məbləği barədə (iddiaçının tələb etdiyi pul məbləği);
e. prosessual xərclər barədə (dövlət rüsumları, vəkilin haqqı və digər xərclər);
f. məhkəmə icraatına cəlbetmə barədə (üçüncü şəxslərin cəlb edilməsi). Misal üçün, vətəndaş **"A"** məlumatlandırma icraatı qaydasında fərdi yaşayış evinin tikilməsi üçün razılığın alınması məqsədilə inzibati orqana müraciət edir. İnzibati orqan razılaşdırmadan imtina edir. Vətəndaş **"A"** inzibati orqana qarşı iddia qaldırır. İddia təmin olunduqdan sonra, məhkəmə qərarı əsasında fərdi yaşayış evinin tikintisi inzibati orqan tərəfindən razılaşdırılır. Bununla belə, məhkəmə qərarı iddiaçının qonşuluğunda yaşayan digər vətəndaşın hüquqlarına qonşuluq hüquqları baxımından (onun evinin təbii işıqlandırılmasına – insolyasiya normalarına) təsir edə bilər və bunun nəticəsində həmin vətəndaşın hüquqları pozula, onun yaşayış şəraiti əhəmiyyətli dərəcədə pisləşə bilər. Belə vəziyyətdə həmin qonşu məhkəmə prosesinə cəlb oluna bilər. Bununla belə, iddiaçının xeyrinə çıxarılmış inzibati akt (konkret mübahisəyə münasibətdə tikintinin razılaşdırılması və ya tikintiyə icazə) və ya məhkəmə qərarı ilə heç də bütün hallarda qonşuluq hüquqlarının pozulduğunu iddia etmək olmaz. İnzibati və ya məhkəmə qaydasında çıxarılan qərarlar qonşuluq hüquqlarının qorunması ilə bağlı şəhərsalma və tikinti qanunvericiliyinin tələblərinə uyğun olmalıdır. Tikintiyə icazənin verilməsindən inzibati orqanın imtinasının əsasında yalnız qonşuluq hüquqlarının pozulması

deyil, digər qanunvericilik normalarının və ya normativ texniki tələblərin pozulması da dayana bilər. Belə hallarda, məhkəmə icraatına üçüncü şəxslərin cəlb olunması məsələsi hər bir konkret halda məhkəmə qərarının gələcəkdə həmin şəxslərin hüquqlarına və qanuni maraqlarına mümkün olan təsiri nəzərə alınmaqla, məhkəmənin öz mülahizəsi əsasında həll olunmalıdır. Qeyd edilən misal, üçüncü şəxslərin qanunla qorunan maraqlarına hər hansı təsirin olacağının ehtimal edildiyi hallarda, onun məhkəmə icraatına adi cəlbetmə qaydasında cəlb olunmasının bariz nümunəsidir.

Adi cəlb etmədən fərqli olaraq, əgər maraqlı şəxs mübahisəli hüquq münasibətlərində birbaşa iştirak etdikdə və onun qanuni maraqlarına toxunulmasının və ya müdaxilənin intensivliyi çox yüksək olduqda və nəticədə qəbul olunacaq qərar onun hüquqi statusuna açıq-aşkar təsir etdikdə, həmin şəxsin işə cəlb edilməsi zərurətdən irəli gəlir və belə hallarda şəxs icraata mütləq cəlb olunmalıdır. Belə cəlbetmə zəruri cəlbetmə olacaqdır. Əgər maraqlı şəxsin mübahisəli hüquq münasibətində iştirakı tərəflərin və eyni zamanda onun barəsində vahid qərarın qəbul edilməsini şərtləndirirsə, həmin maraqlı şəxsin inzibati məhkəmə icraatına cəlb edilməsi mütləqdir. Maraqlı şəxslər məhkəmə icraatına zəruri cəlbetmə qaydasında cəlb edildikdə, məhkəmə qərarları ilə onların üzərinə müəyyən vəzifələr, öhdəliklər və ya məhdudiyyətlər də qoyula bilər. Bu zaman məhkəmə tərəfindən qəbul olunan qərar məhkəmə icraatının bütün tərəfləri, o cümlədən üçüncü şəxslər üçün məcburi xarakter daşıyır. Məhkəmə tərəfindən maraqlı şəxslərin məhkəmə icraatına zəruri cəlb edilməsi məsələsinə baxılması hüququ, qəbul ediləcək qərarın onların hüquqlarına və maraqlarına yüksək dərəcədə təsir etməsi ehtimalının olduğu hallarda artıq məhkəmənin vəzifəsinə çevrilir.

Misal üçün, vətəndaş **“A”** tikintiyə icazə alır. Onun qonşusu – vətəndaş **“B”** həmin icazə ilə onun hüquqlarının məhdudlaşdırıldığını iddia edir. Belə ki, həmin icazə əsasında inşa olunacaq tikinti obyekti onun evindən açılan mənzərənin qarşısını bağlamaqla

yanaşı, həm də evinə düşən təbii işıqlandırmanı da əhəmiyyətli dərəcədə məhdudlaşdırır. Bu səbəbdən də vətəndaş "B" tikintiyə icazəni vermiş inzibati orqana qarşı məhkəmədə iddia qaldırır. Bu halda tikintiyə icazəni almış vətəndaş **"A"** da maraqlı şəxs qismində zəruri cəlbetmə qaydasında məhkəmə icraatına cəlb olunmalıdır. Onun cəlb edilməsinə zərurət iddia təmin olunduğu halda tikintiyə verilmiş icazənin ləğv olunması və nəticədə vətəndaş **"A"**-nın tikinti obyektini inşa etmək hüququnun itirilməsi ilə əlaqəlidir və bu da birbaşa onun maraqlarına və hüquqlarına təsir edən amildir.

**4.4.9.** İddiaçı inzibati icraat zamanı müəyyən faktların nəzərə alınması və ya alınmaması nəticəsində hüquqlarının pozulduğunu bildirdiyi hallarda, hakim həmin faktların məhkəməyə təqdim olunması və ya bu barədə məlumat verilməsi üçün iddiaçıya müddət təyin edə bilər. Hakim proses iştirakçısından müəyyən hadisələrə dair faktlar barədə məlumat verməyi və ya sübutetmə vasitələrini göstərməyi, onun sərəncamında olan sübutları təqdim etməyi tələb edə bilər. Hakim tərəfindən bu məqsədlə müvafiq müddət təyin oluna bilər.

**4.4.10.** Məhkəmə iddia ərizəsinin ifadə tərzi ilə bağlı olmasa da, iddia tələbindən kənara çıxmağa haqlı deyildir. Məhkəmə tam aydın olmayan, yaxud düzgün ifadə olunmayan iddia ərizələrini araşdıraraq və işin halları ilə bağlı iddiaçının izahatlarını dinləyərək, iddianın mahiyyətini müəyyən etməli və onun mahiyyətinə uyğun qərar qəbul etməlidir. Lakin bu zaman məhkəmə iddia tələbindən kənara çıxa bilməz. (Misal üçün, təqaüdçü olan iddiaçı iddia tələbini əmək pensiyasının təyin edilməsi kimi göstərmiş, lakin iddianın mahiyyətindən məlum olur ki, o aldığı pensiyanın düzgün hesablanmamasından narazıdır. Bu zaman məhkəmə iddianın mahiyyətinə uyğun olaraq qərar qəbul edir. Lakin məhkəmə iddia tələbindən kənara çıxaraq, iddiaçının, məsələn əlilliyi olan şəxs kimi hesab edilməsi barədə qərar qəbul edə bilməz). İlkin iddia üzrə icraat zamanı qarşılıqlı iddia qaldırıla bilər, lakin bu halda qarşılıqlı tələb ilkin iddiada irəli sürülən

tələblə və ya cavabdehin ilkin iddiaya qarşı istifadə etdiyi müdafiə vasitələri ilə əlaqəli olmalıdır. Aidiyyət qaydalarına görə iddianın başqa məhkəməyə aid olduğu hallarda qarşılıqlı iddiaya yol verilmir.

**4.4.11.** Qarşılıqlı iddia İPM ilə müəyyən edilmiş qaydada qaldırılır. Lakin nəzərə almaq lazımdır ki, mübahisələndirmə, məcburetmə və ya qanunauyğunluq haqqında iddialara münasibətdə qarşılıqlı iddia qaldırılmasına yol verilmir.

**4.4.12.** İnzibati məhkəmə icraatının başqa iştirakçılarının razılığı olduqda və ya məhkəmə iddianın dəyişdirilməsini məqsədəuyğun hesab etdikdə, iddiaçı iddianı dəyişdirməyə (iddianın əsasını və ya predmetini dəyişdirməyə, iddia tələbinin həcmini artırmağa və ya azaltmağa) haqlıdır. Cavabdehin iddianın dəyişdirilməsinə etiraz etmədiyi və yazılı sənəddə (ərizədə, vəsatətdə və s.) və ya şifahi məhkəmə baxışında artıq dəyişdirilmiş iddia barədə mövqeyini bildirdiyi hallarda, məhkəmə cavabdehin iddianın dəyişdirilməsi ilə razılaşdığını hesab edir. İddianın dəyişdirilməsinin qəbul edilməsi və ya onun qəbulundan imtina edilməsi barədə məhkəmə qərardadından müstəqil şəkildə şikayət verilə bilməz.

**4.4.13.** Məhkəmə qərarı qanuni qüvvəyə minənə qədər iddiaçı iddiadan imtina etməyə haqlıdır. Bu iddiaya münasibətdə dispozitivlik prinsipindən irəli gəlir. Şifahi məhkəmə baxışında tərəflərin çıxışlarından sonra iddiadan imtina edilməsinə yalnız cavabdehin razılığı ilə yol verilir. Məhkəmənin tələbinə baxmayaraq, iddiaçı 30 (otuz) gündən çox müddət ərzində ardıcıl olaraq iş üzrə məhkəmə icraatından yayındıqda, iddia geri götürülmüş sayılır. Belə hallarda məhkəmə iddianın geri götürülmüş sayılması barədə qərardad qəbul edir. İddiadan imtina edilməsi eyni tərəflər arasında, eyni predmet barəsində və eyni əsaslar üzrə yenidən iddia qaldırma imkanını istisna edir.

**4.4.14.** İddiaçı iddiadan imtina etdikdə və ya iddia məhkəmə tərəfindən geri götürülmüş sayıldıqda, məhkəmə icraata xitam verilməsi barədə qərardad qəbul edir. Həmin qərardadda iddiadan

imtina edilməsinin və ya iddianın geri götürülmüş sayılmasının eyni tərəflər arasında, eyni predmet barəsində və eyni əsaslar üzrə yenidən iddia qaldırma imkanının istisna edildiyi göstərilməlidir. Məhkəmənin həmin qərardadından şikayət verilə bilməz.

### 4.5. İddiaların birləşdirilməsi

**4.5.1.** Bir-biri ilə əlaqəli olduğu, bir cavabdehə yönəldiyi və İPM-də nəzərdə tutulmuş eyni məhkəməyə aid olduğu hallarda bir neçə iddia tələbi iddiaçı tərəfindən bir iddiada birləşdirilə bilər.

**4.5.2.** Məhkəmə birgə baxılması və vahid qərar qəbul edilməsi məqsədilə icraatında olan və mübahisə predmetləri eyni olan müstəqil işlər üzrə icraatı bir icraatda birləşdirməyə və ya onları yenidən ayırmağa haqlıdır. Məhkəmə birgə baxılan bir neçə tələb üzrə icraatı ayrı-ayrı müstəqil icraata ayırmağa və hər bir tələbə dair ayrıca qərar qəbul etməyə haqlıdır. Məhkəmə müstəqil işlər üzrə icraatın bir icraatda birləşdirilməsi və ya bir icraatın müstəqil işlər üzrə icraata ayrılması barədə qərardad qəbul edir.

### 4.6. Mübahisələndirmə haqqında iddia

**4.6.1.** Mübahisələndirmə iddiası vasitəsi ilə iddiaçı əlverişsiz, "onu yükləyən" inzibati aktın ləğv olunmasını və ya dəyişdirilməsini məhkəmədən tələb edir. Mübahisələndirmə haqqında iddia mübahisə edilən inzibati aktın icra olunması nəticəsində meydana gəlmiş nəticələrin aradan qaldırılması tələbini özündə əks etdirən əlavə ərizə ilə birlikdə də qaldırıla bilər (faktiki xarakterli digər fəaliyyətə qarşı iddianın birləşdirilməsi).

**4.6.2.** Mübahisələndirmə haqqında iddia inzibati aktın təqdim (elan) olunduğu vaxtdan, şikayət instansiyasına şikayət verildiyi hallarda isə şikayətə dair qəbul olunan inzibati aktın təqdim olunduğu vaxtdan 30 gün müddətində, elmi dərəcələr və elmi adlar verilməsi, xarici ölkələrdə verilmiş elmi dərəcələr və elmi adlar haqqında sənədlərin nostrifikasiyası (ekvivalentliyinin müəyyən edilməsi və tanınması) və ya təkrar attestasiya əsasında

tanınması, elmi dərəcədən və elmi addan məhrumetmə (elmi adın və elmi dərəcənin bərpası) ilə bağlı inzibati aktlara münasibətdə isə bu inzibati aktlar qəbul edildiyi tarixdən 2 ay müddətində qaldırıla bilər.

**4.6.3.** Mübahisələndirmə haqqında iddianın predmeti – inzibati orqan tərəfindən müvafiq qaydada qəbul olunmuş və iddiaçıya münasibətdə əlverişsiz inzibati aktdır. Mübahisələndirmə haqqında iddianın subyektləri – həm inzibati aktın birbaşa ünvanlandığı fiziki və ya hüquqi şəxs, həm də həmin inzibati aktla hüquqlarına və ya maraqlarına toxunulan, inzibati aktda birbaşa göstərilməyən fiziki və ya hüquqi şəxsdir(misal üçün, açıq məkanda reklam qurğusunun yerləşdirilməsi üçün verilmiş icazənin mübahisələndirilməsinə dair iddia həmin qurğu ilə giriş-çıxışı məhdudlaşdırılmış və bununla da maraqlarına toxunulmuş obyekt sahibi tərəfindən də qaldırıla bilər).

**4.6.4.** Aşağıdakı inzibati aktlar mübahisələndirmə haqqında iddianın predmeti ola bilər:

a. barəsində məhkəməyə şikayət verilməmiş inzibati akt. Əgər inzibati akt artıq hər hansı məhkəmədə baxılmış və ya baxılmaqdadırsa, o təkrar mübahisələndirmə haqqında iddianın predmeti ola bilməz;
b. barəsində şikayət verildiyi hallarda, şikayət instansiyasının qərarı ilə dəyişdirilmiş inzibati akt (şikayət instansiyası tərəfindən qərar qəbul edildikdən sonrakı formada ilkin inzibati akt);
c. şikayət instansiyası tərəfindən şikayətə baxma qaydasında qəbul edilmiş və ilk dəfə olaraq üçüncü şəxs üçün öhdəlik yaradan qərar (inzibati akt). Misal üçün, maraqlı şəxs üçüncü şəxsə verilmiş tikintiyə icazədən inzibati qaydada şikayət verdikdə və şikayət instansiyası tərəfindən həmin şikayət təmin edildikdə (tikintiyə icazə dəyişdirildikdə və ya ləğv edildikdə), bu hal ilk dəfə üçüncü şəxs, yəni bu misalda tikintiyə icazə verilmiş şəxs üçün yeni bir öhdəlik yaradan qərar kimi qiymətləndirilməlidir.

**4.6.5.** İlkin inzibati aktla müqayisədə inzibati aktın ünvanlandığı şəxs üçün əlavə öhdəliklər yaratdığı və ya əlavə məhdudiyyətlər nəzərdə tutduğu hallarda da şikayət instansiyası tərəfindən şikayətə baxma qaydasında qəbul edilmiş qərar iddianın yeganə predmeti ola bilər. Prosessual normanın şikayətlə bağlı qərara ciddi təsir göstərəcək şəkildə pozulması da əlavə məhdudiyyət kimi qiymətləndirilməlidir. Burada iddianın predmeti ilkin inzibati akt deyil, şikayət instansiyası tərəfindən qəbul edilmiş qərardır. Həmin qərar ilkin inzibati aktla müqayisədə maraqlı şəxsin vəziyyətini daha da ağırlaşdıra və ya hüquqlarını məhdudlaşdıra bilər.

**4.6.6.** İPM-in mübahisələndirmə haqqında iddia barəsində nəzərdə tutduğu qaydalar digər iddia növlərinə münasibətdə qanunvericilikdə xüsusi qaydalar nəzərdə tutulmadığı hallarda, analoji olaraq tətbiq edilir.

## 4.7. Məcburetmə haqqında iddia

**4.7.1.** Məcburetmə haqqında iddia vasitəsi ilə iddiaçı onun arzuladığı inzibati aktı qəbul etmək vəzifəsinin cavabdehin üzərinə qoyulmasını məhkəmədən tələb edir. Həmin qayda həm iddiaçının arzuladığı inzibati aktın qəbulundan cavabdeh tərəfindən imtina edildiyi hallara, həm də cavabdehin hərəkətsizliyi səbəbindən (hərəkətsizliyə qarşı iddia) inzibati aktın qəbul edilmədiyi hallara şamil olunur.

**4.7.2.** Məcburetmə haqqında iddia tələb olunan inzibati aktın qəbul edilməsindən imtina barədə iddiaçıya müvafiq inzibati aktın təqdim edildiyi və ya bu barədə yazılı məlumatın verildiyi vaxtdan 30 gün müddətində qaldırıla bilər.

**4.7.3.** Mediasiya prosesinin tətbiqi ilə əlaqədar iddia müddətinin axımının dayandırılması "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.

**4.7.4.** İddiaçı öz istəyini ancaq məcburetmə haqqında iddia vasitəsi ilə təmin edə bildikdə, mübahisələndirmə haqqında iddia növünün qaldırılmasına yol verilmir(misal üçün, Məmmədov

Məmməd qeydiyyatdan keçirmək istədiyi QHT-nin qeydiyyata alınmaması ilə bağlı müvafiq icra hakimiyyəti orqanının imtina aktını mübahisələndirir. Bu halda iddiaçının istəyi öz təşkilatının qeydiyyata alınmasına nail olmaqdır. Mübahisələndirmə haqqında iddia onun istəyinə nail olmasını təmin etməyəcəkdir. Bu mənada o birbaşa məcburetmə haqqında iddia qaldırmalıdır.).

**4.7.5.** Məcburetmə haqqında iddianın predmeti – inzibati orqan tərəfindən mövcud vəziyyətdə qəbul edilməsi tələb olunan inzibati aktdır. İddiaçı inzibati orqan tərəfindən həmin aktın qəbul edilməsindən imtinanın və ya bununla bağlı inzibati orqanın hərəkətsizliyinin onun hüquqlarının (maraqlarının) pozulmasına səbəb olduğuna istinadən həmin iddianı qaldıra bilər. Misal üçün, iddiaçı tikintiyə icazənin verilməsindən imtina etmiş inzibati orqanın üzərinə qüvvədə olan qanunvericiliyə uyğun olaraq həmin icazənin verilməsi vəzifəsinin qoyulmasını tələb edə bilər. Digər misal kimi, qanunsuz aparılan tikintinin dayandırılması barədə qərar qəbul etmək səlahiyyətinə malik inzibati orqan tərəfindən həmin qərarın qəbul edilməməsi, yəni inzibati orqanın hərəkətsizliyini göstərmək olar.

### 4.8. İnzibati orqanın hərəkətsizliyindən müdafiə

**4.8.1.** İnzibati aktın qəbul olunmasına dair müraciətlə bağlı və ya şikayət instansiyasına verilmiş şikayətlə bağlı müvafiq inzibati orqan tərəfindən qanunla müəyyən olunmuş müddətdə və kifayət qədər əsaslar olmadan qərar qəbul edilmədiyi hallarda, həmin müraciətin edildiyi və ya şikayətin verildiyi vaxtdan 35 gün keçənədək (qanunvericiliklə daha qısa və ya daha uzun müddətin müəyyən olunduğu hallar istisna olmaqla) məhkəmədə iddia qaldırılmasına yol verilmir.

**4.8.2.** Tələb olunan inzibati aktın, o cümlədən inzibati şikayətə dair qərarın xüsusi səbəblər üzündən qəbul edilmədiyi hallarda, məhkəmə inzibati aktın və ya inzibati şikayətə dair qərarın qəbul edilməsi üçün, qanunvericiliklə digər müddət müəyyən edilməmişdirsə, "İnzibati icraat haqqında" Azərbaycan Respublikası

Qanununun 52.3-cü maddəsində nəzərdə tutulmuş müddəti nəzərə almaqla müəyyən müddət təyin edir. Təyin edilmiş müddət bitənədək iş üzrə icraat məhkəmə tərəfindən dayandırılır.

**4.8.3.** Məhkəmə tərəfindən müəyyən olunmuş müddət ərzində inzibati akt qəbul edildikdə və ya şikayət təmin olunduqda iş üzrə icraata xitam verilir.

**4.8.4.** Təyin edilmiş müddət bitənədək inzibati orqan tərəfindən inzibati akt qəbul edilmədikdə, məhkəmə həmin müddətin bitdiyi vaxtdan 3 (üç) ay ərzində iş üzrə qərar qəbul edir. Məhkəmənin həmin qərarı inzibati aktı əvəz edir. İnzibati aktı qəbul etmək inzibati orqanın diskresion səlahiyyəti olduqda və ya bununla bağlı inzibati orqan qiymətləndirmə azadlığına malik olduqda və ya inzibati icraatda əlavə araşdırmaya ehtiyac olduqda, məhkəmə öz qərarında inzibati orqana inzibati aktla bağlı məhkəmənin hüquqi mövqeyinin nəzərı alınması barədə göstəriş verməkdə haqlıdır.

### 4.9. Öhdəliyin icrası haqqında iddia

**4.9.1.** Öhdəliyin icrası haqqında iddia vasitəsi ilə iddiaçı cavabdehdən inzibati aktın qəbul edilməsi ilə bağlı olmayan (inzibati aktın qəbul edilməsinə yönəlməyən) müəyyən hərəkətlərin edilməsini tələb edə bilər (real aktlar və ya faktiki xarakterli digər hərəkətlər). Öhdəliyin icrası haqqında iddia vasitəsi ilə həmçinin inzibati orqanlar tərəfindən ümumi hüquqi öhdəliklərin pozulması nəticəsində vurulmuş ziyana görə kompensasiyanın ödənilməsi də tələb edilə bilər. Bu iddia növünə münasibətdə iddia müddəti nəzərdə tutulmur.

**4.9.2.** Öhdəliyin icrası haqqında iddianın obyekti (predmeti) – inzibati orqanın öz səlahiyyətləri çərçivəsində birbaşa inzibati aktın qəbul edilməsi ilə bağlı olmayan hər hansı hərəkətin edilməsi (müvafiq sənədlərin və ya məlumatların təqdim edilməsi, müvafiq işlərin yerinə yetirilməsi və ya xidmətlərin göstərilməsi) ilə bağlıdır. Bu iddia vasitəsilə iddiaçı məhkumluq haqqında arayışın verilməsini, reyestr orqanı tərəfindən daşınmaz əmlakın

qeydiyyatının aparılmasını və bu barədə müvafiq çıxarışın verilməsini, hər hansı açıq məlumatın verilməsini və sairə tələb edə bilər. Misal üçün, Məmmədov Məmməd onun qanuni istifadəsində olan əmlaka müvafiq icra hakimiyyəti orqanı (inzibati orqan) tərəfindən aparılmış abadlaşdırma işləri çərçivəsində vurulmuş ziyana görə kompensasiya tələb edə bilər.

### 4.10. Müəyyən hərəkətləri etməkdən çəkinməyə dair iddia

**4.10.1.** Müəyyən hərəkətləri etməkdən çəkinməyə dair iddia vasitəsi ilə iddiaçı cavabdehdən inzibati akt sayılmayan əlverişsiz hərəkətlərin edilməməsini və ya dayandırılmasını tələb edə bilər. Müəyyən hərəkətləri etməkdən çəkinməyə dair iddia öhdəliyin icrası haqqında iddia ilə eyni təbiətlidir. Birinci halda inzibati orqandan inzibati aktın qəbul edilməsi ilə əlaqədar olmayan hərəkətlərdən çəkinmə, ikinci halda isə inzibati aktın qəbul edilməsi ilə bağlı olmayan hərəkətlərin edilməsi tələb olunur.

**4.10.2.** Müəyyən hərəkətləri etməkdən çəkinməyə dair iddianın predmeti – inzibati orqanın birbaşa inzibati aktın qəbul edilməsi ilə bağlı olmayan hər hansı qanunsuz müdaxilələrdən, yəni səlahiyyəti çərçivəsində və ya səlahiyyətdən kənar yoxlama, araşdırma, təftiş, reyd və digər bu kimi tədbirlərdən çəkinməklə və ya onların dayandırılması ilə, yaxud da qanunvericiliklə nəzərdə tutulmuş tələblərdən kənara çıxan əlavə tələblərdən çəkinməklə bağlıdır. Misal üçün, inzibati orqan tərəfindən qanunvericiliyin tələblərini pozmaqla növbədənkənar yoxlamanın aparılmasının dayandırılması.

### 4.11. Preventiv iddia

**4.11.1.** Qəbul edilməsi gözlənilən inzibati akta qarşı qabaqlayıcı (preventiv) iddianın qaldırılmasına yalnız obyektiv səbəblərdən irəli gələn müstəsna hallarda (şəxsin hüquqlarına və qanunla qorunan maraqlarına müdaxilənin qarşısını almağın xüsusilə zəruri olduğu hallarda) yol verilir. Misal üçün, şəhərin ümumi görünüşünə

xələl gətirən kimi müəyyən olunmuş yaşayış evlərinin sökülməsi və onların yerində yeni müasir yaşayış massivlərinin salınması nəzərdə tutulan ərazilərlə bağlı inzibati orqanın gözlənilən inzibati aktına qarşı qabaqlayıcı (preventiv) iddia qaldırıla bilər.

**4.11.2.** İPM-də başqa qayda nəzərdə tutulmadıqda, iddiaçının iddia ərizəsində inzibati aktın qəbul edilməsi və ya qəbul edilməsindən imtina olunması, yaxud inzibati orqanın hərəkəti və ya hərəkətsizliyi nəticəsində onun hüquqlarının və qanunla qorunan maraqlarının pozulduğunu məhkəmə qarşısında bəyan etdiyi hallarda mübahisələndirmə haqqında, məcburetmə haqqında, öhdəliklərin icrası haqqında və müəyyən hərəkətləri etməkdən çəkinməyə dair iddia mümkün sayılır. Mümkünlük iddiaya mahiyyəti üzrə baxmağa imkan verən şərtlərin mövcud olmasını nəzərdə tutur. Ona görə də iddianın mümkünlüyünün yoxlanılması onun əsaslılığının yoxlanılmasından əvvəl aparılan hüquqi dəyərləndirmədir. Nəzərə almaq lazımdır ki, iddianın mümkünlüyünün yoxlanılması mərhələsində iddiaçı tərəfindən onun əsaslandırılması tələb olunmur.

**4.11.3.** Məhkəmə, iddiaçının həmin iddia tələbi üzrə subyektiv hüququnun olub-olmamasını, cavabdehin həmin iddiaya cavab verməli olub-olmamasını, qanunvericilikdə nəzərdə tutulmuş hallarda cavabdehin imtinasının olub-olmamasını və iddia müddətlərinə riayət edib-etmədiyini müəyyən etməlidir. İddianın mümkün sayılmaması barədə məhkəmə qərardad qəbul edir. Bu qərardad məzmun baxımından mübahisə predmetinə toxunmur və yalnız iddiaya mahiyyəti üzrə baxılması üçün şərtlərin mövcud olmadığını müəyyən edir. Həmin qərardaddan yuxarı məhkəməyə şikayət verilə bilər. İddiaçının subyektiv hüququnun olması konsepsiyası həmin iddiaçının qaldırdığı iddia tələbində onun qanunla qorunan maraqlarına qəsd edilməsi ehtimalının mövcudluğunu və onun hüquqi müdafiəsinə həqiqi ehtiyacın olmasını nəzərdə tutur. Belə ki, inzibati məhkəmədə iddianın qaldırılması hüququ yalnız hüquqları pozulmuş və ya pozula bilən şəxslərə aiddir. İnzibati iddia qaldırmaq hüququ həmin hüquqdan istifadə edənlərin

dairəsinin yalnız mübahisəli inzibati aktla hüquqlarına və qanuni maraqlarına toxunulması şübhəsiz və ya mümkün olan şəxslərlə məhdudlaşdırmasına xidmət edir. Beləliklə, iddiaçının inzibati işdə yalnız öz adından çıxış etməsi yolverilləndir və onun tərəfindən digər şəxslərin hüquqlarının müdafiəsi üçün iddia qaldırılması istisna olunur (yetkinlik yaşına çatmayan fiziki şəxslərin adından onların valideynləri və ya övladlığa götürənlər, habelə qəyyumlar və qanunvericiliklə nəzərdə tutulmuş qaydada müvafiq etibarnamə ilə bu səlahiyyət verilmiş şəxslər istisna olmaqla). İddianın mümkün sayılması üçün iddiaçının subyektiv hüququnun pozulması faktı məhkəməyə təqdim edilən iddia ərizəsinin məzmunundan və mahiyyətindən aydın görünməlidir. İddiaçının hüquqi statusu inzibati işin nəticəsində onun fərdi hüquqi maraqlarının mövcud olması ilə müəyyən olunur.

**4.11.4.** Bununla belə iddianın mümkün sayılmamasına dair qərardad mümkünlük şərtlərinə əməl edilməklə yenidən eyni predmet üzrə iddia qaldırmaq imkanını istisna etmir. Bunun əksinə olaraq, mahiyyəti üzrə çıxarılmış qərarın hüquqi qüvvəsi iddiaçıya eyni predmet üzrə yenidən eyni tələblə çıxış etmək imkanı vermir.

**4.11.5.** Mülki və ya cinayət məhkəmə icraatı qaydasında, habelə inzibati xətalara dair işlər üzrə icraat qaydasında baxılmalı olan mübahisələrə dair iddialar mümkün sayılmamalı, iddiaçıya aidiyyəti üzrə səlahiyyətli məhkəməyə (yaxud inzibati xətalara dair işlər üzrə icraat qaydasında işlərə baxmaq səlahiyyəti olan orqana) müraciət etmək hüququ izah olunmalıdır.

**4.11.6.** İddianın mümkünlüyü baxımından hüququn pozulub-pozulmadığının müəyyən olunmasının qiymətləndirilməsi zamanı iddiaçının hüquqi marağı, yəni konkret halda hüquqi müdafiəyə ehtiyacının olub-olmadığı da nəzərə alınmalıdır. İddiaçının hüquqi marağı yalnız o halda mövcuddur ki, onun arzuladığı məqsədə qaldırılmış iddia vasitəsilə çatmaq imkanı mövcud olsun.

**4.11.7.** İddianın mümkünlüyü ilə bağlı qayda kollektiv maraqların müdafiə olunması məqsədi ilə Azərbaycan Respublikasının

qanunvericiliyinə uyğun olaraq yaradılmış qeyri-hökumət təşkilatlarına münasibətdə də tətbiq olunur. Həmin təşkilatlar (ictimai birliklər və ya fondlar) iddia ərizəsində inzibati aktın qəbul edilməsi və ya qəbul edilməsindən imtina olunması, yaxud inzibati orqanın hərəkəti və ya hərəkətsizliyi nəticəsində müdafiə etdikləri həmin maraqların pozulduğunu məhkəməyə bəyan etdikləri hallarda qeyri-hökumət təşkilatları (ictimai birliklər və ya fondlar) tərəfindən mübahisələndirmə haqqında, məcburetmə haqqında, öhdəliklərin icrası haqqında və müəyyən hərəkətləri etməkdən çəkinməyə dair iddiaların qaldırılmasına yol verilir.

### 4.12. Müəyyən etmə və ya tanınma haqqında iddia

**4.12.1.** Müəyyən etmə və ya tanınma haqqında iddia iddiaçının həmin münasibətlərin qısa müddətdə müəyyən edilməsində kifayət qədər maraqlı olduğu hallarda qaldırıla bilər. Hüquq münasibətlərinin müəyyən edilməsində iddiaçının marağı hüquqi, iqtisadi və ya ideya xarakterli ola bilər.

**4.12.2.** Müəyyən etmə və ya tanınma haqqında iddianın predmeti – hər hansı hüquq münasibətinin mövcud olub-olmamasının, yaxud da bu və ya digər səbəbdən əhəmiyyətini itirmiş və ya qüvvədən düşmüş inzibati aktın qanunsuzluğunun, habelə inzibati aktın etibarsızlığının tanınması və ya müəyyən olunması ilə bağlıdır. Bu iddianı qaldırmaqda məqsəd iddiaçının hüquqlarının, iqtisadi və ya mənəvi maraqlarının müdafiəsindən ibarətdir. Misal üçün, inzibati orqan tikintinin sökülməsi barədə inzibati akt qəbul edir. Lakin inzibati akt qəbul edildikdən sonra həmin tikinti uçur və bu baxımdan həmin qərar artıq əhəmiyyətini itirir. Bununla belə, iddiaçı həmin inzibati aktın qanunsuz olduğunu güman edir və onun qanunsuzluğunun tanınmasını istəyir. Başqa bir halda, iddiaçı qəbul edilmiş və "İnzibati icraat haqqında" Qanuna əsasən etibarsız sayılan inzibati aktın qəbul edildiyi andan etibarsızlığının tanınmasını məhkəmədən tələb edir. Həmin misallarda nəzərdə tutulan hallarda da iddianın mümkün sayılması üçün yuxarıda qeyd olunan ümumi mümkünlük şərtlərindən əla-

və həm də iddiaçının xüsusi hüquqi marağı mövcud olmalıdır. Başqa sözlə, iddiaçı gələcəkdə analoji inzibati aktların qəbul olunması təhlükəsindən müdafiə olunmaq (tikinti ilə bağlı misalda), yaxud inzibati aktın etibarsızlığı ilə bağlı halda onun hüquqi nəticəsinin olmadığını təsdiq etmək məqsədini güdməlidir. Yaxud da iddiaçı gələcəkdə həmin orqana qarşı kompensasiya tələb irəli sürmək məqsədi ilə inzibati aktın qanunsuzluğunun tanınmasını tələb edə bilər. Bu iddia növünə münasibətdə müddət nəzərdə tutulmasına baxmayaraq, iddiaçı tanınmanın və ya müəyyənetmənin qısa müddətdə həyata keçirilməsində maraqlı olduğu üçün, həmin iddialar kifayət qədər qısa müddət ərzində qaldırılmalıdır.

**4.12.3.** Hüquq münasibətlərinin müəyyən edilməsinə dair iddia, digər iddia növlərinə münasibətdə subsidiar, yəni əlavə xarakter daşıyır. Yəni hüquq münasibətlərinin müəyyən edilməsinə dair iddia digər iddialar vasitəsi ilə iddiaçı öz istəyinə nail ola bilmədikdə qaldırıla bilər. İddiaçının öz məqsədinə mübahisələndirmə, məcburetmə və ya öhdəliyin icrası haqqında iddia vasitəsi ilə nail olmaq imkanı olduğu hallarda, müəyyən etmə haqqında iddia müstəqil qaydada qaldırıla bilməz. Bununla da, həmin iddia vasitəsilə digər iddia növləri üçün nəzərdə tutulmuş tələblərdən (inzibati şikayət vermək müddəti, iddia müddəti, eyni predmetlə iddia qaldırmamaq şərti və s.) yayınmaq üçün istifadə oluna bilməz.

### 4.13. Qanunauyğunluq haqqında iddia

**4.13.1.** Qanunauyğunluq haqqında iddianın predmeti – Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin müstəsna səlahiyyətinə aid edilmiş normativ xarakterli aktlar istisna olmaqla, inzibati orqan tərəfindən qəbul edilmiş digər normativ xarakterli aktların qanunauyğunluğu və onların etibarsız (qüvvədən düşmüş) hesab edilməsi ilə bağlıdır (Misal üçün, inzibati orqan normativ xarakterli akta istinadən göstərdiyi xidmətlərə görə xidmət haqqı müəyyən edir, maraqlı şəxs həmin xidmət haqqının nəzərdə tu-

tulduğu normativ xarakterli aktın qanunvericiliyin tələblərinə zidd olduğunu güman etdiyi təqdirdə onun qanunauyğunluğunun yoxlanılmasına dair iddia qaldıra bilər.

**4.13.2.** Mübahisənin həlli üçün konstitusion hüquqi yol açıq olduğu halda, inzibati məhkəmə qaydasında qanunauyğunluq haqqında iddia istisna edilir.

### 4.14. Kompensasiya haqqında iddia

**4.14.1.** Kompensasiyanın ödənilməsi haqqında iddianın predmetini inzibati orqan tərəfindən qəbul edilmiş qanunsuz inzibati aktın icrası və ya inzibati orqanın publik (inzibati) hüquq sahəsində hərəkəti (hərəkətsizliyi) nəticəsində iddiaçıya vurulmuş ziyana, yaxud da əmlak tələbinə görə maddi və (və ya) mənəvi kompensasiyanın ödənilməsi tələbi təşkil edir. Kompensasiyanın ödənilməsi haqqında iddia digər iddialarla (mübahisələndirmə haqqında, məcburetmə haqqında, öhdəliklərin icrası haqqında və müəyyən hərəkətləri etməkdən çəkinməyə dair iddia) yanaşı qaldırıla bilər. Misal üçün, inzibati orqanın hərəkəti və ya hərəkətsizliyi nəticəsində maraqlı şəxsə maddi ziyan dəydiyi təqdirdə o, həmin inzibati orqana qarşı maddi kompensasiyanın ödənilməsi barədə iddia qaldıra bilər. Nəzərə almaq lazımdır ki, inzibati orqanın mübahisələndirilən hərəkəti onun inzibati hüquq sahəsində həyata keçirdiyi fəaliyyətlə bağlı olmalı və şəxsə ziyan vurma potensiyalına malik olmalıdır.

### 4.15. Bələdiyyələrin digər inzibati orqanlara və ya bələdiyyələrə qarşı iddialar

**4.15.1.** Bələdiyyələrin inzibati nəzarət orqanlarının hərəkətlərinə qarşı və ya inzibati nəzarət orqanlarının bələdiyyələrə qarşı iddiaların predmetini – bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin həyata keçirilməsi zamanı inzibati orqanın hərəkətləri, yaxud da bələdiyyələrə inzibati orqan tərəfindən səlahiyyətlər çərçivəsində verilmiş tələblərin yerinə yetirilməməsi təşkil edir. Bu münasi-

bətlərdə subyektlər qismində bələdiyyə orqanı və bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən Ədliyyə Nazirliyi və ya Ədliyyə Nazirliyinin müvafiq qurumudur (misal üçün, inzibati nəzarəti həyata keçirən orqan bələdiyyə aktının müvafiq normativ hüquqi aktlara zidd olduğunu aşkar etdikdə, həmin aktın dəyişdirilməsi və ya ləğv edilməsi barədə bələdiyyəyə müraciət edir, lakin inzibati akt müvafiq qaydada dəyişdirilmədikdə və ya ləğv edilmədikdə, inzibati orqan məhkəməyə müraciət edir).

**4.16. Müvəqqəti məhkəmə müdafiəsi**

**4.16.1.** Maraqlı şəxs inzibati aktdan şikayət instansiyasına şikayət etdiyi hallarda, müvəqqəti xarakterli müdafiə barədə vəsatətlə həmin orqana müraciət etməlidir. Şikayət instansiyası 15 (on beş) gün müddətində maraqlı şəxsin vəsatətini təmin etmədikdə, o, bu barədə ərizə ilə qanunla nəzərdə tutulmuş qaydada məhkəməyə müraciət edə bilər.

**4.16.2.** Müvəqqəti xarakterli müdafiə tədbiri barədə ərizə məhkəmədə iddia qaldırılanadək və ya iddia ilə eyni vaxtda, yaxud da məhkəmə icraatının gedişində verilə bilər. Məhkəmə müvəqqəti xarakterli müdafiə tədbiri qismində cavabdehin üzərinə müəyyən hərəkətləri etmək və ya müəyyən hərəkətləri etməkdən çəkinmək, yaxud müəyyən hərəkətlərə dözmək barədə vəzifə qoya bilər.

**4.16.3.** İnzibati aktın mübahisələndirilməsinə dair iddianın qaldırılması həmin inzibati aktın icrasını dayandırmır. İşin faktiki və hüquqi hallarının ilkin araşdırılması nəticəsində iddianın böyük ehtimalla uğurlu olacağı qənaətinə gəldiyi hallarda məhkəmə iddiaçının vəsatəti əsasında inzibati aktın (maliyyə bazarlarına nəzarət orqanının bankın sağlamlaşdırılması, rezolyusiyası çərçivəsində, eləcə də bankın lisenziyasının ləğvi ilə bağlı qəbul etdiyi inzibati akt istisna olmaqla) icrasının dayandırılması barədə qərardad qəbul edə bilər. İddianın uğurluluq ehtimalının aydın olmadığı hallarda, məhkəmə ziddiyyətli maraqların hərtərəfli

qiymətləndirilməsindən sonra qərardad qəbul etməlidir. Məhkəmə, həmçinin inzibati aktın icrasının müəyyən şərtlərlə dayandırılması barədə də qərardad qəbul edə bilər. Məhkəmə inzibati aktın icrasının dayandırılması barədə ərizə ilə bağlı qərar qəbul edilənədək cavabdehin üzərinə inzibati aktın icrasına yönəlmiş hərəkətləri etməkdən çəkinməyə dair öhdəlik qoya bilər.

**4.16.4.** İnzibati aktın icrası, müvəqqəti xarakterli müdafiə barədə müvafiq qərardad qəbul edildiyi hallarda, iddia ilə bağlı işə mahiyyəti üzrə baxılıb qurtaranadək dayandırılır.

**4.16.5.** İnzibati aktın icrasının dayandırılması barədə ərizənin təmin edilməməsi haqqında məhkəmə qərardadından şikayət verilə bilər.

**4.16.6.** Üçüncü şəxs başqa şəxsə ünvanlanmış və həmin şəxs üçün əlverişli olan inzibati akta qarşı iddia qaldırdığı hallarda, məhkəmə üçüncü şəxsin ərizəsi əsasında müvəqqəti xarakterli müdafiə barədə qərardad qəbul edə bilər. İnzibati aktın icrasının dayandırılması haqqında qərardad yuxarıda qeyd olunan qaydada qəbul edilir.

**4.16.7.** Ərizəçinin məhkəməyə yazılı formada, aydın və əsaslandırılmış şəkildə təqdim etdiyi ərizə üzrə aşağıdakı əsaslarla məhkəmə tərəfindən müvəqqəti xarakterli müdafiə barədə qərardad qəbul edilə bilər:

a. mövcud vəziyyətin dəyişəcəyi təqdirdə ərizəçinin (iddiaçının) hüquqlarının qorunmasının (təmin və ya bərpa edilməsinin) mümkün olmayacağı və ya xeyli dərəcədə çətinləşəcəyi səbəbindən ilkin təcili tənzimləmənin zəruri olması (misal üçün, inzibati aktın icrası zamanı iddiaçıya məxsus tikinti obyekti söküləcəyi təqdirdə, onun hüquqlarının qorunmasının mümkün olmayacağı səbəbindən sökülmənin qarşısının alınması);

b. ilkin məhkəmə araşdırması zamanı ərizəçinin maddi-hüquqi tələbinin mövcud olması ehtimalının müəyyən edilməsi.

**4.16.8.** İddia ilə bağlı işə mahiyyəti üzrə baxan məhkəmə, bunun üçün kifayət qədər əsaslar olduğu hallarda istənilən zaman

xidməti vəzifəsinə görə müvəqqəti xarakterli müdafiə barədə qərardadını dəyişdirə və ya ləğv edə bilər.

**4.16.9.** Məhkəmə icraatının hər bir iştirakçısı şəraitin dəyişməsi ilə bağlı müvəqqəti xarakterli müdafiə barədə qərardadın dəyişdirilməsi və ya ləğv edilməsi haqqında vəsatət qaldıra bilər. Xüsusilə təcili hallarda, işə baxan məhkəmə tərkibinə sədrlik edən hakim qərardadın dəyişdirilməsi və ya ləğv edilməsi barədə təkbaşına qərardad qəbul edə bilər. Maraqlı şəxsə bərpa olunmaz ziyanın vurulması təhlükəsinin mövcud olduğu hallarda, sədrlik edən hakim məhkəmə icraatı iştirakçılarının ilkin dinlənilməsindən imtina etməyə haqlıdır. Müvəqqəti xarakterli müdafiə barədə qərardad ən geci inzibati aktın artıq mübahisələndirilə bilmədiyi gün və ya iş üzrə qəbul edilmiş qərarın qanuni qüvvəyə mindiyi gün öz qüvvəsini itirmiş sayılır.

**4.17. Məhkəmə baxışı**

**4.17.1.** Məhkəmə proses iştirakçısından məhkəmə iclasına şəxsən gəlməyi tələb edə bilər. Məhkəmə bu tələbə əməl etməyən proses iştirakçısına 50 manatdan 100 manatadək məbləğdə cərimə olunacağı barədə xəbərdarlıq edir. Üzrsüz səbəbdən gəlmədiyi hallarda, məhkəmə proses iştirakçısını cərimə edə bilər. Proses iştirakçısının şəxsən gəlməsi, gəlmədiyi hallarda cərimə edilməsi və cərimənin məbləğinin müəyyən olunması barədə məhkəmə qərardad qəbul edir. Cərimə barədə xəbərdarlıq və ya cərimə təkrar tətbiq edilə bilər.

**4.17.2.** Proses iştirakçısı qismində hüquqi şəxsin çıxış etdiyi hallarda, cərimə barədə xəbərdarlıq və ya cərimə, qanuna və ya hüquqi şəxsin nizamnaməsinə uyğun olaraq həmin hüquqi şəxsin səlahiyyətli nümayəndəsi olan şəxsə münasibətdə tətbiq edilir.

**4.17.3.** İnzibati orqanın nümayəndəsi üzrsüz səbəbdən məhkəməyə gəlmədiyi hallarda, cərimə barədə xəbərdarlıq və ya cərimə inzibati orqana münasibətdə tətbiq edilir. Məhkəmə, prosesin iştirakçısı olan inzibati orqandan və ya ümumi hüququn subyek-

tindən, mübahisə ilə bağlı işin faktiki və hüquqi vəziyyəti barədə kifayət qədər məlumatlı olan, səlahiyyətləri müvafiq qaydada rəsmiləşdirilmiş müvafiq vəzifəli şəxsin nümayəndə qismində məhkəməyə göndərilməsini tələb edə bilər.

**4.17.4.** Sübutlar məhkəmə tərəfindən şifahi məhkəmə iclasında araşdırılır. Məhkəmə sübutlara yerində baxış keçirə, şahidləri, ekspertləri və proses iştirakçılarını dindirə, zəruri sənədləri tələb edə bilər. Sübutların cəlb olunmasına dair şifahi məhkəmə iclasında qaldırılmış vəsatət yalnız məhkəmənin əsaslandırılmış qərardadı ilə rədd edilə bilər. Zəruri hallarda hakim şifahi məhkəmə baxışı başlayanadək, sübutların araşdırılmasını səlahiyyətli hakim qismində məhkəmə tərkibinin üzvlərindən birinə həvalə edə bilər. Zəruri hallarda məhkəmə, aydınlaşdırılması zəruri olan konkret halları göstərməklə, sübutların araşdırılması və ya toplanılması üçün başqa məhkəməyə müraciət edə bilər.

**4.17.5.** Sübutların araşdırılması zamanı məhkəmə, inzibati orqan tərəfindən həyata keçirilmiş sübutetməni təzələyə və ya tamamlaya bilər.

**4.17.6.** Sübutlar məhkəmə tərəfindən tam və hərtərəfli araşdırıldıqdan sonra qiymətləndirilir. Bu prinsip inzibati prosesdə hakim tərəfindən rəhbər tutulan əsas prinsipdir. Hakim sübutları araşdırarkən tərəflərin ifadələrinə bağlı deyildir. Məhkəmə proses iştirakçılarının izahatları, ərizə və təklifləri ilə, onların təqdim etdikləri sübutlarla və işdə olan digər materiallarla kifayətlənməyərək, mübahisənin düzgün həlli üçün əhəmiyyət kəsb edən bütün faktiki halları araşdırmalıdır. Bu hakimin xidməti vəzifəsidir.

**4.17.7.** Məhkəmənin qanuni qüvvəyə minmiş hökmü, habelə cinayət təqibi üzrə qüvvəyə minmiş digər qərarı inzibati mübahisəyə baxılarkən məhkəmə üçün hadisənin olub-olmaması və şəxsin həmin hadisəyə aidiyyəti hissəsində məcburidir.

**4.17.8.** Proses iştirakçıları sübutların araşdırılmasında iştirak edə bilərlər. Sübutların araşdırılması ilə bağlı məhkəmə iclasının yeri və vaxtı barədə proses iştirakçılarına müvafiq qaydada ən azı 3 (üç) gün əvvəl məlumat verilir.

**4.17.9.** Proses iştirakçıları şahidlərə, ekspertlərə və inzibati orqanların nümayəndələrinə işə aid suallar verə bilərlər. Suala etiraz olunduğu hallarda sualın mümkünlüyü haqqında məsələ hakim və ya işə baxan məhkəmə kollegiyası tərəfindən həll edilir.

**4.17.10.** İnzibati orqanlar məhkəmənin tələb etdiyi sənədləri və ya aktları, habelə zəruri məlumatları təqdim etməyə borcludurlar. Həmin sənədlərin və ya aktların məzmununun açıqlanmasının qanunla qorunan maraqlara ziyan vura biləcəyi hallarda və ya müəyyən fəaliyyətin mahiyyətinə görə, yaxud qanuna əsasən məxfi saxlanılmalı olduğu hallarda məhkəmə həmin sənədlərin və ya aktların, habelə məlumatların qapalı məhkəmə iclasında araşdırılması barədə qərardad qəbul edir.

**4.17.11.** Proses iştirakçıları qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, istənilən vaxt iş üzrə icraat materialları ilə, habelə həmin icraatla bağlı məhkəməyə təqdim olunmuş sənədlərlə tanış ola bilərlər, habelə öz hesablarına iş üzrə icraat materiallarında olan sənədlərin təsdiqlənmiş surətlərinin və (və ya) belə sənədlərdən çıxarışların verilməsi xahişi ilə müvafiq məhkəmənin dəftərxanasına müraciət edə bilərlər. Sənədlərin və ya aktların məzmununun açıqlanmasının qanunla qorunan maraqlara ziyan vura biləcəyi hallarda və ya müəyyən fəaliyyətin mahiyyətinə görə, yaxud qanuna əsasən məxfi saxlanılmalı olduğu hallar istisna olmaqla, hakim öz təşəbbüsü ilə məhkəmə aktlarını həmin aktlarla işləmək üçün müvafiq prosessual nümayəndəyə verə bilər.

**4.17.12.** Məhkəmə proses iştirakçılarını şifahi məhkəmə baxışı ilə bağlı iclasın vaxtı və yeri haqqında xəbərdar etməyə borcludur. Məhkəmə bildirişi şifahi məhkəmə baxışı ilə bağlı iclasın təyin edildiyi tarixə (günə) ən azı 10 (on) gün qalmış proses iştirakçılarına təqdim edilməlidir. Xüsusilə təcili hallarda hakim həmin müddəti azalda bilər.

**4.17.13.** Məhkəmə bildirişində məhkəməyə çağırılan şəxsin şifahi məhkəmə baxışı ilə bağlı iclasa gəlmədiyi halda da onun iştirakı olmadan işə baxılmasının və iş üzrə qərar qəbul edilməsinin mümkünlüyü barədə xəbərdarlıq olmalıdır.

**4.17.14.** Məhkəmə iclası açıq elan olunduqdan və proses iştirakçılarının tərkibi müəyyən edildikdən sonra, hakim mübahisənin mahiyyətini ümumi şəkildə izah (şərh) edir. Mübahisənin mahiyyəti izah olunduqdan sonra, hakim vəsatət vermək, öz tələblərini və ya vəsatətlərini əsaslandırmaq üçün proses iştirakçılarına söz verir.

**4.17.15.** Hakim mübahisə ilə bağlı işin həm faktiki, həm də hüquqi tərəflərini proses iştirakçıları ilə müzakirə etməyə borcludur. Mübahisə ilə bağlı işin müzakirəsi başa çatdıqdan sonra, hakim şifahi məhkəmə baxışını bağlı elan edir. Qərar qəbul edilənədək məhkəmə öz təşəbbüsü ilə şifahi məhkəmə baxışının təzələnməsi barədə qərardad qəbul edə bilər.

**4.17.16.** İnzibati məhkəmə icraatında məhkəmə iclaslarında, habelə məhkəmə iclasından kənar hər bir ayrıca prosessual hərəkət barədə protokol tərtib edilir. Protokolda işə baxmanın və ya ayrıca prosessual hərəkətin bütün mühüm anları əks olunmalıdır. Məhkəmə iclasının protokolunda aşağıdakılar göstərilir:

a. məhkəmə iclasının keçirildiyi il, ay, gün və yer;
b. məhkəmə iclasının başlanma və qurtarma vaxtı;
c. işə baxan məhkəmənin adı, hakim, məhkəmənin tərkibi və məhkəmə iclasının katibi;
d. işin adı;
e. işdə iştirak edən şəxslərin, nümayəndələrin, vəkillərin, şahidlərin, ekspertlərin, mütəxəssislərin, tərcüməçilərin gəlməsi haqqında məlumatlar;
f. işdə iştirak edən şəxslərin anket məlumatları (doğum tarixi, iş və yaşayış yeri);
g. işdə iştirak edən şəxslərə, nümayəndələrə, habelə tərcüməçiyə, ekspertlərə, mütəxəssislərə onların prosessual hüquq və vəzifələrinin bildirilməsinə və ya elan edilməsinə dair məlumatlar;
h. sədrlik edənin sərəncamları və iclas zalından çıxmadan məhkəmə tərəfindən çıxarılmış qərardadlar;
i. işdə iştirak edən şəxslərin, nümayəndələrin və vəkillərin ərizələri, vəsatətləri və izahatları;

j. şahidlərin ifadələri, ekspertlərin öz rəyləri barədə şifahi izahatları, mütəxəssislərin izahları;
k. yazılı sübutların elan edilməsinə dair məlumatlar, maddi sübutların müayinəsinə, səs yazılarının dinlənilməsinə, videoyazılara baxılmasına dair məlumatlar;
l. dövlət orqanlarının və yerli özünüidarə orqanlarının nümayəndələrinin rəyləri;
m. məhkəmə çıxışlarının məzmunu;
n. qətnamənin və qərardadların elan edilməsi və məzmununun izah edilməsi, şikayət vermə qaydasının və müddətlərinin izah edilməsi haqqında məlumatlar;
o. işdə iştirak edən şəxslərə protokolla tanış olmaq və ona dair qeydlər vermək hüquqlarının izah olunmasına dair məlumatlar;
p. protokolun tərtib olunma tarixi.

**4.17.17.** Protokolun tərtib edilməsinə məhkəmə katibi cəlb olunur. Protokolu hakim özü, məhkəmə iclasında sədrlik edən və ya işə baxan məhkəmə tərkibinin digər hakimi tərtib edə bilər. Bu zaman onlar kompüterdən və ya digər köməkçi vasitələrdən istifadə edə bilərlər.

**4.17.18.** Protokol asan oxunan yazılı formada tərtib olunmalıdır. Protokolun tərtib olunmasının tamlığını təmin etmək üçün məhkəmə səsyazma vasitələrindən istifadə edə bilər. İPM ilə nəzərdə tutulmuş hallarda məhkəmənin mülahizəsinə əsasən protokolu tərəflər imzalaya bilər.

**4.17.19.** «Elektron məhkəmə» informasiya sisteminin tətbiq olunduğu məhkəmələrdə məhkəmə iclaslarının fasiləsiz video-audio yazısı aparılır. Məhkəmə iclasında sədrlik edən tərəfləri və işdə iştirak edən digər şəxsləri bu barədə xəbərdar edir. Məhkəmə iclasının video-audio yazısına dair məlumat məhkəmə iclasının protokolunda göstərilir və həmin yazı maddi daşıyıcıda protokola əlavə olunur. İşdə iştirak edən şəxslər məhkəmə iclasının video-audio yazısı ilə tanış olmaq hüququna malikdirlər.

**4.17.20.** İşdə iştirak edən şəxslər və nümayəndələr protokolun hər hansı hissəsinin elan edilməsinə, iş üçün əhəmiyyətli hesab etdikləri hallar barədə məlumatların protokolda qeyd edilməsinə dair vəsatətlər verə bilərlər. Hərəkət və ya mülahizələr mübahisəyə aid olmadıqda məhkəmə onları protokola qeyd etməkdən imtina edə bilər. Bu məsələ ilə əlaqədar məhkəmənin qərarı mübahisələndirilə bilməz və bu protokolda qeyd edilməlidir.

**4.17.21.** Protokol məhkəmə iclası qurtardıqdan sonra 10 (on) gündən gec olmayaraq, ayrıca prosessual hərəkətlər barədə protokol isə həmin hərəkət həyata keçirildikdən sonrakı gündən gec olmayaraq tərtib edilməli və imzalanmalıdır.

**4.17.22.** Protokol hakim tərəfindən tərtib edildiyi halda onun tərəfindən, katib tərəfindən tərtib edildikdə isə hakim və ya işə kollegial baxıldığı halda sədrlik edən və katib tərəfindən imzalanmalıdır. Protokolda dəyişikliklər, əlavələr və düzəlişlər əvvəlcədən razılaşdırılmalı və onların imzaları ilə təsdiq edilməlidir.

**4.17.23.** İşdə iştirak edən şəxslər və nümayəndələr protokolla tanış olmağa haqlıdırlar və onun imzalandığı andan 3 (üç) gün ərzində protokolda yol verilmiş yanlışlıqları və ya natamamlığı göstərməklə protokol barədə yazılı qeydlər təqdim edə bilərlər.

**4.17.24.** Protokola dair qeydlərə onu imzalamış hakim və ya iş üzrə sədrlik edən baxır, qeydlərlə razılaşarsa, onların düzgünlüyünü təsdiq edir, razılaşmadıqda isə onların tamamilə və ya qismən rədd edilməsinə dair əsaslı qərardad çıxarır. Hər bir halda qeydlər işə əlavə edilir. Protokola dair qeydlərə onların verilməsindən 3 (üç) gündən gec olmayaraq baxılmalıdır. Zəruri hallarda protokola dair qeydlər vermiş şəxslər və ya işdə iştirak edən şəxslər və prosesin digər iştirakçıları məhkəmə iclasına çağırılırlar.

**4.17.25.** Mübahisənin predmeti barədə sərəncam hüququna malik olduqları hallarda, tərəflər mübahisənin tam və ya qismən həll edilməsi məqsədilə barışıq sazişi bağlaya bilərlər. Barışıq sazişinin məzmunu məhkəmənin iclas protokoluna qeyd edilməlidir.

**4.17.26.** Barışıq sazişi qanuna zidd olduqda və ya hər hansı bir şəxsin hüquqlarını və qanunla qorunan mənafeyini pozduqda

məhkəmə barışıq sazişini təsdiqləməkdən imtina edir. Mübahisənin həlli xüsusi ictimai maraq kəsb etdiyi hallarda da məhkəmə barışıq sazişini təsdiqləməkdən imtina edə bilər.

**4.17.27.** Məhkəmə, sədrlik edən və ya məruzəçi hakim barışıq sazişinin bağlanması barədə tərəflərə məhkəmə qərardadı formasında təklif verməyə haqlıdır. Bu halda barışıq sazişi tərəflərin məhkəmənin təklifinə yazılı formada razılığı əsasında bağlana bilər. Protokollaşdırılan barışıq sazişinin təsdiq edilməsi barədə məhkəmə qərardad qəbul edir.

**4.17.28.** Mübahisə ilə bağlı məhkəmənin yekun qərarı qəbul edilənədək, cavabdeh (inzibati orqan) iddiaçının tələbinin təmin olunduğu yeni inzibati akt qəbul etməyə və ya qanunda nəzərdə tutulmuş başqa tədbir görməyə haqlıdır. Cavabdeh iddiaçının tələbinin təmin olunması ilə bağlı niyyəti barədə məhkəməyə yazılı məlumat verir. Bu məqsədlə inzibati orqan əvvəl məhkəməyə təqdim olunmuş sənədləri geri tələb edə bilər.

**4.17.29.** Hakim iddiaçının tələbinin təmin olunduğu yeni inzibati aktın qəbul edilməsi və ya qanunda nəzərdə tutulmuş başqa tədbirin görülməsi, habelə bu barədə məhkəməyə müvafiq məlumatın verilməsi üçün cavabdehə müddət təyin edə bilər. Sənədlərin geri qaytarılmasını məqsədəuyğun hesab etmədiyi hallarda, məhkəmə inzibati orqanın bu barədə müraciətini təmin etməyə bilər.

**4.17.30.** Qanuna uyğun olaraq müəyyən edilmiş müddət ərzində cavabdeh tərəfindən iddiaçının tələbinin təmin olunduğu və işin mahiyyəti üzrə mübahisənin artıq mövcud olmadığı hallarda məhkəmə icraata xitam verilməsi barədə qərardad qəbul edir. Müəyyən edilmiş müddət ərzində cavabdeh tərəfindən iddiaçının tələbinin təmin olunması üçün heç bir tədbir görülmədiyi və ya görülmüş yeni tədbirlərin iddiaçının tələbini təmin etmədiyi hallarda mübahisə ilə bağlı məhkəmə icraatı davam etdirilir və işə mahiyyəti üzrə baxılır.

**4.17.31.** Məhkəmə mübahisə ilə bağlı iş üzrə inzibati məhkəmə icraatı nəticəsində onda yaranmış daxili inam əsasında qərar qə-

bul edir. Qərarda məhkəmənin mövqeyi üçün əsas olmuş səbəblər göstərilməlidir.

**4.17.32.** Məhkəmə qərarı yalnız məhkəmə icraatında tədqiq olunmuş və barələrində proses iştirakçılarının öz mülahizələrini bildirmək imkanına malik olduqları faktlar və sübutlarla əsaslandırılmalıdır.

**4.17.33.** Məhkəmə qərarı yalnız mübahisə ilə bağlı iş üzrə məhkəmə icraatında (şifahi məhkəmə baxışında) iştirak etmiş hakimlər (hakim) tərəfindən qəbul edilə və imzalana bilər.

**4.17.34.** Məhkəmə qərarı giriş, təsviri, əsaslandırma və nəticəvi hissələrdən ibarət yazılı formada tərtib edilməlidir:

a. giriş hissəsində qərarın qəbul edildiyi tarix və yer, qərarı qəbul edən məhkəmənin adı, qərarın qəbul edilməsində iştirak edən hakimlərin (hakimin) soyadı, adı, atasının adı, proses iştirakçılarının, onların qanuni və (və ya) prosessual nümayəndələrinin adı, soyadı, atasının adı, ixtisası və vəzifəsi, yaşayış yeri, habelə məhkəmə icraatında onların statusu göstərilməlidir.

b. təsviri hissəsində proses iştirakçılarının mövqeləri nəzərə alınmaqla, mübahisənin predmeti və mübahisə ilə bağlı işin faktiki vəziyyəti (iddiaçının tələbi, cavabdehin etirazları və ya mülahizələri və s.) yığcam şəkildə və mahiyyəti üzrə ifadə olunmalıdır. Bu zaman mübahisənin predmetini və mübahisə ilə bağlı işin faktiki vəziyyətini kifayət qədər əks etdirən müvafiq sənədlərə istinad etmək zəruridir.

c. əsaslandırma hissəsində qərar qəbul edərkən məhkəmənin əsaslandığı faktiki hallar və sübutlar, istinad etdiyi normativ hüquqi aktlar və onların qiymətləndirilməsi göstərilməlidir. Cavabdehin iddianı qəbul etdiyi hallarda, qərarın əsaslandırma hissəsində yalnız iddianın cavabdeh tərəfindən qəbul edildiyi, onun məhkəmə tərəfindən təsdiq olunduğu göstərilə bilər.

d. nəticəvi hissəsində, məhkəmənin gəldiyi nəticə, prosessual xərclər və həmin qərara qarşı hüquqi müdafiə vasitələrindən istifadə qaydası və müddəti göstərilməlidir. Məhkəmə qə-

rarının icra qaydasının və müddətinin müəyyən edildiyi hallarda, qərarın nəticəvi hissəsində bu barədə müvafiq göstəriş nəzərdə tutulmalıdır.

**4.17.35.** Məhkəmə qərarı elan olunduğu vaxtdan ən geci 15 (on beş) gün müddətində tam hazır formada məhkəmənin dəftərxanasına verilməlidir. Məhkəmə dəftərxanasının müvafiq dövlət qulluqçusu məhkəmə qərarında həmin qərarın proses iştirakçılarına təqdim olunduğu tarix, qərar şifahi məhkəmə baxışı ilə bağlı iclasda elan olunduğu hallarda isə onun elan edildiyi tarix barədə qeyd aparmalı və həmin qeydləri öz imzası ilə təsdiq etməlidir.

**4.18. Məhkəmə qərarı**

**4.18.1.** İnzibati aktın qanuna zidd olduğu və bunun nəticəsində iddiaçının hüquqlarını pozduğu hallarda, məhkəmə həmin inzibati aktın (şikayət instansiyasına inzibati şikayət verildiyi hallarda isə, habelə şikayət instansiyasının müvafiq qərarının) ləğv edilməsi barədə qərar qəbul edir. İnzibati akt qəbul edilərkən inzibati icraatın inzibati orqanın qərarına təsir edən şəkildə pozulduğu hallarda da bu qayda tətbiq olunur.

**4.18.2.** İddiaçının pul məbləğinin həcmini müəyyən edən və ya pul məbləğinin təyin edilməsi üçün müəyyən şərtlərin mövcud olduğunu nəzərdə tutan (tanıyan) inzibati aktın dəyişdirilməsini tələb etdiyi hallarda, məhkəmə başqa miqdarda pul məbləği və ya pul məbləğinin ödənilməsi üçün başqa şərtlər müəyyən edə bilər.

**4.18.3.** İnzibati aktın ləğv edilməsi ilə yanaşı, iddiaçının hər hansı öhdəliyin (vəzifənin) yerinə yetirilməsini tələb etməyə haqlı olduğu hallarda, məhkəmə həmin icraat zamanı tələb olunan öhdəliyi (vəzifəni) yerinə yetirməyə məcbur etmə haqqında qərar qəbul edə bilər.

**4.18.4.** İnzibati aktın icrasının dönüşü haqqında məhkəmə qərardadında:

a. inzibati aktın icra olunduğu hallarda, məhkəmə inzibati aktı ləğv etməklə yanaşı, müvafiq ərizə əsasında inzibati orqanın üzərinə icranın nəticələrini aradan qaldırmaq barədə öhdəlik qoya bilər;
b. məhkəmə baxışının davam etdirilməsinə artıq ehtiyac qalmadığı və inzibati orqanın icranın nəticələrinin aradan qaldırılması üsulları ilə bağlı diskresion səlahiyyətlərə malik olmadığı hallarda, məhkəmə icranın nəticələrinin aradan qaldırılması üsulu və qaydası barədə göstəriş (təkliflər) verməyə haqlıdır;
c. inzibati aktın icrasının nəticələrini aradan qaldırmaq mümkün olmadıqda, məhkəmə inzibati orqan tərəfindən kompensasiyanın ödənilməsi barədə qərar qəbul edə bilər.

**4.18.5.** İnzibati aktın etibarsızlığı ilə bağlı hallarda və ya inzibati aktın hər hansı əsasa görə qüvvədən düşdüyü hallarda, məhkəmə iddiaçının hüquqi marağını nəzərə alaraq onun ərizəsinə (vəsatətinə) əsasən həmin aktın müvafiq olaraq etibarsız və ya qanunsuz sayılması barədə qərar qəbul edir.

**4.18.6.** Məcburetmə haqqında iddiaya dair məhkəmə qərarında:
a. inzibati aktın qəbulundan imtina olunmasının və ya cavabdehin hərəkətsizliyi nəticəsində inzibati aktın qəbul edilməməsinin qanuna zidd olduğu və iddiaçının hüquqlarının pozulmasına səbəb olduğu hallarda, məhkəmə, inzibati orqanın üzərinə inzibati aktın qəbul edilməsi barədə öhdəlik qoyur;
b. iddiaçının tələbi əsasında müəyyən konkret qərarın qəbul edilməsi mümkün olmadıqda, məhkəmə inzibati orqanın üzərinə, məhkəmənin hüquqi mövqeyini nəzərə almaqla, iddiaçıya münasibətdə müvafiq inzibati aktın qəbul edilməsi barədə öhdəlik qoyur.

**4.18.7.** Aşağıdakı hallarda məhkəmə, bir qayda olaraq, iddiaçının tələbinə uyğun qərar qəbul edə bilməz:
a. inzibati orqan tərəfindən diskresion səlahiyyət əsasında qərar qəbul edildikdə (misal üçün, lisenziyanın geri çağırılması

(ləğv edilməsi) ilə bağlı inzibati orqan diskresion səlahiyyətlərə malik olduğu hallarda);

b. inzibati aktın qəbulu zamanı inzibati orqanın istinad etdiyi maddi hüquq normasının tətbiqi şərtləri həmin orqanın özünün qiymətləndirməsinə əsasən müəyyən olunduqda və ya hər hansı hüquq normasının tətbiqi ilə bağlı inzibati orqana qiymətləndirmə azadlığı verildikdə (misal üçün, Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən imtahanların nəticələrinin qiymətləndirilməsi zamanı);

c. inzibati aktın qəbul edilməsi üçün araşdırmanın davam etdirilməsi zəruri olduqda və məhkəmə tərəfindən müstəqil şəkildə, məhkəmə baxışı çərçivəsində belə araşdırmanın həyata keçirilməsi mümkün olmadıqda (misal üçün, inşa olunmuş binanın istismarına icazənin verilməsi üçün həmin binanin tikinti və şəhərsalma hüququnun normalarına uyğunluğunun araşdırılması tələb olunduqda).

**4.18.8.** İnzibati orqanın diskresion səlahiyyətlər əsasında hərəkət etdiyi hallarda məhkəmə, həmçinin inzibati aktın və ya inzibati aktın qəbul edilməsindən imtinanın, yaxud inzibati orqanın hərəkətsizliyi səbəbindən inzibati aktın qəbul edilməməsinin diskresion səlahiyyətlərin qanunla müəyyən olunmuş hədlərinə əməl olunması və ya diskresion hüququn həmin səlahiyyətlərin məqsədinə uyğun şəkildə həyata keçirilməsi baxımından qanunsuz olub-olmadığını yoxlayır.

**4.18.9.** Məhkəmə qərarının nəticəvi hissəsi, bir qayda olaraq, şifahi məhkəmə baxışının qurtardığı gün elan edilir. Müstəsna hallarda (mürəkkəb işlər üzrə) məhkəmə qərarının nəticəvi hissəsi, şifahi məhkəmə baxışının qurtardığı gün məhkəmə tərəfindən müəyyən edilən başqa gündə, lakin 10 (on) gündən gec olmayaraq elan edilə bilər. Qərarın elan edilən nəticəvi hissəsi yazılı formada tərtib olunur və işə baxan hakim, işə kollegial qaydada baxıldıqda isə, məhkəmə tərkibinə daxil olan hakimlərdən hər biri tərəfindən imzalanır. Yazılı formada tam məhkəmə qərarı onun nəticəvi hissəsinin elan olunduğu vaxtdan 15 (on beş) gündən gec olmayaraq tərtib olunaraq məhkəmənin dəftərxanasına verilməlidir.

**4.18.10.** Məhkəmə qərarı proses iştirakçılarına şəxsən və ya digər üsullarla təqdim edilir. Təqdimetmənin təsdiqi barədə müvafiq qeydlər və ya sənədlər iş üzrə materiallara əlavə olunmalıdır.

**4.18.11.** Məhkəmə qərarının tam formada təqdim olunduğu gündən 30 (otuz) gün, məhkəmə qərardadının isə elan olunduğu gündən 10 (on) gün müddətində inzibati məhkəmə vasitəsilə şikayətin verilmədiyi və ya proses iştirakçıları tərəfindən şikayətin geri götürüldüyü hallarda məhkəmə qərarı onun təqdim olunduğu gündən 30 (otuz) gün keçdikdən sonra qanuni qüvvəyə minir. Tərəflərin şikayətin geri götürülməsi haqqında bəyanatı yazılı şəkildə məhkəməyə təqdim olunmalıdır.

**4.18.12.** Məhkəmə, məhkəmə qərarının mətnində olan aşkar yazı və hesab səhvlərini və ya digər aşkar yanlışlıqları düzəltməyə borcludur. Məhkəmə qərarının mətninə düzəlişlər barədə məhkəmə qərardad qəbul edir. Qərardad şifahi məhkəmə baxışı keçirilmədən də qəbul edilə bilər. Məhkəmə qərarında və həmin qərarın surətlərində düzəlişlər barədə müvafiq qeyd aparılmalıdır.

**4.18.13.** Qanunda nəzərdə tutulmuş hallar istisna edilməklə, məhkəmə qərarının təsviri hissəsində başqa yanlışlıqlar və aydın olmayan məqamlar olduqda, məhkəmə qərarının təqdim olunduğu gündən 2 (iki) həftə ərzində proses iştirakçıları tərəfindən zəruri düzəlişlərin edilməsi barədə ərizə verilə bilər. Məhkəmə, sübutları araşdırmadan düzəlişlər barədə ərizəyə dair qərardad qəbul edir. Həmin qərardaddan şikayət verilə bilməz. Qərardad yalnız məhkəmə qərarının qəbul edilməsində iştirak etmiş hakimlər (hakim) tərəfindən qəbul edilir. Hakimlərdən birinin səsvermədə iştirak etmək imkanından məhrum olduğu hallarda, səslərin bərabər olduğu təqdirdə hakimin səsi həlledici sayılır. Məhkəmə qərarında və həmin qərarın surətlərində düzəlişlər barədə müvafiq qeyd aparılmalıdır.

**4.18.14.** Mübahisə predmeti barədə qanuni qüvvəyə minmiş məhkəmə qərarı proses iştirakçıları və onların hüquqi varisləri üçün məcburidir.

**4.18.15.** Məhkəmə qərarı qanuni qüvvəyə mindikdən sonra icra olunur. Məhkəmə qərarının borclu tərəfindən könüllü şəkildə icra olunmadığı hallarda, həmin qərarın icrası İPM-nin müvafiq fəslində və "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada həyata keçirilir.

**4.18.16.** İPM-ə əsasən barəsində məhkəmə qaydasında şikayət verilə bilən, habelə hüquqi müdafiə vasitələrindən istifadə qaydalarını və müddətini müəyyən edən məhkəmə qərardadları mütləq əsaslandırılmalıdır.

**4.18.17.** İnzibati aktın icrasının dayandırılması haqqında və digər müvəqqəti xarakterli müdafiə ilə bağlı məhkəmə qərardadları, habelə maraqlı şəxslər tərəfindən hüquqi mübahisənin mahiyyəti üzrə nizama salınmasından sonra qəbul edilən qərardadlar hər bir halda əsaslandırılmalıdır.

**4.19. Məhkəmə qərarının mübahisələndirilməsi. Apellyasiya**

**4.19.1.** İnzibati məhkəmələr tərəfindən qəbul olunmuş qərarlardan və ya qərardadlardan, İnzibati Prosessual Məcəllədə nəzərdə tutulmuş hallar istisna olmaqla, şikayət verilə bilər.

**4.19.2.** Yalnız inzibati məhkəmə icraatının iştirakçıları, yəni tərəflər və məhkəmə icraatına cəlb olunmuş üçüncü şəxslər və yalnız onların tələblərinin təmin olunmadığı hallarda apelyasiya şikayəti vermək hüququna malikdirlər.

**4.19.3.** Apelyasiya şikayəti məhkəmə qərarının tam formada təqdim olunduğu gündən 30 (otuz) gün, məhkəmə qərardadının isə elan olunduğu gündən 10 (on) gün müddətində inzibati məhkəmə vasitəsilə verilir.

**4.19.4.** Şikayətdə mübahisə edilən məhkəmə qərarı (qərardadı) barədə məlumatlar göstərilməli və şikayət əsaslandırılmalıdır. Məhkəmə qərarından (qərardadından) verilmiş şikayət əsaslandırılmadığı hallarda, həmin şikayətin təqdim edildiyi gündən 30 (otuz) gün ərzində həmin şikayətin əsaslandırma hissəsi birbaşa apellyasiya instansiyası məhkəməsinə verilməlidir. Şikayətin

əsaslandırma hissəsində şikayəti verən şəxsin tələbi, habelə şikayət üçün əsas olan faktlar və sübutlar göstərilməlidir.

**4.19.5.** Şikayətə apellyasiya qaydasında apellyasiya instansiyası məhkəmələrinin inzibati kollegiyaları tərəfindən baxılır.

**4.19.6.** Apellyasiya instansiyası məhkəməsində şikayət üzrə icraatda, İPM-in X-cu fəslində başqa qaydanın müəyyən edilmədiyi hallarda, birinci instansiya məhkəməsində icraatla bağlı müvafiq prosessual qaydalar və MPM-nin apellyasiya instansiyası məhkəməsində icraatla bağlı müvafiq müddəaları tətbiq olunur.

**4.19.7.** Apellyasiya instansiyası məhkəməsi mübahisə ilə bağlı işə şikayət həddində və hüquqi məsələlər, habelə sübutlar və faktlar (faktiki hallar) əsasında mahiyyəti üzrə tam həcmdə baxır. Apellyasiya instansiyası məhkəməsi həmçinin işin hallarının araşdırılması prinsipinə (İPM-in 12-ci maddəsi) əsasən yeni təqdim olunmuş sübutları (sübutetmə vasitələrini) və faktları (faktiki halları) da nəzərə alır. Apellyasiya şikayətinin həddi birinci instansiya məhkəməsinin qərarından verilmiş şikayətin mahiyyətinə və məzmununa bağlıdır və məhkəmə həmin həddən kənara çıxmağa haqlı deyildir. Əgər apellyasiya şikayəti birinci instansiya məhkəməsinin qərarının yalnız bir hissəsindən verilibsə, apellyasiya instansiyası məhkəməsi işə yalnız həmin hissə ilə bağlı mahiyyəti üzrə baxır.

**4.19.8.** Apellyasiya instansiyası məhkəməsi iddianın mümkün sayılmamasına dair qərardadlardan verilən şikayətlərə baxarkən qəbul edilmiş məhkəmə aktının qanuniliyini və əsaslılığını, həm də məhkəmənin yardım etmək vəzifəsinə uyğun davranılması nöqteyi-nəzərindən qiymətləndirməlidir.

**4.19.9.** Şikayət inzibati məhkəmələr tərəfindən qəbul olunmuş qərarlardan və müstəqil mübahisələndirilməsi nəzərdə tutulan digər qərardadlardan verilə bilər. Məhkəmə qərarının yalnız əsaslandırma hissəsi və məhkəmə xərcləri ilə bağlı şikayətə yol verilmir.

**4.19.10.** Aşağıdakı məsələlərə dair məhkəmə qərardadlarından (sərəncamlarından) müstəqil qaydada şikayət verilə bilməz:

a. məhkəmə prosesinin aparılması qaydalarına dair;
b. məhkəmə iclasının vaxtının dəyişdirilməsi, təxirə salınması və ya məhkəmə iclasının vaxtı ilə bağlı müəyyən müddətin təyin olunmasına dair;
c. sübutlar haqqında və ya sübutların cəlb olunması barədə vəsatətlərin rədd edilməsinə dair;
d. müstəqil işlər və ya hüquqi tələblər üzrə icraatın bir icraatda birləşdirilməsi və ya bir icraatın müstəqil işlər üzrə icraata ayrılmasına dair;
e. hakimlərə, məhkəmə tərkiblərinə etirazlarla bağlı;
f. məhkəmə aktının kütləvi informasiya vasitələrində dərc olunma yolu ilə elan edilməsinə dair;
g. buraxılmış prosessual müddətin bərpa edilməsinə dair;
h. üçüncü şəxslərin inzibati məhkəmə icraatına cəlb edilməsinə dair;
i. iddianın dəyişdirilməsinin qəbul edilməsi və ya onun qəbulundan imtina edilməsinə dair;
j. iddiadan imtina edilməsinə dair (iddianın məhkəmə tərəfindən geri götürülmüş hesab edilməsinə dair);
k. ərizə əsasında məhkəmə qərarının mətnində düzəliş edilməsinə dair.

**4.19.11.** Müstəqil qaydada mübahisələndirilməsinə yol verilməyən qərardadlardan məhkəmənin yekun qərarı ilə birlikdə şikayət verilə bilər. Yəni yekun qərardan şikayət verilən zaman göstərilən məsələlərə də prosessual pozuntu kimi toxunula bilər.

**4.19.12.** Şikayətçi və birinci instansiya məhkəməsində icraatın iştirakçıları olmuş digər şəxslər şikayət üzrə məhkəmə icraatının iştirakçıları sayılırlar. Eyni zamanda, apellyasiya instansiyası məhkəməsi iş birinci instansiyada baxılan zaman icraata cəlb edilməli olan, lakin hər hansı səbəbdən cəlb olunmamış şəxsləri də məhkəmə baxışına cəlb edə bilər.

**4.19.13.** Şikayət daxil olduqdan sonra inzibati məhkəmə apellyasiya şikayəti verən şəxs tərəfindən şikayətlə bağlı aşağıdakı formal tələblərə əməl olunmasını yoxlayır:

a. şikayətin səlahiyyətli şəxs (birbaşa şikayətçi özü və ya onun qanuni (müvafiq orderi olan vəkili)) tərəfindən imzalanmasını;
b. apellyasiya şikayəti verən şəxsin adının, soyadının, atasının adının və ünvanının (hüquqi şəxsin (inzibati orqanın) adının və ünvanının) göstərilməsini;
c. barəsində şikayət verilən məhkəmə qərarı və ya qərardadının tarixi və nömrəsi barədə məlumatların göstərilməsini;
d. şikayətin verildiyi apellyasiya instansiyası məhkəməsinin göstərilməsini;
f. şikayətə əlavə edilən sənədlərin siyahısının olmasını.

**4.19.14.** Şikayətlə bağlı formal xətaların aradan qaldırılmasında məhkəmə apellyasiya şikayəti verən şəxsə yardım etməlidir.

**4.19.15.** İnzibati məhkəmə şikayətin daxil olduğu vaxtdan 5 (beş) gün müddətində həmin şikayəti mübahisə ilə bağlı işin materialları ilə birlikdə müvafiq apellyasiya instansiyası məhkəməsinə göndərir.

**4.19.16.** Apellyasiya instansiyası məhkəməsinə göndərilənədək şikayətin geri götürüldüyü hallarda birinci instansiya məhkəməsi şikayətlə bağlı icraata xitam verilməsi barədə qərardad qəbul edir.

**4.19.17.** Apellyasiya instansiyası məhkəməsi daxıl olmuş şikayətin surətini digər proses iştirakçılarına göndərir, proses iştirakçılarına şikayətin mahiyyəti ilə bağlı öz mülahizələrini bildirmək üçün imkan yaradır, qərarın qəbul edilməsi üçün zəruri olan digər müvafiq tədbirləri görür.

**4.19.18.** Apellyasiya instansiyası məhkəməsi apellyasiyanın mümkünlüyünün əsaslarını yoxlayır. Apellyasiya mümkün sayılmadıqda apellyasiya instansiyası məhkəməsi şikayəti qəbul etməkdən imtina edir. Apellyasiyanın mümkünlüyü ilə bağlı məhkəmə qərardad çıxarır. Apellyasiyanın mümkün sayılmaması barədə qərardad qəbul edilməmişdən əvvəl proses iştirakçılarının dinlənilmə hüququ təmin edilməlidir.

**4.19.19.** Şikayətlə bağlı qərar apellyasiya instansiyası məhkəməsi tərəfindən şifahi məhkəmə baxışı qaydasında qəbul edilir.

**4.19.20.** Apellyasiya instansiyası məhkəməsi birinci instansiya məhkəməsinin qərarını dəyişdirmədən qüvvədə saxlaya bilər, dəyişdirə bilər və ya tam və ya qismən ləğv edərək . yeni qərar qəbul edə bilər. Birinci instansiya məhkəməsinin qərarı apellyasiya tələbi həddində dəyişdirilə bilər.

**4.19.21.** Apellyasiya instansiyası məhkəməsi, bir qayda olaraq, mübahisə ilə bağlı işə mahiyyəti üzrə baxaraq həll edir. Məhkəmə icraatının davam etdirilməsinin zəruri olduğu aşağıdakı müstəsna hallarda apellyasiya instansiyası məhkəməsi, barəsində şikayət verilmiş məhkəmə qərarını ləğv edərək işi müvafiq inzibati məhkəməyə göndərə bilər:

a. inzibati məhkəmədə icraat zamanı yol verilmiş ciddi prosessual pozuntular səbəbindən əhəmiyyətli sayda və ya geniş həcmdə sübutların araşdırılması tələb olunduqda Bu müddəanın tətbiq edilməsi üçün iki halın eyni vaxtda mövcud olması vacibdir: 1) ciddi prosessual pozuntulara yol verilməsi və 2) ciddi prosessual pozuntulara yol verilməsi səbəbindən əhəmiyyətli sayda və ya geniş həcmdə sübutların araşdırılmaması. (Misal üçün, prosessual pozuntuya yol verilmədən hər hansı sübutun, məsələn həmin sübutun mövcud olması barədə hər hansı məlumat olmadığına görə, araşdırılmaması, həmin müddəanın tətbiqinə yol vermir. Digər misal kimi, prosessual pozuntu faktının olması təsdiq edilsə də, onun nəticəsində yalnız, məsələn bir şahidin işə cəlb edilməsi tələb olunursa, həmin şahidin apellyasiya instansiyası məhkəməsində icraata cəlb olunması yekun qərarın çıxarılması üçün kifayət etdikdə də həmin müddəa tətbiq olunmayacaq);

b. inzibati məhkəmə tərəfindən mahiyyəti üzrə qərar qəbul edilmədikdə (misal üçün, iddia mümkün sayılmadığına görə birinci instansiyası məhkəməsi həmin işə mahiyyəti üzrə baxmadıqda).

**4.19.22.** Apellyasiya instansiyası məhkəməsi qərarını əsaslandırmağa borcludur. Apellyasiya instansiyası məhkəməsi birinci

instansiya məhkəməsinin qərarını dəyişdirmədən qüvvədə saxladıqda, həmin qərardakı əsaslara istinad edə bilər. Lakin hər bir halda apellyasiya instansiyası məhkəməsinin qərarında apellyasiya şikayətinin dəlillərinə münasibət bildirilməlidir.

**4.19.23.** Apellyasiya instansiyası məhkəməsinin şikayətlə bağlı hüquqi mövqeyi birinci instansiya məhkəmələri üçün məcburidir.

**4.19.24.** Məcburetmə haqqında iddia üzrə şikayət təmin edildiyi hallarda apellyasiya instansiyası məhkəməsinin qərarında, inzibati orqanın həmin qərar əsasında qəbul etdiyi inzibati akta qarşı şikayətin birbaşa həmin apellyasiya instansiyası məhkəməsinə verilməsi (hüquqi müdafiə vasitələrindən istifadə qaydası və müddəti) göstərilməlidir.

**4.19.25.** Şikayət apellyasiya instansiyası məhkəməsinin qərarı qanuni qüvvəyə minənədək geri götürülə bilər. Şifahi məhkəmə baxışı başa çatdıqdan sonra şikayətin geri götürülməsinə cavabdehin razılığı ilə yol verilir. Şikayətin geri götürülməsi eyni predmet barəsində və eyni əsaslar üzrə yenidən şikayət vermə imkanını istisna edir. Şikayətin geri götürüldüyü hallarda məhkəmə xərcləri haqqında məhkəmə tərəfindən qərardad çıxarılır.

**4.19.26.** Qanunda göstərildiyi müddətlər ərzində kassasiya şikayəti verilmədiyi və ya proses iştirakçıları tərəfindən şikayət geri götürüldüyü hallarda, məhkəmə qərarı onun təqdim olunduğu gündən 30 (otuz) gün, məhkəmə qərardadı isə 10 (on) gün keçdikdən sonra qanuni qüvvəyə minir. Şikayətin geri götürülməsi haqqında bəyanat yazılı şəkildə məhkəməyə təqdim olunmalıdır.

### 4.20. Kassasiya

**4.20.1.** Apellyasiya instansiyası məhkəməsinin qərar və ya qərardadlarından, İnzibati Prosessual Məcəllədə nəzərdə tutulmuş hallar istisna olmaqla, Ali Məhkəmənin İnzibati kollegiyasına (bundan sonra – Ali Məhkəməyə) şikayət verilə bilər.

**4.20.2.** Apellyasiya instansiyası məhkəməsində mübahisə ilə bağlı iş üzrə inzibati məhkəmə icraatının iştirakçıları yalnız on-

ların tələblərinin təmin olunmadığı hallarda kassasiya şikayəti vermək hüququna malikdirlər.

**4.20.3.** Kassasiya şikayəti məhkəmə qərarının tam formada təqdim olunduğu gündən 1 (bir) ay, məhkəmə qərardadının təqdim olunduğu gündən, habelə maliyyə bazarlarına nəzarət orqanının qəbul etdiyi inzibati aktlar üzrə və maliyyə bazarlarına nəzarət orqanının ərizəsi ilə bağlı məhkəmə qərarından həmin qərarın tam formada təqdim olunduğu gündən 10 (on) gün müddətində müvafiq apellyasiya instansiyası məhkəməsi vasitəsi ilə verilir. Şikayətdə mübahisə edilən məhkəmə qərarı və ya qərardadı barədə məlumatlar göstərilməli və şikayət əsaslandırılmalıdır.

**4.20.4.** Məhkəmə qərarından verilmiş şikayət əsaslandırılmadığı hallarda, həmin şikayətin verildiyi gündən 1 (bir) ay ərzində həmin şikayətin əsaslandırma hissəsi birbaşa Ali Məhkəməyə təqdim edilməlidir. Şikayətin əsaslandırma hissəsində şikayəti verən şəxsin tələbi göstərilməlidir.

**4.20.5.** İPM-də başqa qaydanın müəyyən edilmədiyi hallarda, kassasiya instansiyası məhkəməsində şikayət üzrə məhkəmə icraatında birinci instansiya məhkəməsində icraatla bağlı müəyyən olunmuş müvafiq prosessual qaydalar və MPM-nin kassasiya instansiyası məhkəməsində icraatla bağlı müvafiq müddəaları tətbiq olunur.

**4.20.6.** Ali Məhkəmə mübahisə ilə bağlı işə şikayət həddində baxır və yalnız apellyasiya instansiyası məhkəməsi tərəfindən maddi və prosessual hüquq normalarının düzgün tətbiq edilməsini yoxlayır. Kassasiya şikayətinin həddi – apellyasiya instansiya məhkəməsinin qərarından verilmiş kassasiya şikayətinin mahiyyətinə və məzmununa bağlıdır. Məhkəmə işə şikayət həddində və hüquqi məsələlər üzrə baxır. Aşağıdakı hallarda məhkəmə qərarı (qərardadı) kassasiya qaydasında mütləq ləğv olunmalıdır:

a. mübahisə ilə bağlı işə, həmin işə baxmaq hüququ olmayan məhkəmə tərəfindən baxıldıqda, yəni işə baxan məhkəmə tərəfindən aidiyyət məsələləri pozulduqda;

b. qərarın qəbul edilməsində qanuna əsasən vəzifəsindən kənarlaşdırılmış və ya qərəzsizliyinə şübhə olduğuna görə etiraz olunmuş hakim iştirak etdikdə;
c. İPM-də nəzərdə tutulmuş hallar istisna olmaqla, proses iştirakçısının dinlənilmə hüququnun təmin edilməsindən, imtina olunduqda;
d. proses iştirakçısının aşkar və ya susmaqda ifadə olunan razılığı ilə məhkəmə icraatının aparıldığı hallar istisna olmaqla, proses iştirakçısı icraatda qanunun müddəalarına uyğun şəkildə təmsil olunmadıqda;
e. qərar aşkarlıq prinsipinin pozulduğu şifahi məhkəmə baxışı əsasında qəbul edildikdə;
f. İPM-yə uyğun olaraq əsaslandırılması zəruri olan qərar əsaslandırılmadıqda.

**4.20.7.** Kassasiya şikayəti verən şəxs və apellyasiya instansiyası məhkəməsində inzibati məhkəmə icraatının iştirakçıları olmuş digər şəxslər həmin şikayət üzrə məhkəmə icraatının iştirakçıları sayılırlar.

**4.20.8.** Kassasiya şikayəti daxil olduqdan sonra, apellyasiya instansiyası məhkəməsi kassasiya şikayəti vermiş şəxs tərəfindən şikayətlə bağlı aşağıdakı formal tələblərə əməl olunmasını yoxlayır:

a. apellyasiya şikayəti verən şəxsin adının, soyadının, atasının adının və ünvanının (hüquqi şəxsin (inzibati orqanın) adının və ünvanının) göstərilməsini;
b. barəsində şikayət verilən məhkəmə qərarı və ya qərardadının tarixi və nömrəsi barədə məlumatların göstərilməsini;
c. şikayətin verildiyi apellyasiya instansiyası məhkəməsinin göstərilməsini;
e. şikayətə əlavə edilən sənədlərin siyahısının olmasını.

**4.20.9.** Qanunda göstərilən tələblərə əməl olunmaması ilə bağlı formal xətaların aradan qaldırılmasında məhkəmə kassasiya şikayəti verən şəxsə yardım etməlidir.

**4.20.10.** Apellyasiya instansiyası məhkəməsi şikayətin daxil olduğu vaxtdan 5 (beş) gün ərzində həmin şikayəti, mübahisə ilə bağlı işin materialları ilə birlikdə Ali Məhkəməyə göndərir.

**4.20.11.** Ali Məhkəməyə göndərilənədək şikayətin geri götürüldüyü hallarda, apellyasiya instansiyası məhkəməsi şikayətlə bağlı icraata xitam verilməsi barədə qərardad qəbul edir.

**4.20.12.** Ali Məhkəmə daxil olmuş şikayətin surətini digər proses iştirakçılarına göndərir, proses iştirakçılarına şikayətin mahiyyəti ilə bağlı öz mülahizələrini bildirmək üçün imkan yaradır.

**4.20.13.** Ali Məhkəmə kassasiyanın mümkünlüyünün əsaslarını yoxlayır. Kassasiya mümkün sayılmadıqda Ali Məhkəmə şikayəti qəbul etməkdən imtina edir və bu barədə əsaslandırılmış qərardad qəbul edir. Kassasiyanın mümkün sayılmaması barədə qərardad qəbul edilməmişdən əvvəl proses iştirakçılarının dinlənilmə hüququ təmin olunmalıdır. Şikayətin qəbulundan imtina edildiyi hallarda, apellyasiya instansiyası məhkəməsinin qərarı və ya qərardadı qanuni qüvvəyə minir. Kassasiya mümkün sayıldıqda, Ali Məhkəmədə işə yazılı icraat qaydasında baxılır. Məhkəmə hüququn inkişafının və ya məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi üçün əhəmiyyətli hesab etdikdə, işə məhkəmə iclasında baxılması barədə qərardad qəbul edir. Bu barədə proses iştirakçılarına məlumat verilir.

**4.20.14.** Şikayətin əsaslı olduğu hallarda Ali Məhkəmə, bir qayda olaraq, mübahisə ilə bağlı işə dair özü qərar qəbul edir. Mübahisə ilə bağlı iş üzrə araşdırmanın davam etdirilməsinin zəruri olduğu aşağıdakı hallarda, Ali Məhkəmə mübahisə edilən qərarı ləğv etməyə və işi təkrar baxılması üçün müvafiq apellyasiya instansiyası məhkəməsinə göndərməyə haqlıdır:

a. apellyasiya instansiyası məhkəməsində icraat zamanı yol verilmiş ciddi prosessual pozuntular səbəbindən əhəmiyyətli sayda və ya geniş həcmdə sübutların araşdırılması tələb olunduqda;

b. apellyasiya instansiyası məhkəməsi mahiyyəti üzrə qərar qəbul etmədikdə (məsələn apelyasiya məhkəməsi tərəfindən iddia mümkün sayılmadığı hallarda.

**4.20.15.** Məhkəmə qərardadlarına (məhkəmənin qərardad formasında olan yekun qərarı istisna olmaqla) qarşı verilmiş şikayətlərə yuxarıda göstərilən qayda şamil olunmur.

**4.20.16.** Mübahisə edilən məhkəmə qərarının əsaslandırma hissəsində qüvvədə olan hüquq normalarının məhkəmənin gəldiyi nəticəyə təsir etməyən şəkildə pozulması hallarının olmasına baxmayaraq, qərar digər əsaslar üzrə düzgündürsə, Ali Məhkəmə şikayəti təmin etmir. Şikayət əsassızdırsa, Ali Məhkəmə şikayətin təmin edilməməsi barədə qərar qəbul edir.

**4.20.17.** Ali Məhkəmə apellyasiya instansiyası məhkəməsinin qərarını (qərardadını) dəyişdirmədən qüvvədə saxlaya bilər, dəyişdirə bilər və ya tam və ya qismən ləğv edərək .yeni qərar qəbul edə bilər. Apellyasiya instansiyası məhkəməsinin qərarı, həmin qərara qarşı verilmiş şikayətlə tələb edilən həddə (həcmdə) dəyişdirilə bilər. Ali Məhkəmə bütün hallarda qərarını əsaslandırmağa borcludur.

**4.20.18.** Mübahisə edilən qərarla bağlı Ali Məhkəmənin hüquqi mövqeyi apellyasiya instansiyası məhkəmələri üçün məcburidir.

**4.20.19.** Kassasiya şikayəti verən şəxs Ali Məhkəmənin qərarı qanuni qüvvəyə minənədək şikayətini geri götürə bilər. Şifahi məhkəmə baxışı başa çatdıqdan sonra şikayətin geri götürülməsinə cavabdehin razılığı ilə yol verilir. Şikayətin geri götürülməsi eyni predmet barəsində və eyni əsaslar üzrə yenidən şikayət vermə imkanını istisna edir. Şikayətin geri götürüldüyü hallarda, prosessual xərclər haqqında Ali Məhkəmə tərəfindən qərardad qəbul edilir.

**4.20.20.** Ali Məhkəmənin inzibati mübahisələrə dair iş üzrə qərarı qətidir.

**4.20.21.** Ali Məhkəmənin məhkəmə tərkibi işə kassasiya qaydasında baxarkən Ali Məhkəmənin digər məhkəmə tərkibinin əvvəllər qəbul etdiyi qərarda müəyyən edilmiş hüquqi mövqedən

fərqli yanaşmanın tətbiq edilməsini zəruri hesab etdikdə və ya Ali Məhkəmənin məhkəmə tərkibi apellyasiya instansiya məhkəməsinin Ali Məhkəmənin Plenumunun məhkəmə təcrübəsinə dair məsələlər üzrə izahlarına zidd olan qərarında fərqli yanaşmanın tətbiqi zərurətinin əsaslandırılması ilə razılaşdıqda, həmin mübahisəli hüquqi məsələyə hüququn tətbiqi üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məqsədilə Ali Məhkəmənin inzibati kollegiyasına daxil olan bütün hakimlərdən ibarət tərkibdə baxılır.

**4.20.22.** Ali Məhkəmənin inzibati kollegiyasına daxil olan bütün hakimlərdən ibarət tərkibdə iclası Ali Məhkəmənin işə baxan məhkəmə tərkibinin əsaslandırılmış təqdimatı əsasında Ali Məhkəmənin sədri tərəfindən təyin edilir. Mübahisəli hüquqi məsələyə Ali Məhkəmənin inzibati kollegiyasına daxil olan bütün hakimlərdən ibarət tərkibdə baxılarkən iclasa Ali Məhkəmənin müvafiq kollegiyasının sədri sədrlik edir. Ali Məhkəmənin inzibati kollegiyasının iclası həmin kollegiyanın hakimlərinin azı üçdə ikisi iştirak etdikdə səlahiyyətlidir. Səslər bərabər olduğu hallarda sədrlik edənin səsi həlledici sayılır.

**4.20.23.** Ali Məhkəmənin inzibati kollegiyası bütün hakimlərdən ibarət tərkibdə mübahisəli hüquqi məsələyə baxaraq ona dair hüquqi mövqeyini qəbul etdiyi qərardadda təsbit edir.

**4.20.24.** Ali Məhkəmənin işə baxan məhkəmə tərkibi, habelə eyni xarakterli məsələlərə baxarkən bütün digər məhkəmə tərkibləri mübahisəli hüquqi məsələyə dair Ali Məhkəmənin inzibati kollegiyasının bütün hakimlərindən ibarət tərkibi tərəfindən qəbul edilmiş qərardadda təsbit edilmiş hüquqi mövqeni rəhbər tutmalıdırlar.

**4.20.25.** Ali Məhkəmənin məhkəmə tərkibi eyni xarakterli məsələlərə baxarkən hüquqi məsələyə dair Ali Məhkəmənin inzibati kollegiyasının bütün hakimlərindən ibarət tərkibi tərəfindən qəbul edilmiş qərardadda təsbit edilmiş hüquqi mövqedən fərqli qərarın qəbul olunmasını zəruri hesab etdikdə məsələyə qanunla nəzərdə tutulmuş qaydada baxılır.

**4.20.26.** Məhkəmə qərarının motivasiyası və prosessual xərclərlə bağlı kassasiya şikayətinə yol verilmir. Məhkəmənin aşağıdakı qərardadlarından kassasiya şikayəti verilə bilməz:

a. məhkəmə prosesinin aparılması haqqında məhkəmə qərardadlarından (sərəncamlarından);
b. məhkəmə iclasının vaxtının dəyişdirilməsi, təxirə salınması və ya məhkəmə iclasının vaxtı ilə bağlı müəyyən müddətin təyin olunması haqqında məhkəmə qərardadlarından;
c. sübutlar haqqında və ya sübutların cəlb olunması barədə vəsatətlərin rədd edilməsi haqqında məhkəmə qərardadlarından;
d. müstəqil işlər və ya hüquqi tələblər üzrə icraatın bir icraatda birləşdirilməsi və ya bir icraatın müstəqil işlər üzrə icraata ayrılması haqqında məhkəmə qərardadlarından;
e. məhkəmə üzvlərinə etirazlar ilə bağlı məhkəmə qərardadlarından;
f. İPM ilə müəyyən edilmiş digər hallarda.

**4.21. Yeni açılmış hallar üzrə icraat qaydasında xüsusi hüquqi müdafiə**

**4.21.1.** Qanuni qüvvəyə minmiş məhkəmə qərarının qəbul edilməsi ilə başa çatmış inzibati məhkəmə icraatı, sonradan yeni sübutların və ya halların aşkar olunduğu və həmin sübutların və ya halların ərizəçidən asılı olmayan səbəblərdən ilkin icraat zamanı təqdim olunmadığı təqdirdə, proses iştirakçılarından birinin yeni açılmış hallarla bağlı ərizəsinə əsasən təzələnə bilər.

**4.21.2.** Yeni açılmış hallarla bağlı icraatın təzələnməsi barədə ərizəyə qərarına qarşı ərizə verilmiş məhkəmə tərəfindən baxılır. Yeni açılmış hallarla bağlı icraatın təzələnməsinə dair ərizə vermiş şəxs (ərizəçi), habelə qərarına qarşı ərizə verilmiş məhkəmədə icraatın iştirakçıları olmuş başqa şəxslər, yeni açılmış hallar üzrə məhkəmə icraatının iştirakçıları sayılırlar. Yeni açılmış hallarla bağlı icraatın təzələnməsinə dair ərizə, qanunda nəzərdə tutulmuş

sübutların və ya halların ərizə verən şəxsə məlum olduğu gündən 3 (üç) ay müddətində verilə bilər. Mübahisə edilən qərarın qanuni qüvvəyə mindiyi vaxtdan 3 (üç) il keçdikdən sonra yeni açılmış hallarla bağlı icraatın təzələnməsinə dair ərizə, yalnız ilkin icraat zamanı məhkəmənin istinad etdiyi ittiham hökmü ləğv olunduğu hallarda verilə bilər. Yuxarıda göstərilən müddətlərin buraxıldığı hallarda, həmin müddətlərin bərpasına yol verilmir. Yeni açılmış hallarla bağlı icraatın təzələnməsinə dair ərizədə aşağıdakılar göstərilməlidir:

a. mübahisə edilən məhkəmə qərarı haqqında məlumat;

b. icraatın təzələnməsi üçün əsaslar (yeni açılmış halları təsdiq edən məlumatlar);

c. məhkəmə qərarının mübahisə edilən hissəsi və ya həcmi barədə məlumat;

d. ərizənin qanunda nəzərdə tutulmuş müddətdə verildiyini təsdiq edən sübutetmə vasitələri haqqında məlumat.

**4.21.3.** Ərizəyə yeni sübutlar və hallar barədə sənədlərin, habelə başqa müvafiq sənədlərin əsli və ya surəti əlavə olunur.

**4.21.4.** Yeni açılmış hallarla bağlı icraatın təzələnməsinə dair ərizənin verilməsi məhkəmə qərarının icrasını dayandırmır. Lakin vəsatət əsasında məhkəmə qərarının icrasının dayandırılması barədə qərardad qəbul edə bilər. Məhkəmə qərarının icrasının dayandırılması ilə bağlı ərizəyə (vəsatətə) baxılarkən müvəqqəti məhkəmə müdafiəsi üçün nəzərdə tutulmuş müvafiq qaydalar tətbiq olunur. Məhkəmə icraatın təzələnməsi üçün ərizədə göstərilmiş əsaslarla bağlıdır. İcraatın təzələnməsi üçün məhkəmə qanunda nəzərdə tutulmuş əsaslardan hər hansı birinin mövcud olduğunu müəyyən etdiyi hallarda, ərizənin təmin edilməsi və yeni açılmış hallarla bağlı icraatın təzələnməsi haqqında qərardad qəbul edir.

**4.21.5.** İcraatın təzələnməsi üçün qanunda nəzərdə tutulmuş əsaslardan hər hansı birinin mövcud olmadığı hallarda, ərizənin rədd edilməsi haqqında məhkəmə tərəfindən qərardad qəbul edilir.

**4.21.6.** Müvafiq səlahiyyətli məhkəmə ilkin icraat üzrə araşdırmanı davam etdirir. İlkin məhkəmə qərarının qəbul edildiyi zaman istinad edilmiş faktiki hallar yeni sübutlar əsasında məhkəmə tərəfindən araşdırılır və ilkin ərizə üzrə yeni qərar qəbul edilir.

**4.21.7.** Mübahisə ilə bağlı iş üzrə məhkəmənin yeni qərarı ilkin qərarı əvəz edir. Məhkəmə həmin qərarda yeni açılmış hallar üzrə icraatla əlaqədar prosessual xərclər haqqında məsələni də həll edir.

**5. Yekun müddəalar**

**5.1.** Bu Təlimat tətbiq edilərkən qanunçuluq prinsipi rəhbər tutulmalıdır.

**5.2.** Şikayət üzrə icraat çərçivəsində həm inzibati orqan, həm də məhkəmə mütləq şikayətçinin dinlənilmə hüququnu təmin etməlidir.

**5.3.** Məhkəmə inzibati orqanların qərarlarını hərtərəfli araşdırdıqdan sonra onlara göstəriş verməkdə, o cümlədən inzibati orqanı qanunu düzgün tətbiq etməyə yönləndirməkdə haqlıdır.

## QEYD ÜÇÜN

**“Zərdabi-Nəşr” MMC.**
Bakı şəhəri,
Nizami rayonu, Keşlə qəcəbəsi,
Nizami Abdullayev küçəsi, 12.

Çapa imzalanmışdır: 01.07.2022-ci il.
Şərti çap vərəqi:6,25.
Şriftin qarnituru: Times New Roman.
Ofset üsulu ilə şap edilmişdir.
Formatı: 60x84 1/16.
Sayı: 500